

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

29 dekabr 2024-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

Alim və pedaqoq ömrünün işığı ➔Səh.5

İzmir Yüksək Texnologiyalar İnstitutunun rektoru BDU-da ➔Səh.6

Rumıniyanın Alexandru İoan Cuza İasi Universitetinin nümayəndələri BDU-da ➔Səh6

BDU dünyanın ən yaxşı universitetlərinin fənn reytinqində yer alıb ➔Səh.6

BDU-nun professoru Qulu Məhərrəmlinin 70 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib ➔Səh.9

Audiovizual Şura BDU-da “Media subyektlərinin və jurnalistlərin fəaliyyəti hüquqi müstəvidə” adlı seminar təşkil edib ➔Səh.10

BDU tələbələri Rusiyanın Roskonqress Fondunun təcrübə kursunda iştirak ediblər ➔Səh.11

BDU-da “Gənc Liderlər” Forumu keçirilib ➔Səh.11



BDU kollektivi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib

➔Səh.2



BDU-nun nəşri olan “Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı”nın təqdimatı keçirilib

➔Səh.2



Dünənin, bugünün, sabahın Şirməmməd Hüseynov dərsləri

➔Səh.4



BDU Elmi Şurasının növbəti iclası keçirilib

➔Səh.5



BDU və TÜRKSOY arasında anlaşma memorandumu imzalanıb

➔Səh.9



## Ən böyük azərbaycanlı – Ümummilli Lider Heydər Əliyev

***Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər ən taleyüklü məqamlarda öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, əbədiyyət qazanırlar. Ümummilli Liderimiz Heydər Əliyev kimi!***

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, dünya siyasətinə adını yazdıran müdrik siyasi lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Bütün həyatını xalqına həsr edən Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

Xalqını sonsuz məhəbbətlə sevən, azərbaycanlı olmağı ilə həmişə qürur duyan fenomenal şəxsiyyət Heydər Əliyev bütün zamanların ən böyük azərbaycanlısı kimi hər birimizin ürəyində özünə taxt qurub. Azərbaycanda dövlətçilik ənənələrinin zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması məhz Ulu Öndər Heydər Əliyevin yorulmaz, səmərəli fəaliyyəti sayəsində mümkün olub. Azərbaycan xalqının yaddaşına xilaskar, qurucu, yaradıcı lider kimi həkk olunan dahi şəxsiyyət bütün dünya azərbaycanlılarının fəxrinə çevrilib. Ulu Öndər Heydər Əliyevin fədakar əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi ilə müasir Azərbaycanın dövlətçiliyinin siyasi, iqtisadi əsasları yaradılıb, müstəqil Azərbaycan dünyada öz layiqli yerini tutub. Onun siyasi, sosial-iqtisadi, elm-təhsil, ictimai və mədəni həyatın bütün sahələrində apardığı islahatlar, beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması Azərbaycanın müasir inkişafının təminatı olub.

Heydər Əliyevin şərəfli ömür yolu Vətəninə, xalqına bağlı hər bir azərbaycanlı üçün parlaq nümunədir. Ulu Öndər çoxşaxəli fəaliyyəti, xalqına, millətinə, dövlətinə sonsuz sevgisi ilə, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirmiş fenomenal şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazanaraq hələ sağlığında canlı əfsanəyə çevrilib.

Xalqımız həm də ona görə xoşbəxtdir ki, Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi siyasi xətt, dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyası onun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün bunların sayəsində hazırda ölkəmiz intibah və çiçəklənmə dövrünü yaşayır.

Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969–1982-ci illər Azərbaycanda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşüb. 1993-2003-cü illər Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində inkişafın və tərəqqinin bünövrəsinin qoyulduğu dövr kimi tarixin yaddaşına qızıl hərflərlə yazılıb. 2003-cü ildən başlayaraq isə ölkəmiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi mütərəqqi islahatlarla inkişafın yeni mərhələsinə qədəm qoyaraq regional güc mərkəzinə çevrilib, dünyada öz layiqli yerini tutub.

*(Ardı 2-ci səhifədə)*

## BDU-da Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib

➔Səh.3

# Ən böyük azərbaycanlı – Ümummilli Lider Heydər Əliyev

*“Vətənə, millətimə, xalqıma məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur”.*

*Ümummilli Lider Heydər Əliyev*

(əvvəli 1-ci səhifədə)

Əminik ki, bu gün daim azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyevin ruhu şaddır - xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bərpa edilib, 30 ildən bəri düşmən əsarətində olan Qarabağımız əbədi azadlığına qovuşub. Bu gün Azərbaycan bayrağı əzəli torpaqlarımızda, Şuşada, Xankəndidə, Xocalıda, Əsgəranda dalğalanır. Heydər Əliyevin böyük siyasəti qalib gəlməklə onun ölməzliyini bir daha təsdiqləyib.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. Hər bir Azərbaycan



vətəndaşının borcu isə Heydər Əliyevin şah əsəri olan Azərbaycanı qoruyub yaşatmaq, onun ideyalarını uğurla həyata keçirməkdir. Ömrünü Azərbaycana fəda etmiş müdrik siyasətçi, xalqımızın Ümummilli Llideri Heydər Əliyevin adı daim dərin hörmətlə xatırlanacaq, onun əziz və unudulmaz xatirəsi xalqımız tərəfindən əbədi olaraq ehtiramla yad ediləcək. Azərbaycan xalqının Ümummilli Lideri, Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu Heydər Əliyevin xatirəsinə ən böyük abidə müstəqil, qüdrətli, yenilməz Azərbaycandır! Azərbaycanın və Ulu Öndərimiz Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcək!

## BDU kollektivi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib



***Dekabrın 10-da Bakı Dövlət Universitetinin kollektivi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib.***

Ümummilli Liderin məzarı önünə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad olunub.

# BDU-nun nəşri olan “Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı”nın təqdimatı keçirilib

***Dekabrın 11-də BDU-nun nəşri olan “Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı”nın təqdimatı keçirilib.***

Təqdimat mərasimində BDU-nun rektoru, kitabın ideya müəllifi Elçin Babayev qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixində dərin iz qoymuş görkəmli lider, müdrik siyasətçi və xalqımızın milli inkişaf yolunun əsas memarıdır. Ulu Öndər Heydər Əliyev müdrik və cəsarətli qərarları, xalqımızın və dövlətimizin qüdrətlənməsi naminə apardığı məqsədyönlü və ardıcıl mübarizəsi ilə çoxəsrlik tariximizə əbədi həkk olunub. İllər ötdükcə dahi rəhbərin dövlətimizin və xalqımızın taleyindəki tarixi rolu, xilaskarlıq missiyasının böyüklüyü daha da aydın görünür: “2023-cü ilin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi hər birimizdə qürur, böyük minnətdarlıq və ali ehtiram hissləri yaratdı. Məhz “Heydər Əliyev İli”ndə Prezident İlham Əliyevin rəhbərliyi ilə suverenliyimiz, ərazi bütövlüyümüz tam bərpa olundu. Qarabağda aparılmış lokal xarakterli antiterror əməliyyatları nəticəsində torpaqlarımızda separatçılığın kökü birdəfəlik kəsildi. Bu nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi uzaqgörən siyasət və milli ideologiyanın davamıdır. Məhz bu siyasət nəticəsində hazırda Azərbaycan dünyanın qüdrətli, öz şərtlərini diktə edən, regionun taleyini müəyyənləşdirən dövlətlərindən birinə çevrilib”.





Rektor bildirib ki, Azərbaycan təhsilinin və elminin aparıcı qüvvəsi olan BDU kollektivi də Universitetin dünya şöhrətli məzunu, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan ildə silsilə tədbirlər, beynəlxalq konfranslar keçirib, fundamental kitablar nəşr edib. Bu baxımdan BDU-da nəşrə hazırlanmış “Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı” özünün zəngin informasiya tutumu, əhatəliliyi, dolğunluğu ilə böyük əhəmiyyətə malikdir: “Universal xarakterli bu biblioqrafik əsər Ulu Öndər Heydər Əliyevin zəngin irsinin tədqiqi və təbliği üçün qiymətli mənbədir. Biblioqrafik göstərici ilk dəfə 2003-cü ildə Ulu Öndər Heydər Əliyevin 80 illik yubileyi münasibətilə BDU-nun professoru, Əməkdar elm xadimi Abuzər Xələfov və dosent Solmaz Sadıqova tərəfindən hazırlanıb. Həmin ənənənin davamı olaraq əsər İnformasiya və sənəd menecmenti fakültəsinin Sənəd menecmenti kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqova tərəfindən 2023-cü ildə yenidən işlənilib, eyni zamanda son iki onilliyin nəşrləri əhatə olunmaqla yeni materiallarla zənginləşdirilib: “Əminik ki, gərgin əməyin, ciddi araşdırmaların nəticəsində meydana gəlmiş bu kitab geniş oxucu kütləsi, müxtəlif elm sahələrində fəaliyyət göstərən alimlər, müəllimlər, tələbələr tərəfindən böyük maraqla qarşılanacaq, etibarlı informasiya mənbəyi olacaq. Kitab Heydər Əliyev irsinin, azərbaycançılıq ideyasının öyrənilməsi və təbliğinə böyük töhfədir”.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibi Sultan Raev isə Ümummilli Liderin tək Azərbaycanın deyil, Türk dünyasının böyük oğlu olduğunu vurğulayıb. O qeyd edib ki, Ulu Öndərin TÜRKSOY-un yaranmasında mühüm rolu olub. Türk dünyası dövlətləri ilə qurulan beynəlxalq əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyini daim vurğulayan Ulu Öndər TÜRKSOY-un fəaliyyətinə də xüsusi qayğı göstərib. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Azərbaycanın TÜRKSOY-da daimi nümayəndəsi Elçin Qafarlı, Qazaxıstan Milli Kitabxanasının direktoru Bakıtjamal Ospanova, Qazaxıstan Milli Akademik Kitabxanasının direktoru Qaziza Nurqaliyeva, Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teşabayeva, Qırğızıstan Milli Kitabxanasının direktoru Aynura Askarova çıxışlarında kitabın Ulu Öndərin zəngin həyat və fəaliyyətinin öyrənilməsində qiymətli mənbə olduğunu qeyd ediblər.

Kitabın tərtibçisi, İnformasiya və sənəd menecmenti fakültəsinin Sənəd menecmenti kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqova isə vurğulayıb ki, “Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı”nda ümumilikdə 1433 adda mənbənin biblioqrafik təsviri təqdim olunur. Kitab 4 hissədən ibarətdir. Kitabın birinci hissəsi “Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti” adlanır. Burada Ulu Öndərin həyat və fəaliyyətinin salnaməsi xronoloji ardıcıllıqla verilir. Məlumat kitabının “Ümummilli Lider Heydər Əliyevin kitab şəklində çap edilmiş əsərləri (1969-1990-cı illər)” adlı ikinci hissəsi üç yarımbölmədən ibarət olmaqla 1970-2013-cü illəri əhatə edir. Kitabın “Ümummilli Lider Heydər Əliyev haqqında ədəbiyyat” adlı üçüncü hissəsində materiallar 1980-2023-cü illəri əhatə etməklə səkkiz yarımbölmədə təqdim olunur. “Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı”nın “Yardımçı göstəricilər” adlı dördüncü hissəsində Ulu Öndər Heydər Əliyevin əsərlərinin və Ümummilli Lider haqqında yazan müəlliflərin əlifba göstəriciləri verilir.

# BDU-da Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib

***Dekabrın 12-də BDU-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndərin Universitetin foyesində qoyulmuş büstü önünə gül dəstələri qoyub, xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.

Sonra anım tədbiri BDU-nun akt zalında davam edib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev bildirib ki, Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində öyrənilməsinə, təbliğinə və tətbiqinə daim böyük ehtiyac olan irs yaradıb. Ümummilli Liderin respublikamıza rəhbərlik etdiyi dövrlər möhtəşəm quruculuq və tərəqqi, davamlı və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Dahi şəxsiyyətin sovet dövründə və müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi illər onun dövlətçilik fəlsəfəsinin əsasını təşkil edən azərbaycançılıq ideyasının formalaşması ilə müşayiət olunub. Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycanda sənaye, iqtisadiyyat, kənd təsərrüfatı, elm, təhsil, səhiyyə sahələri sürətlə inkişaf edib. Ulu Öndərin ikinci dəfə, ölkəmiz üçün həlledici bir məqamda hakimiyyətə gəlişi isə əsl xilaskarlıq missiyası idi. 1993–2003-cü illərdə Ulu Öndər Azərbaycanın müasir tarixinin şərəfli səhifələrinin yazılmasına və dövlətimizin müstəqilliyinin əbədiliyinə hərtərəfli zəmin yaradıb. Məhz Ümummilli Liderin siyasi müdrikliyi, iradəsi və qətiyyəti, mükəmməl idarəçilik qabiliyyəti sayəsində dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan keçid dövrünün çətinliklərini uğurla arxada qoyub, yenidən dirçəliş mərhələsinə daxil olub. Bütün sahələrdə islahatlar geniş vüsət alıb, Ulu Öndər Heydər Əliyev Azərbaycanın beynəlxalq arenada nüfuzunun artırılmasında, sülh, sabitlik və inkişafın təmin edilməsində böyük rol oynayıb.





Rektor vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin layiqli davamçısı kimi onun müəyyən etdiyi siyasi xətti uğurla davam etdirir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Ermənistanın 30 illik işğalına son qoydu. Heç bir gün çəkməyən lokal antiterror əməliyyatı ilə ölkəmizin ərazi bütövlüyü təmin edildi, suverenliyimiz bərpa olundu. Bütün bu qələbələr məhz Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlət müstəqilliyimizin möhkəm təməlinin qoyulması, milli ruh, azərbaycançılıq məfkurəsinin yüksəlməyə başlaması, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar sayəsində qazanıldı. Hazırda hərb meydanında qazandığımız zəfərin davamı kimi darmadağın edilmiş torpaqlarımızda genişmiqyaslı quruculuq işləri aparılır. İllərlə işğal altında qalan torpaqlarımızda həyat yenidən qaynayır. Ölkəmiz qlobal tədbirlərə ev sahibliyi edir, xalqımızın müdrikliyini, dövlətimizin qüdrətini nümayiş etdirir.

Milli Məclisin üzvü, BDU-nun İctimai Nəzarət Şurasının üzvü Əminə Ağazadə, Milli Məclisin üzvü Aydın Hüseynov və Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov çıxışlarında dahi liderin Azərbaycan xalqı və dövləti üçün gördüyü çoxşaxəli fəaliyyətindən, həyata keçirdiyi layihələrdən, ölkəmizin beynəlxalq aləmdə söz sahibinə çevrilməsindəki misilsiz xidmətlərindən bəhs ediblər. Qeyd olunub ki, bütün varlığı ilə Vətənə və xalqına bağlı olan Ümummilli Lider Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə həsr edib.

Sonda Azərbaycan Dövlət Televiziyasının Ulu Öndər Heydər Əliyevə həsr etdiyi "Tarix yazan Qalib" sənədli filmi nümayiş olunub. Filmin ssenari müəllifi BDU-nun Jurnalistika fakültəsinin müəllimi Mahir Qəribovdur.

# BDU-da "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti qonağı professor Şahlar Əsgərov olub

***Dekabrın 5-də BDU-nun və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti qonağı Əməkdar elm xadimi, professor Şahlar Əsgərov olub.***

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında müstəsna xidmətlərindən danışıb. O, Ümummilli Liderin müstəqil Azərbaycanın xilaskarı və memarı kimi müqəddəs missiyasının sonrakı qələbələrimizin açarı olduğunu, Ulu Öndərin layiqli varisi, Prezident İlham Əliyevin bu missiyanı uğurla davam və inkişaf etdirdiyini vurğulayıb. O, həmçinin YAP-ın ölkə daxilində dövlətçilik ideologiyasının, vətənpərvərlik ruhunun aşılanması istiqamətində gördüyü işlər barədə də məlumat verib, gənclərə yaradılan hərtərəfli şəraitdən, geniş imkanlardan bəhs edib.



Professor Şahlar Əsgərov çıxışında 1988-1992-ci illərdə Azərbaycanın keçirdiyi ağır və böhranlı dövrü xatırladıb. O, 91 nəfər ziyalı ilə birlikdə Ulu Öndər Heydər Əliyevə müraciət etdiklərini və dahi liderin xilaskarlıq missiyasını öz üzərinə götürdüyünü qeyd edib. Şahlar Əsgərov Ümummilli Liderin dövlətçiliyimizin, milli dəyərlərimizin qorunmasında müstəsna xidmətləri, uğurlu daxili və xarici siyasəti, sosial, elm, təhsil, mədəniyyət sahələrində həyata keçirdiyi islahatlar barədə tələbələri məlumatlandırıb, Ulu Öndərlə bağlı xatirələrini bölüşüb.

Daha sonra tələbələrin sualları cavablandırılıb.

# "Heydər Əliyev mühazirələri"nin növbəti qonağı Milli Məclisin üzvü Hikmət Babaoğlu olub

***Dekabrın 10-da BDU-nun və Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatının təşkilatçılığı ilə "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti qonağı Milli Məclisin üzvü, professor Hikmət Babaoğlu olub.***

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, Azərbaycanda gənclər siyasətinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, onun rəhbərliyi ilə gənclərin inkişafı və vətənpərvər ruhda tərbiyəsi dövlətin əsas məqsədlərindən biri kimi müəyyən edilib. 2003-cü ildən sonra Azərbaycanda gənclər siyasəti mahiyyətcə yeni mərhələyə yüksəlib. Ölkədə gənclərin sosial vəziyyətinin yaxşılaşdırılması, dövlət orqanlarında gənclərin üstünlük təşkil etməsi göstərir ki, Prezident İlham Əliyev gənclərlə bağlı siyasətə xüsusi həssaslıqla yanaşır.



Milli Məclisin üzvü, professor Hikmət Babaoğlu isə bildirib ki, Azərbaycanın indiki uğurlarının təməlində məhz Ulu Öndərin dövlətçilik və azərbaycançılıq ideologiyası dayanır. Bu ideologiya xalqın rifahına, milli kimlik şüurunun oyanmasına xidmət edir. Ölkəmizdə böyük ziyalı ordusunun yaranmasında Ümummilli Liderin danılmaz rolu olub.

Müstəqillik dövründə ölkəmizin vətəndaş müharibəsindən xilas olması, Ermənistanla atəşkəsin əldə edilməsi, Azərbaycanın bu gün uğurla həyata keçirilən neft strategiyasının, iqtisadi və balanslaşdırılmış xarici siyasətinin əsasları da məhz Ulu Öndər tərəfindən qoyulub: "Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağa, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail oldu. Ümummilli Liderin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsi xalqımızın nicatına yol açdı, Azərbaycan parçalanmaq və vətəndaş müharibəsi təhlükəsindən qurtularaq güclü bir dövlətə çevrildi".

Tədbirin sonunda qonaq gənclərin mövzu ilə bağlı suallarını cavablandırıb.

# Dünənin, bugünün, sabahın Şirməmməd Hüseynov dərsləri

***Azərbaycanın klassik ziyalıları xalqı öz hüquqları uğrunda mübarizəyə səsləmək, milli özünüdərk və azərbaycançılıq ideyalarını təbliğ etmək, imperiya basqılarının ən ağır çağlarında belə əsrlərdən süzülüb gələn milli-mənəvi dəyərlər sistemini qorumaq və zənginləşdirmək, onu gələcək nəsillərə çatdırmaq işində uzun müddət bədii ədəbiyyata, XIX əsrin ikinci yarısından isə yeni yaranan bir qüvvəyə - mətbuata güvənmişlər.*** Klassik ziyalılarımızın xalqa müraciət tribunasına çevrilməsi ilə mətbuatımız milli azadlıq hərəkatını reallaşdırdı. Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə kimi onlarca ziyalı qüvvəsi mətbuat vasitəsilə milləti qəflət yuxusundan oyatmaq kimi müqəddəs bir missiyanı yerinə yetirdi.

Bu ziyalılarımızın hər birinin publisist fəaliyyəti mükəmməl bir məktəb səviyyəsinə yüksəldi. Və hər bir elmi-ədəbi fəaliyyət o zaman məktəb səviyyəsinə yüksəlir ki, onun mütləq davamçıları olur. Mirzə Fətəli Axundov, Mirzə Cəlil, Məhəmməd Əmin Rəsulzadə məktəblərinin bu gün də davamçıları var və hətta bu davamçıların özləri də bəzən məktəb yaradıcısı səviyyəsinə yüksəlir. Klassik mətbuat, publisist məktəblərinin bu günümüz üçün aktuallıq faktlarını yorulmadan tədqiq edən, onların yaradıcılığının ən vacib məqamlarını yenidən canlandıran tədqiqatçılar sırasında professor Şirməmməd Hüseynov xüsusi yer tutur. Və elə bəri başdan deyim ki, klassik mətbuatımızın əvəzolunmaz tədqiqatçısı Ş.Hüseynovun polifonik - çoxistiqamətli yaradıcılığının özü çoxdan mükəmməl bir ədəbi məktəb statusu qazanıb.

Mən bu yerdə Ş.Hüseynovun ağır (!) və zəngin bioqrafiyasından danışmayacam. Çünki onun bioqrafiyası və fəaliyyətinin bir çox məqamı bu böyük şəxsiyyətə



həsr olunmuş məqalələrdə, monoqrafiyalarda öz əksini tapıb. Mən bu yerdə Şirməmməd Hüseynovun klassik mətbuatımızın tədqiqi ilə bağlı monoqrafiyalarını xatırlatmaq istərdim. Çünki onun kitablarının təkcə adlarına diqqət etmək bu əsərlərin silqətini anlamağa imkan verir: "Müstəqilliyin çətin yolu... reallıqlar, düşüncələr" (1996), "Mənəvi irsimiz və gerçəklik" (2004), "Milli haqq və ədalət axtarışında" (2004), "Mətbu irsimizdən səhifələr" (2007) və s. Şirməmməd Hüseynov bu əsərlərində milli müstəqilliyin qazanılması və onun xalqa verdiyi qüvvə, mətbuat tariximizin və klassik publisistikamızın bu gün üçün də aktuallıq kəsb edən faktlarını gənc nəslə çatdırmaq, mətbuatın milli azadlıq ideyalarının formalaşdırmasındakı rolu, klassik mətbuatımızın tarixini yeni yaddaşlara köçürmək və s. kimi fundamental vəzifələri gerçəkləşdirmişdir. Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti və onun M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli kimi yaradıcılarının mətbu fəaliyyəti Ş.Hüseynov tədqiqatlarının bel sütunudur. Şirməmməd müəllim M.Ə.Rəsulzadənin əsərlərini toplamış, transliterasiya etmiş və onların faksimile nəşrini ortaya qoymuşdur. Xalq Cümhuriyyəti Parlamentinin iclaslarında müzakirə edilmiş bir sıra məsələlərlə bağlı yazıları ayrı-ayrı kitablar formatında nəşr etdirmişdir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəxsən mənim də iştirak etdiyim jurnalistlərlə görüşündə Şirməmməd müəllimin elmi fəaliyyətinə çox yüksək qiymət verdi və dedi: "Azərbaycan xalqı, xüsusilə Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı sizin işinizə çox yüksək qiymət veribdir". Əlbəttə, bu qiymətin ən qiymətlisi elə Prezidentin bu sözləri və Şirməmməd Hüseynova "Şöhrət" və "Şərəf" ordenlərinin verilməsi ilə bağlı sərəncamlarıdır.

Prezident həmin görüşdə bu böyük tədqiqatçı - alimə yaratdığı ədəbi məktəbə görə xalqın verdiyi qiyməti önə çəkməklə onun fəaliyyətinin əvəzolunmazlığını bir daha qeyd etdi. Şirməmməd müəllimin M.Ə.Rəsulzadə əsərlərinin bir neçə cildini öz hesabına nəşr etdirdiyindən xəbər tutan Prezident İlham Əliyev həmin cildləri və növbəti digər cildləri dövlət hesabına nəşr etmək üçün sərəncam imzaladı.

Przidentimizin xüsusi qeyd etdiyi ki, alim-tədqiqatşı Ş.Hüseynovun fəaliyyəti, birmənalı olaraq, xalqımız tərəfindən və xüsusən də ziyalılarımız tərəfindən yüksək qiymətləndirilib. Hələ Şirməmməd Hüseynovun sağlığında xalq şairi Bəxtiyar Vahabzadə onu "ləyaqət mücəssəməsi", professor Fami Mehdi "dövrün, zamanın canlı salnaməsi", professor Şamil Qurbanov "mətbuat tarixinin çətin yollarının qurucusu", akademik Vasim Məmmədəliyev "nəfsinə sahib insan", Milli Məclisin deputatı Fazil Mustafa "aydın görünən aydın", şair Sabir Rüstəmxanlı "canlı əfsanə", professor Yalçın Əlizadə "jurnalistikamızın vicdan səsi", professor Qulu Məhərrəmli "istiqlal işığı" kimi epitetlərlə qiymətləndirmişdir.

Xalq şairi, akademik Bəxtiyar Vahabzadənin Şirməmməd müəllimə yazdığı açıq məktubundakı aşağıdakı fikirləri bu böyük müəllimin bütöv xarakterini belə səciyyələndirir: "Əziz dostum, sən vətənpərvərlik, haqsevərlik, düzgünlük, gözütoxluq kimi bir çox mənəvi xüsusiyyətlərinlə mənə həmişə XIX əsrin sonu, XX əsrin əvvələrində yaşamış böyük əqidəli ziyalılarımızı xatırlatmısan. H.Zərdabi milli mətbuatımızın təməl daşını qoydusa, sən bu böyük işin davamçısı kimi bir neçə jurnalist nəslinin müəllimi olmusan. Əziz dostum, məndən "Şirməmməd kimdir?" - deyə soruşsalar mən iki misra ilə belə cavab verərdim:

*"Şirməmməd - əxlaqın, haqqın öz səsi*

*Ləyaqət, dəyanət mücəssəməsi!"*

Şairin bu poetik sətirləri Şirməmməd Hüseynovun bir şəxsiyyət kimi xarakterinin ümumiləşdirilmiş obrazıdır.

Türk dünyasının böyük ədibi, "Az-Ya" kimi sovet ideologiyasını sarsıdan bir traktatın müəllifi, Qazaxıstanın Xalq şairi Oljas Süleymenov Bəxtiyar Vahabzadəyə bir məktubunda Şirməmməd müəllimin sovet imperiyasına qarşı azad fikirlərini nəzərdə tutaraq deyirdi:

*"Bir anın içində uçub məhv olur,*

*Yüz illik, min illik imperiyalar"*

Şirməmməd müəllimin tələbəsi olmuş, öz publisist cəsarəti, Vətənə sevgisi ilə diqqət çəkən Mirşahin Ağayevin iki cümləsi: "Azərbaycanda bir Şirməmməd Hüseynov fenomeni var. Bu adamın Azərbaycan sevgisi məndən ötrü Məhəmməd Əmin Rəsulzadənin eşqindən balaca deyil."

Göründüyü kimi, Şirməmməd Hüseynov şəxsiyyəti və yaradıcılığı Azərbaycan elmi-ictimai, ədəbi fikir məkanında bir məktəb səviyyəsində qiymətləndirilmişdir. Ş.Hüseynov şəxsiyyəti ilə bağlı ziyalı fikirlərinin hamısında o, hər şeydən əvvəl, bir "müəllim" anlayışı ilə təqdim edilir. Şirməmməd Hüseynovun ömür yolu, əlbəttə, ilk növbədə onun müstəqim mənada müəllimliyi ilə bağlıdır. Ömrünün 70 ilindən çoxunu Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə həsr etmiş Şirməmməd Hüseynov - bu böyük alim o illər ərzində müəllim şərəfini elə yüksəklərə qaldırmışdır ki, bu ləyaqət təkcə Jurnalistika fakültəsində deyil, bütövlükdə müqəddəs Universitetimizdə hamının qəbul etdiyi bir məktəb səviyyəsinə yüksəlmişdir. Şirməmməd Hüseynovun yaratdığı elmi, publisistik, vətənsevərlik, həqiqətə xidmət, tələbəsinə məhəbbət kimi ülvi yaradıcılıq məktəbləri dünənin, bu günün və sabahın dərsləri olaraq öz qiymətini daim saxlayacaq.

***Cahangir Məmmədli,***
*BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri, professor*

# BDU-da "Böyük türk şairi Nazim Hikmət və türk dünyası" kitabının təqdimatı keçirilib

***Dekabrın 10-da Filologiya fakültəsində Türkologiya kafedrasının təşkilatçılığı ilə Türkiyənin Ərzincan Binəli Yıldırım Universitetinin professoru, tanınmış ədəbiyyatşünas alim və yazıçı Ali Kafkasyalının "Böyük türk şairi Nazim Hikmət və türk dünyası" kitabının təqdimatı keçirilib.*** Tədbirdə türkiyəli qonaqlar - Ali Kafkasyalı və Ərzincan Binəli Yıldırım Universitetinin Sosial Elmlər İnstitutunun direktoru Nevzət Tozlu, fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov Ali Kafkasyalının çoxşaxəli ədəbi və elmi yaradıcılığı haqqında məlumat verib. Müəllifin Azərbaycanda nəşr olunmuş "Qafqaz qaçaqları", "Qartallar sərhəd tanımaz" adlı romanları, Səməd Vurğun haqqında monoqrafiyası və Güney Azərbaycanla bağlı araşdırmalarından danışıb. Məhərrəm Məmmədov Ali Kafkasyalının "Böyük türk şairi Nazim Hikmət və türk dünyası" kitabının məzmunu, burada əks olunan məsələlər barəsində geniş söz açıb.

Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu Ali Kafkasyalının biblioqrafiyasını, kitabın əhatə etdiyi mövzuları şərh edib. O, kitabda Nazim Hikmətin "Şəxsiyyəti və şairliyi", "Yaşadıqları", "Düşüncələri və çalışmaları" adlı fəsillərin məzmununa toxunub və şairin Azərbaycana olan sevgisindən bəhs edən paraqrafı dinləyicilərin diqqətinə çatdırıb.

Sonra Nazim Hikmətin 1957-ci ildə BDU-da olarkən etdiyi çıxışın videoçarxı təqdim edilib.

Türkologiya kafedrasının dosenti Kəmalə Nəcəfova, kafedranın doktorantı Məleykə Mirzəli, magistrantı Aysel Həsənova çıxışlarında kitabın şairin irsi ilə bağlı gələcəkdə aparılacaq türkoloji araşdırmalara istiqamət verəcəyini, Türk xalqları ədəbiyyatı fənninin tədrisi üçün yararlı vəsait olacağını vurğulayıblar.

Sonda söz türkiyəli qonağa - professor Ali Kafkasyalıya verilib. O, böyük şairin yaradıcılığının türk ədəbi düşüncəsinin inkişafına təsirindən söz açıb, ədibin irsinin onun siyasi baxışları fonunda deyil, ümumtürk aspektindən tədqiq olunmasını vacib hesab edib.

Sonda müəllif tələbə və müəllimlərin suallarını cavablandırıb, iştirakçılara öz imzasıyla kitablarını hədiyyə edib.

# BDU-da "Poeziyamızın parlaq simaları 100 yaşında" adlı kitab sərgisi

***Dekabrın 10-da Bakı Dövlət Universitetinin Elmi Kitabxanası Xalq şairi Nəbi Xəzri və tanınmış şair, ictimai xadim Əli Tudənin 100 illik yubileyləri münasibətilə "Poeziyamızın parlaq simaları 100 yaşında" adlı kitab sərgisi təşkil edib.***

Sərgidə Nəbi Xəzrinin əsərləri, redaktoru olduğu, tərcümə etdiyi, həyat yolu, fəaliyyəti və yaradıcılığı haqqında müxtəlif dillərdə ədəbiyyatlar və Əli Tudənin müəllifi olduğu, haqqında yazılan kitablar, həmçinin şairin oğlu Natiq Cavadzadənin təşəbbüsü və vəsaiti hesabına nəşr olunmuş çoxcildliklər nümayiş olunur.

Sərgidə ümumilikdə 100-ə yaxın nəşr yer alıb.

# Alim və pedaqoq ömrünün işığı

***Müəllim - öyrədən deməkdir. Əsl müəllim o şəxsdir ki, onun öyrətdikləri öyrənənlər üçün həyat kredosuna çevrilə bilir. Məhz belə pedaqoqlardan olan - qayğıkeş insan, yaxşı müəllim, gözəl tədqiqatçı, professor Şirməmməd Hüseynovun ömür kitabından yaddaqalan səhifələri vərəqləmək istərdim.***

Şirməmməd müəllim haqqında uşaq yaşlarında olarkən evdəkilərdən və qohumlardan müəyyən qədər məlumat əldə etmişdim. Onun dövlət televiziyasında apardığı verilişlər, səsləndirdiyi fikirlər, çoxunun deyə bilmədiyini demək cəsarəti və s. barədə məmnunluq hissilə bəhs edirdilər. Yaddaşımın bir küncündə bu ad özünə kök salmışdı. Heç vaxt ağlıma gəlməzdi ki, nə vaxtsa bu böyük insanın dərs dediyi auditoriyalarda mən də olacam, onun tələbəsi olmaqla şərəflənəcəm. İllər keçdi, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə qəbul olundum. Və irəliləyən müddətdə xəbər tutdum ki, fakültə müəllimlərindən biri də məhz Şirməmməd Hüseynovdur. Vaxtilə böyüklərimdən adını eşitdiyim şəxsiyyəti canlı görmək fürsətinin yarandığını fərq etdim.

Vaxt-vədə yetişdi, dərs demək sırası Şirməmməd müəllimə çatdı. Müəllimi canlı olaraq görmək nəsibim oldu. Mühazirələrinə, söhbətlərinə qulaq asdıqda, dərs keçmək metodunu gördükdə vaxtilə eşitdiklərimin həqiqət olduğunu dərk etdim. Şirməmməd müəllim tələbkar müəllim idi. Heç bir dərsinə əliboş gəlməz, yanında mütləq əyani vasitələr olardı. Yaşının çox olmasına baxmayaraq günün nəbzini tuta bilir, mühazirələrini saralmış vərəqlərdən oxumur, elm və texnologiya əsrinə müvafiq maraqlı məlumatlarla auditoriyanı özünə cəlb etməyi bacarırdı.



Onun dərslərində kiminsə sıxıldığı, zəngin tez vurulmasını gözləməsi hallarına rast gəlinməzdi. Vaxt az qala, bir göz qırpımında gəlib keçirdi. Mətbuat tariximizə dərindən bələd olması, klassiklərimizin əsərlərinin orijinalına nüfuz etmək qabiliyyəti, klassik mətbu irsin müasir zamanla səsləşən nümunələrinə yer verməsi dediyi dərsin maraqlı keçməsini şərtləndirən amillərdən idi.

Şirməmməd müəllim dərsdə tələbələrə savadlı, bilikli olmağı, bunlarsız irəli getməyin mümkünsüzlüyünü təlqin edirdi. O, həmişə qeyd edirdi ki, savadı, biliyi olmayan şəxsdən əsl vətənpərvər çıxa bilməz. Çünki vətənpərvərlik biliyə, savada əsaslanmırsa o, yarımçıq vətənpərvərlikdir. Şirməmməd müəllim dərin biliyə sahib olmaqla paralel olaraq, vətəninə, torpağına da çox bağlı şəxsiyyət idi. Yəni biz tələbələrinə təlqin etdiklərinə özü də əməl edirdi. O, həm göründüyü kimi idi, həm də olduğu kimi görünürdü.

Şirməmməd müəllimin öyrədən kimi bir unikal xüsusiyyəti də vardı. O, auditoriyaya daxil olduğu ilk gündən tələbələrə xüsusi diqqət yetirir, istedadlı tələbəni aşağı kursdan öz nəzarətində saxlayırdı. Onun kriteriyalarına cavab verən, seçib bəyəndiyi tələbə isə mütləq təhsilini növbəti mərhələlərdə davam etdirməli, nəticədə fakültədə qalmalı idi. Şirməmməd müəllim istər dekan, istər dekan müavini, istər kafedra müdiri, istərsə də müəllim işlədiyi bütün dönəmlərdə bu prinsiplərə sadiq qalmışdı. Təsadüfi deyil ki, professor Qulu Xəlilov, Famil Mehdi, Yalçın Əlizadə, Nəsir Əhmədli, Akif Rüstəmov, Cahangir Məmmədli məhz onun seçicilik xüsusiyyətinin nəticəsi olaraq Jurnalistika fakültəsində həyata vəsiqə qazanmışdılar. Onun bu yanaşması - fakültədə bilik və bacarığı, elmi və vətəndaşlıq xarakteri ilə seçilən tələbələri tədris prosesinə cəlb etmək işi bu gün də bir ənənə kimi davam edir. Mən də müəllimin bu siyahısına düşməyi bacarmışam. Bakalavriat pilləsini uğurla yekunlaşdırıb, müəllimin də xeyir-duası ilə, təhsilimi növbəti mərhələdə davam etdirdim. İki illik müddətdə də ondan ixtisasım haqqında yeni bilgilər öyrənmiş oldum. Və özüm üçün yəqin etdim ki, nə vaxtsa müəllim olsam mütləq Şirməmməd müəllimə oxşamağa çalışmalıyam. Tale elə gətirdi ki, həyatımı müəllim peşəsinə bağlamalı oldum. 2011-ci ildən doğma universitetimizin doğma fakültəsində işə qəbul olunduqdan sonra müəllimimlə (müəllim-tələbə münasibətləri öz yerində), bu dəfə həm də həmkar kimi çalışmaq xoşbəxtliyinə də nail oldum.

Elm fədailəri sevir. Elə fədailər ki, qarşılarına çıxan bütün çətinliklərə sinə gərməyi bacarırlar. Şirməmməd Hüseynov bu mənada nümunəvi müəllim olub. Alimin hər axtarışı yuxusuz gecələr, narahat gündüzlər, hər tapıntısı alın təri, gərgin zəhmət deməkdir. Şirməmməd müəllimlə uzun müddət Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində çiyin-çiyinə milli mətbuat tariximizin səhifələrini vərəqləmişəm.

Artıq 14 ildir ki, Şirməmməd müəllimdən öyrəndiklərimi auditoriyalarda tələbələrə çatdırmağa çalışıram.

Mən fəxr edirəm ki, Şirməmməd Hüseynovun dekan işlədiyi fakültənin dekan müaviniyəm.

Mən fəxr edirəm ki, Şirməmməd müəllimin müdiri olduğu kafedranın müəllimiyəm.

***Samir Xalidoğlu (Mirzəyev),***
*Milli mətbuat tarixi kafedrasının müəllimi,*
*Şirməmməd Hüseynovun tələbəsi*

## “BDU könüllüləri” və Psixoloji yardım sektoru “Kitabın sirri” adlı görüş keçirib

***Dekabrın 11-də BDU-nun Psixoloji yardım sektorunun nəzdində fəaliyyət göstərən “Oxu klubu” və “BDU könüllüləri” təşkilatının “PennaDoro” klubunun birgə təşkilatçılığı ilə “Kitabın sirri” adlı növbəti görüş keçirilib.***

Görüşdə iştirakçılar tanınmış rus yazıçısı Anton Çexovun məşhur əsərlərindən olan “6 nömrəli palata” kitabını təhlil ediblər. “6 nömrəli palata” əsəri ictimai-fəlsəfi problemləri işıqlandırır. Əsər vasitəsilə yazıçı bədii imkanlardan ustalıqla istifadə edərək, insan şəxsiyyətinə qarşı zorakılıq, hörmətsizlik, haqsızlıq, cəmiyyətdə fərdin haqq-ədalət uğrunda mübarizəsi kimi mühüm məqamları əks etdirib. Görüşdə psixoloji böhranlar və insanın qarşılaşdığı çətin vəziyyətlər müxtəlif aspektlərdən qiymətləndirilib, əsərin psixoloji tərəfləri müzakirə edilib. Yazıçının bu əsərinin insanları bir-biri ilə ünsiyyətə, sosiallaşmağa səsləməsi diqqətə çatdırılıb.

Psixoloji yardım sektorunun psixoloqu İlkanə Mənsumova daha sağlam fərdlər kimi yetişməyin cəmiyyətin inkişafına olan mühüm təsirini vurğulayıb və tələbələri psixoloji mövzular haqqında maarifləndirib.

## BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində “Data Science” təlimlərinə başlanılıb

***Dekabrın 11-də BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi tərəfindən “Data Science” təlimlərinə start verilib.***



Təlim çərçivəsində tələbələrə verilənlərin toplanması, təhlili, vizualizasiyası və analiz nəticələrinin düzgün təqdim edilməsi öyrədiləcək. Həmçinin, “Python”, “Excel” və digər müasir alətlər vasitəsilə verilənlərin emalı və maşın öyrənməsinin əsas prinsipləri praktiki nümunələrlə tədris olunacaq.

Proqrama qəbul olunan tələbələr 6 ay ərzində real şəraitdən götürülmüş problemlərin həlli üzərində çalışacaq, statistik analiz və data vizualizasiyası ilə iş təcrübəsi əldə edəcəklər. Təlimi uğurla başa vuran tələbələr gələcəkdə data analitikası və maşın öyrənməsi sahəsində fəaliyyət göstərmək üçün zəruri olan bilik və bacarıqlara yiyələnəcəklər.

Təlim iştirakçıları həm fərdi, həm də qrup halında layihələr üzərində işləyərək, komanda işini və analitik düşüncə qabiliyyətlərini inkişaf etdirəcəklər.

## BDU Elmi Şurasının növbəti iclası keçirilib



***Dekabrın 9-da BDU-nun Elmi Şurasının növbəti iclası keçirilib.***

BDU-nun rektoru Elçin Babayev iclasın gündəliyi barədə iştirakçılara məlumat verib.

İclasda tədrisin aparılmasına saathesabı qaydada cəlbedilmə, “Bakı Dövlət Universitetinin Açıq Giriş Siyasəti” sənədi haqqında məsələlər müzakirə olunub.

Daha sonra cari məsələlərə baxılıb.

## BDU tələbələri üçün təlim: “Neyroqrafika nədir?”

***Dekabrın 10-da Biologiya fakültəsinin nəzdində fəaliyyət göstərən “Bio-team” klubunun təşkilatçılığı ilə psixoloq Zarina Əliyeva tərəfindən tələbələr üçün “Neyroqrafika nədir?” adlı interaktiv təlim keçirilib.***

Təlimin ilk hissəsində iştirakçılara neyroqrafikanın məqsədi, tətbiq sahələri və faydaları haqqında ətraflı məlumat verilib. Psixoloq Zarina Əliyeva neyroqrafikanın insanların daxili emosional gərginliyini azaltmaq, yaradıcılığı artırmaq və düşüncələri vizuallaşdırmaq kimi məqsədlərə xidmət etdiyini bildirib. O diqqətə çatdırıb ki, neyroqrafika insanın özünü kəşf etməsi üçün terapevtik metoddur. Bu, emosiyaları daha yaxşı başa düşməyə, dağıdıcı inancları qırmağa və insanın resurslarını toplamasına kömək edir.

Təlimin ikinci hissəsində isə praktik məşğələlər keçirilib. Tələbələr neyroqrafika texnikasını tətbiq etməklə tapşırıqlar yerinə yetiriblər.

# İzmir Yüksək Texnologiyalar İnstitutunun rektoru BDU-da

***Dekabrın 5-də BDU-nun rektoru Elçin Babayev Türkiyənin İzmir Yüksək Texnologiyalar İnstitutunun rektoru Yusuf Baranla görüşüb.***

Görüş zamanı hər iki universitet arasında akademik əməkdaşlıq, birgə elmi tədqiqat və tələbə mübadiləsi imkanlarının genişləndirilməsi məsələləri müzakirə olunub.

BDU rektoru Elçin Babayev İzmir Yüksək Texnologiyalar İnstitutu ilə birgə layihələrin hər iki ali təhsil müəssisəsinin tələbələri üçün yeni imkanlar açacağını, regionda təhsilin və elmin inkişafına mühüm töhfə verəcəyini deyib. İzmir Yüksək Texnologiyalar İnstitutunun rektoru Yusuf Baran isə bildirib ki, BDU ilə uğurlu əməkdaşlıq Azərbaycan və Türkiyənin elmi inkişafında, beynəlxalq səviyyədə rəqabətədavamlı mütəxəssislər yetişdirilməsində mühüm önəm daşıyır.



Rektorlar molekulyar biologiya və genetika, kimya və kimya mühəndisliyi, informasiya texnologiyaları və tətbiqi riyaziyyat sahələrində magistratura və doktorantura pilləsi üzrə ikili diplom proqramlarının yaradılması, molekulyar biologiya sahəsində kadr heyətinin İzmir Yüksək Texnologiya İnstitutunun Genom redaktəsi və Molekulyar biologiya laboratoriyalarında təlim keçməsi, BDU-nun dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirdiyi layihələrə İzmir Yüksək Texnologiyalar İnstitutunun professor-müəllim heyətinin cəlb edilməsi, iki universitetin tədqiqat infrastrukturundan birgə istifadə ilə bağlı konkret fəaliyyət planlarının hazırlanması və icrasına dair ilkin razılıq əldə ediblər.

Görüşün sonunda Yusuf Baran BDU-nun Elmi Kitabxanası və "Eko məkan"ı ziyarət edib.

# Rumıniyanın Alexandru İoan Cuza İasi Universitetinin nümayəndələri BDU-da

***Dekabrın 5-də Alexandru İoan Cuza İasi Universitetinin nümayəndələri Coğrafiya və Fizika fakültələrində olub, iki universitet arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində müzakirələr aparıblar.***

Coğrafiya fakültəsində Alexandru İoan Cuza İasi Universitetinin professoru Mihai Bulaini ilə görüşdə Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov, dekan müavinləri Eltac Cəbiyev, Qoşqar Məmmədov və Hidrometeorologiya kafedrasının müəllimi Anar Nuriyev iştirak ediblər. Fakültə dekanı BDU-nun və Coğrafiya fakültəsinin tədris, elmi fəaliyyətinin təşkili, kadr hazırlığı aparılan ixtisaslar barədə qonağa məlumat verib. Görüşdə BDU-nun Coğrafiya fakültəsi ilə Alexandru İoan Cuza İasi Universitetinin Coğrafiya və geologiya fakültəsi arasında elmtəhsil əlaqələrinin qurulmasına dair müzakirələr aparılıb.

Sonra professor Mihai Bulaininin "Turizm işinin təşkili" ixtisasının tələbələri ilə görüşüb, tədris planları oxşar olduğuna görə Alexandru İoan Cuza İasi Universitetinin Coğrafiya və geologiya fakültəsinin magistratura pilləsində təhsil almaq imkanlarının olduğunu tələbələrin nəzərinə çatdırıb.

BDU-nun Fizika fakültəsində isə Alexandru İoan Cuza İasi Universitetinin digər professoru Claudiu Costin ilə professor-müəllim heyətinin görüşü keçirilib. Görüş zamanı hər iki universitetin mövcud elmi-tədqiqat imkanları müzakirə olunub, potensial əməkdaşlıq sahələri araşdırılıb və gələcəkdə birgə elmi layihələrin həyata keçirilməsi üçün ilkin razılaşmalar əldə edilib. Həmçinin, elmi və akademik təcrübə mübadiləsinin genişləndirilməsi, birgə tədqiqatların aparılması istiqamətində danışıqlar aparılıb.

Sonra professor Claudiu Costin Fizika fakültəsinin tələbələri üçün seminar keçib. Seminar zamanı bakalavriatura, magistratura və doktorantura səviyyələrində tələbələrin Alexandru İoan Cuza İasi Universitetində təhsil almaq imkanları haqqında ətraflı məlumat verilib. Claudiu Costin tələbələrin suallarını cavablandıraraq, təhsil prosesində beynəlxalq təcrübənin əhəmiyyətini vurğulayıb.

# BDU-nun 105 illik yubileyi münasibətilə elan etdiyi esse müsabiqəsinin qalibləri mükafatlandırılıb

***Dekabrın 6-da BDU-nun 105 illik yubileyi münasibətilə elan etdiyi "105 yaşlı elm və təhsil məbədi" adlı esse müsabiqəsinin qalibləri mükafatlandırılıb.***



Qalibləri təbrik edən rektor Elçin Babayev belə müsabiqələrin BDU-nun şanlı, keşməkeşli tarixinin, zəngin ənənələrinin, ölkənin elm-təhsil, ictimai həyatında, milli düşüncənin formalaşmasında rolunun təbliği baxımından mühüm önəm daşıdığını bildirib. O qeyd edib ki, bu il oktyabrın 8-də elan edilən "105 yaşlı elm və təhsil məbədi" adlı esse müsabiqəsinə 39 tələbə yazı təqdim edib. Müsabiqə komissiyasının qərarı ilə I yerə Tarix fakültəsinin II kurs tələbəsi Zivərxanım Məmmədova, II yerə Filologiya fakültəsinin I kurs tələbəsi Xədicə İmanlı, III yerə Coğrafiya fakültəsinin II kurs tələbəsi Varis Əhmədlinin esseləri layiq görülüb. Rektor qaliblərə BDU-nun ictimai həyatında bundan sonra da aktiv iştirak etməyi tövsiyə edib, onlara təhsil həyatlarında uğurlar arzulayıb.

Daha sonra qaliblərə diplom və mükafatlar təqdim olunub.

# BDU Türkiyənin Haliç Universiteti ilə "Erasmus" mübadilə protokolu imzalayıb

***Dekabrın 2-də BDU ilə Türkiyə Respublikasının Haliç Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Haliç Universitetinin rektoru Nihat İnanç imzalayıb.

Protokolda tələbələrin, akademik və inzibati heyətin qarşılıqlı mübadiləsi öz əksini tapıb. Haliç Universitetinin əsası 1998-ci ildə qoyulub. 8 fakültə, 1 peşə məktəbi, 4 kollec və 1 institutun fəaliyyət göstərdiyi universitetdə 17 mindən çox tələbə təhsil alır.

# BDU dünyanın ən yaxşı universitetlərinin fənn reytinqində yer alıb

***Bakı Dövlət Universiteti dünyanın nüfuzlu reytinq agentliklərindən biri olan "QS Quacquarelli Symonds" tərəfindən dərc edilən və yüksək akademik standartlara malik universitetlərin fənn reytinqində yer alıb.***

***Belə ki, BDU "QS Subject Rankings 2024" çərçivəsində neft və qaz sahəsində ixtisaslar üzrə dünyanın ən yaxşı 150 universiteti sırasına daxil olub.***

Qeyd edək ki, "QS Subject Rankings" reytinqi hazırlanarkən akademik reputasiya (akademik dairələrdə universitetin tanınması və nüfuzu), işəgötürənlər arasında reputasiya (məzunların işə qəbul edilməsi üzrə şirkət və təşkilatların rəyi), bir elmi nəşrə görə sitatların sayı (elmi tədqiqatların təsir gücünü əks etdirən göstərici), Hirş indeksi (elmi məhsuldarlıq və tədqiqatların sitatlandırma səviyyəsi), beynəlxalq elmi əməkdaşlıq indeksi (universitetin qlobal elmi əməkdaşlıq səviyyəsini əks etdirir) əsas götürülür.




BDU-nun bu uğuru Universitetin Strateji İnkişaf Planı çərçivəsində həyata keçirdiyi davamlı islahatların, elmi potensialın artırılmasının və beynəlxalq əlaqələrin genişləndirilməsinin nəticəsidir.

# Biologiya fakültəsinin tələbələrinin böyük uğuru

**Dekabrın 5-də Biologiya fakültəsinin tələbələri Tacikistan Milli Universitetinin təşkilatçılığı ilə keçirilən Biologiya üzrə Beynəlxalq Olimpiadada böyük uğur qazanıblar. Belə ki, Biologiya fakültəsinin tələbələri Şahnaz Vəliyeva Olimpiadada I, Firuzə Məhərrəmova və Günay Fətəliyeva isə II yerə layiq görülüblər.**

Olimpiada dünyanın müxtəlif ölkələrindən gənc bioloqların bilik və təcrübə mübadiləsi üçün mükəmməl platforma yaradıb. Olimpiadanın əsas məqsədi gənclərin biologiya üzrə biliklərini, qarşıya qoyulan problemləri həll etmə bacarıqlarını artırmaq, yaradıcılıq potensialını üzə çıxarmaq, müasir təhsil texnologiyaları ilə işləmək təcrübəsi qazandırmaqdır.

# “Ümummilli Lider Heydər Əliyev mühazirələri”: Türk Ağsaqqalları Birliyinin sədri Sudeif İmamverdiyevlə görüş

***Dekabrın 2-də BDU və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşəbbüsü ilə “Ümummilli Lider Heydər Əliyev mühazirələri” layihəsi çərçivəsində Türk Ağsaqqalları Birliyinin sədri, Azərbaycan Tibb Universitetinin Urologiya kafedrasının müdiri, 1-ci dərəcəli “Vətənə xidmətə görə”, “Şöhrət” və “Şərəf” ordenli, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru, professor Sudeif İmamverdiyev ilə BDU tələbələrinin görüşü keçirilib.***

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev müasir müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edib. Ulu Öndərin zəngin irsinin, azərbaycançılıq ideologiyasının tələbə-gənclərə aşılanması onların milli ruhda formalaşması üçün vacib addımlardan biridir. YAP tərəfindən bu istiqamətdə çoxsaxəli tədbirlər görülür, ölkənin ali təhsilinin flaqmanı olan BDU da bu işə öz layiqli töhfəsini verir.



BDU rektorunun elm və təhsil üzrə müşaviri Aydın Kazımzadə Ulu Öndərin məzunu olması ilə fəxr etdiyi və ölkənin ən qədim ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetində bu cür görüşlərin keçirilməsinin rəmzi mənası ilə yanaşı, xüsusi mənəvi yükünün olduğunu bildirib. Qeyd edib ki, fəaliyyəti ilə ölkədə yüksəkixtisaslı kadrların hazırlığı məktəbinin əsasını qoymuş Universitet hazırda bu missiyanı layiqli şəkildə davam etdirir. Hələ Ümummilli Liderin respublikamıza birinci dəfə rəhbərlik etdiyi dövrlərdən BDU-ya göstərilən xüsusi diqqət və qayğı bu gün onun siyasi varisi, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Türk Ağsaqqalları Birliyinin sədri Sudeif İmamverdiyev məruzəsində Ümumilli Lider Heydər Əliyevin fəaliyyətində təhsil siyasətinin rolundan bəhs edib. O bildirib ki, Ulu Öndərin milli mənafeyimizə əsaslanan təhsil siyasəti ölkəmizin davamlı və dayanıqlı inkişafına xidmət edib: “Ulu Öndər 1969-1982-ci illərdə kadrların milliləşdirilməsi istiqamətində sistemli tədbirlər görməyə başladı. Dövlət qurumlarında azərbaycanlı kadrlar irəli çəkildi, azərbaycanlı gənclər keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərildi, ana dilimizə diqqət artırıldı, çoxlu təhsil müəssisələri açıldı, iqtisadiyyatımız inkişaf etdi. Bütün bunlar müstəqil dövlətin təməl daşları idi. 1990-cı ildə xalqın təkidli tələbi ilə Ulu Öndərin Naxçıvana dönməsi və 80 mindən çox azərbaycanlının onu qarşılaması xalqın sevgi, hörmət və rəğbətinin göstəricisi sayılırdı. Ulu Öndər 1993-cü ildə siyasi uçurumda olan Azərbaycanı bu bəladan xilas etdi, ölkədə iqtisadi-siyasi sabitlik yaratdı. Ümummilli Liderin Azərbaycan xalqına ən böyük ərmağanı isə özündən sonra Prezident İlham Əliyev kimi siyasi varisini yetişdirməsidir. O siyasi varis ki, ata vəsiyyətini yerinə yetirərək, 30 illik erməni işğalına son qoydu, suverenliyimizi bərpa edərək, tarixi qələbəni Azərbaycana yaşatdı”.

Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# “Ümummilli Lider Heydər Əliyev mühazirələri”nin növbəti görüşü

***Dekabrın 3-də BDU və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşəbbüsü ilə “Ümummilli Lider Heydər Əliyev mühazirələri” layihəsində növbəti qonaq YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov olub.***

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin zəngin fəaliyyəti əsl dövlətçilik məktəbi, gənclərimiz üçün nümunədir. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı yaradan, möhkəmləndirən, dünyada tanıdan, gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. Onun ideyalarının, dövlətçilik məfkurəsinin gənclər arasında təbliği bu baxımdan çox önəmlidir. Bəxtiyar Nəbiyev Azərbaycan gəncliyinin



inkişafında Ulu Öndər Heydər Əliyevin xidmətlərindən bəhs edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət gənclər siyasətinin uğurla həyata keçirildiyini vurğulayıb.

Bəxtiyar Nəbiyev Ulu Öndərin məzunu olması ilə fəxr ediyi BDU-da belə layihələrin keçirilməsinin qürurverici olduğunu deyib.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov qeyd edib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Gənclər siyasətinin başlıca məqsədi yeni nəslin milli ruhda, fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. Müasir Azərbaycan gəncliyi bu meyarların hamısına cavab verir: “Hər bir gənc yüksək biliklərə yiyələnməli, müstəqil ölkəmizin inkişafı naminə çalışmalı, Ulu Öndərin ideyalarına və Prezidentimiz İlham Əliyevin siyasətinə dəstək olmalıdır”.

Görüş tələbələrin gənclər siyasətinin təşkilinə dair təkliflərinin təqdimatı və suallarının cavablandırılması ilə başa çatıb.

# "Heydər Əliyev mühazirələri" layihəsi çərçivəsində professor Misir Mərdanovla görüş

***Dekabrın 4-də BDU və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə “Heydər Əliyev mühazirələri” layihəsi çərçivəsində YAP Veteranlar Şurasının üzvü, Elm və Təhsil Nazirliyinin (ETN) Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanovla görüş keçirilib.***

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev tədbiri giriş sözü ilə açaraq, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini deyib. Vurğulanıb ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyətin əbədiyaşar ideyalarının gənclər arasında təşviq edilməsidir. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Ulu Öndərin adı ilə bağlıdır.

BDU rektorunun elm və təhsil üzrə müşaviri Aydın Kazımzadə Azərbaycanda dövlət gənclər siyasətinin həyata keçi-




rilməsi sahəsində uğurlardan danışıb. Qeyd edib ki, həyatımızın bütün sahələrində gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib. Gənclərimiz ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil edirlər. Aydın Kazımzadə bildirib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi Zəfər digər amillərlə bərabər, həm də Azərbaycanda düzgün gənclər siyasəti aparılmasının iftixar doğuran nəticəsidir.

*Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən Misir Mərdanov vurğulayıb ki, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. O, Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başlatdığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.*

YAP Veteranlar Şurasının üzvü, ETN-in Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanov çıxışında Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolundan, həyat və fəaliyyətinin mühüm məqamlarından danışıb. Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən Misir Mərdanov vurğulayıb ki, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. O, Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başlatdığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Sonra gənclərin sualları cavablandırılıb.

# BDU-nun 105 illik yubileyi çərçivəsində Fizika fakültəsinin təqdimatı

***Dekabrın 3-də BDU-nun 105 illik yubileyi çərçivəsində Fizika fakültəsinin təqdimatı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən rektor Elçin Babayev Fizika fakültəsinin əsasının BDU-nun təsis edildiyi vaxtdan - 1919-cu ildə Tibb fakültəsinin nəzdində Fizika kafedrasının yaradılması ilə qoyulduğunu deyib. Bildirib ki, Fizika fakültəsinin məzunları içərisində görkəmli alimlərlə yanaşı, ölkəmizin inkişafında xüsusi əməyi olan dövlət xadimləri, ərazi bütövlüyümüzün qorunması uğrunda vuruşan qəhrəmanlarımız və şəhidlərimiz var. Dünya şöhrətli fizik, Nobel mükafatı laureatı Lev Landau, 1965-1970-ci illərdə BDU-nun rektoru olan Mehdi Əliyev, AMEA-nın sabiq prezidentləri Eldar Salayev və Mahmud Kərimov, ADA Universitetinin rektoru Hafiz Paşayev, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov kimi tanınmış insanlar məhz Fizika fakültəsində təhsil alıblar. Fizika fakültəsi Azərbaycanın fizika üzrə elmi-pedaqoji kadr ehtiyaclarının ödənilməsində mühüm rol oynayan elm və təhsil mərkəzidir. Rektor fakültənin və Azərbaycan fizika məktəbinin formalaşması, məşhurlaşmasında böyük rolu olan alimlərin adlarını çəkib, onların ənənələrinin davam etdirilməsinin zəruriliyini vurğulayıb.



Hazırda fakültədə 1191 tələbənin təhsil aldığını deyən rektor ən yüksək nəticə əldə edərək Fizika fakültəsinə qəbul olunan 4 tələbəni də təqdim edib.

Sonra Fizika fakültəsinin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Fizika fakültəsinin dekanı, dosent Bəxtiyar Paşayev bildirib ki, fakültə yarandığı gündən tədris və elmi fəaliyyətini günün tələblərinə uyğun qurub, bu da onun daim inkişafda olmasını təmin edib. Bu gün fakültədə fundamental təhsil verilir və dünya səviyyəli müasir elmi tədqiqatlar aparılır. Fakültə böyük elmi-texnoloji və kadr potensialına, elmin və texnologiyanın müxtəlif istiqamətlərində məqsədli kadr hazırlığını həyata keçirmək imkanlarına malikdir. Fizika fakültəsində əldə edilən bilik və bacarıqlar, qazanılan keyfiyyətlər fakültə məzunlarının müxtəlif sahələrdə fundamental və tətbiqi elm, yüksək texnologiyalı istehsalat və informasiya sistemləri sahələrində, dövlət idarəetmə orqanlarında, sənaye və maliyyə qurumlarında uğurla çalışmalarına zəmin yaradıb.

Optika və molekulyar fizika kafedrasının məsləhətçi professoru Niftalı Qocayev fakültənin Universitetin və ölkədə Fizika elminin inkişafına verdiyi töhfələrdən söz açıb. Fizika fakültəsinin bugünkü uğurlarına səbəb olan alimlərin hər zaman xatırlanacağını deyib.

Daha sonra fakültənin şəhid məzunu Şəhriyar Həbiblinin anası Təranə Həbibli oğlunun tələbəlik illərindən bəhs edib, xatirələrini bölüşüb.

Tədbir fakültənin müəllim və tələbələrinin hazırladığı bədii hissə ilə davam edib.

# BDU-da görkəmli riyaziyyatçı Arif Babayevin 90 illik yubileyinə həsr olunmuş II Respublika elmi konfransı keçirilib

***Dekabrın 3-də BDU-da Azərbaycanın görkəmli riyaziyyatçısı, fizika-riyaziyyat elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Arif Babayevin 90 illik yubileyinə həsr olunmuş "Diferensial və inteqral operatorlar" mövzusunda II Respublika elmi konfransının açılış mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov bildirib ki, Arif Babayev Universitetin Riyazi analiz kafedrasının təşkilatçısı və rəhbəri olub, qısa müddət ərzində sinqulyar inteqral tənliklər və məxsusi inteqrallar sahəsində güclü elmi məktəb yaradıb. Bu məktəb keçmiş SSRİ-də dörd məktəbdən biri sayılırdı. Onun rəhbərliyi altında onlarla gənc alim elmlər doktoru və namizədlik dissertasiyalarını müdafiə edib.



BDU-nun Mexanika-riyaziyyat fakültəsinin dekanı Ziyatxan Əliyev görkəmli alimin həyat yolu və zəngin elmi fəaliyyəti barədə məlumat verib. Diqqətə çatdırıb ki, Arif Babayev 1934-cü il noyabrın 11-də anadan olub, BDU-nun Fizika-riyaziyyat fakültəsini bitirib. 1960-cı ildə fəlsəfə doktorluğu, 1966-cı ildə elmlər doktorluğu dissertasiyasını müdafiə edib, 1976-cı ildə AMEA-nın müxbir üzvü seçilib. O, BDU-nun Mexanika-riyaziyyat fakültəsində müəllim, dosent, professor, kafedra müdiri, dekan (1979-1994) vəzifələrində çalışıb.

AMEA-nın müxbir üzvü, Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, BDU-nun Ali riyaziyyat kafedrasının müdiri Misir Mərdanov, Riyazi analiz kafedrasının professoru Sadiq Abdullayev, Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə, Riyazi fizika tənlikləri kafedrasının müdiri, akademik Yusif Məmmədov, BDU-nun nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Vaqif Quliyev, Arif Babayevin qızı Nigar Novruzova çıxışlarında görkəmli alimin elmi və pedaqoji fəaliyyətindən bəhs edib, onun riyaziyyatın böyük bilicisi, təbliğatçısı və təşkilatçısı olduğunu bildiriblər.

II Respublika elmi konfransında görkəmli alimin elmi irsi haqqında müzakirələr aparılıb, riyaziyyatın müasir problemləri, bu sahədə yeni tədqiqatlar təqdim edilib.

# BDU-nun 105 illik yubileyi çərçivəsində İnformasiya və sənəd menecmenti fakültəsinin təqdimatı

***Dekabrın 5-də BDU-nun 105 illik yubileyi çərçivəsində İnformasiya və sənəd menecmenti fakültəsinin təqdimatı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU rektoru Elçin Babayev qeyd edib ki, İnformasiya və sənəd menecmenti fakültəsi Universitetin ənənələrə söykənən, yeniliyə açıq olan fakültələrindən biridir. Azərbaycanda ali kitabxanaçılıq təhsilinə 1947-1948-ci tədris ilindən başlanıldığını xatırladan rektor bildirib ki, həmin ildə BDU-nun Filologiya fakültəsində Kitabxanaçılıq şöbəsi yaradılıb. Şöbənin ilk ixtisas müəllimləri Xalq yazıçısı Süleyman Rəhimov, Əliheydər Qəhrəmanov, Hüseyn Tağıyev və Məryəmxanım Səmədova olub. 1958/1959-cu tədris ilində həmin şöbə Şərqşünaslıq fakültəsinin tərkibinə daxil edilib, 1962-ci ilin avqust ayında isə BDU-da müstəqil Kitabxanaçılıq fakültəsinin təşkil olunması haqqında qərar qəbul olunub. 2003-cü ildə fakültə Kitabxanaçılıq-informasiya fakültəsi adlandırılıb. BDU Elmi Şurasının 18 yanvar 2023-cü il tarixli qərarı ilə fakültənin yeni adı İnformasiya və sənəd menecmenti fakültəsi kimi müəyyənləşdirilib.



Rektor diqqətə çatdırıb ki, BDU-da aparılan islahatlar çərçivəsində fakültənin adı ilə yanaşı, məzmunu da yenilənib, kafedraların adları dəyişdirilib, yeni ixtisas və ixtisaslaşmalar yaradılıb. Təsadüfi deyil ki, son illərdə fakültəyə qəbul planı tam dolur. Bu günə qədər fakültəni 6000-dən çox məzun bitirib. Fakültədə yüksəkixtisaslı milli kadr hazırlığında Abuzər Xələfov, Hacı Həsənov, Zöhrab Əliyev, Əşrəf Xələfov, Bayram Allahverdiyev, Tacəddin Quliyev, Rasim Kazımov, Fərman Bayramov, Sahib Rzayev, Əli Rüstəmov, Zöhrab Baxşəliyev, Almaz Abasova, Kəmalə Şeyxzamanova, Qəmzə Hacıyeva, Akif Cəfərov, Aşur Əliyev, Sənubər Mustafayeva və digər alim-pedaqoqların böyük xidmətləri olub. Hazırda fakültədə təlim-tədris prosesi ilə 50 nəfərdən çox professor-müəllim heyəti məşğul olur. Fakültə kollektivi BDU-nun ictimai həyatında da yaxından iştirak edir.

Sonra İnformasiya və sənəd menecmenti fakültəsinin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Fakültə dekanı Ələmdar Bayramov, Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, birinci Qarabağ müharibəsinin veteranı Knyaz Aslan, fakültənin məzunları - Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, Vətən müharibəsi qazisi, baş leytenant Qədir Daşdəmirov, fakültənin "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisası üzrə I kurs tələbəsi Zeynəb Xələfova çıxışlarında İnformasiya və sənəd menecmenti fakültəsinin tarixinə nəzər salıb, peşəkar kadr hazırlığında rolundan danışıblar. Qeyd olunub ki, BDU-nun ən böyük xidmətlərindən biri müxtəlif elm sahələri üzrə peşəkar kardrlar yetişdirməklə yanaşı, milli ruhun daşıyıcısı olmasıdır. İnformasiya və sənəd menecmenti fakültəsi də kadr hazırlığı prosesində bu ənənəyə uğurla əməl edir.

Tədbir fakültə əməkdaşlarının və tələbələrinin ifasında bədii hissə ilə davam edib. Tədbirin xüsusi qonağı, Əməkdar mədəniyyət işçisi Aşıq Ədalət Dəlidağlının ifasında saz havaları tədbirə xüsusi rəng qatıb.

# BDU-nun professoru Qulu Məhərrəmlinin 70 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib

***Dekabrın 4-də BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmlinin 70 illik yubileyinə həsr olunmuş "Azərbaycan televiziyası müstəqillik illərində: əsas inkişaf tendensiyaları" mövzusunda elmi sessiya keçirilib.***

Tədbirin moderatoru, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Qulu Məhərrəmlinin Azərbaycan jurnalistikası tarixində özünəməxsus yeri olduğunu bildirib. Qeyd edib ki, Qulu Məhərrəmlinin adı Azərbaycan televiziyası ilə qoşa çəkilir. Ölkədə onun verilişləri ilə böyüyən bir neçə nəsil var. Televiziya tənqidçisi, jurnalistika bilicisi kimi Qulu Məhərrəmli bu gün də diqqət mərkəzindədir.



BDU-nun rektoru Elçin Babayev yubilyarı təbrik edib, ölkədə "telejurnalistika", "televiziya tənqidi" deyəndə ilk olaraq yada məhz Qulu Məhərrəmlinin düşdüyünü bildirib: "Qulu Məhərrəmli istedadlı jurnalist, gözəl alim, maraqlı insan, təcrübə ilə nəzəriyyəni uğurla bir araya gətirən əsl pedaqoqdur. 1991-ci ildən BDU-da çalışan Qulu Məhərrəmli Universitetimizin dəyərli professorudur. O, həm də ictimai fəaliyyəti ilə seçilir, Jurnalistika fakültəsindən Azərbaycan Mətbuat Şurasında təmsil olunan iki əməkdaşımızdan biridir".

Son illər BDU-da aparılan islahatlar çərçivəsində Jurnalistika fakültəsində əsaslı keyfiyyət dəyişikliyinin yarandığını deyən Elçin Babayev gənc jurnalistlərin yetişməsində və əmək bazarının tələblərinə uyğun peşəkar kadr kimi formalaşmasında Qulu Məhərrəmli kimi alimlərin böyük rolunun olduğunu diqqətə çatdırıb.

Sonra professor Qulu Məhərrəmlinin elmi-pedaqoji və jurnalistika fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri, filologiya elmləri doktoru Rövşən Məmmədov Qulu Məhərrəmlinin Azərbaycanda televiziya məktəbinin simalarından biri olduğunu bildirib: "Ünsiyyət mədəniyyəti, jurnalist etikası, audiovizual nitq – bunlar bu gün də aktualdır. Biz bütün bu keyfiyyətləri Qulu Məhərrəmlidən öyrənmişik. Qulu Məhərrəmli jurnalistikada sağlam dəyərlərin təməlini qoyanlardan biridir".

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid "Qulu Məhərrəmlinin publisistikası", Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli "Qulu Məhərrəmlinin polifonik yaradıcılıq yolu", Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent Xatirə Hüseynova "Azərbaycanda televiziya tənqidinin çağdaş durumu", Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru Vüqar Əliyev "Jurnalistika təhsili və müasir dərslik problemi" mövzularında məruzələr ediblər.

Sonda söz yubilyara verilib. Professor Qulu Məhərrəmli elmi-pedaqoji və jurnalist fəaliyyətinə verilən dəyərə görə təşəkkür edib.

Elmi sessiyanın sonunda BDU rektoru Elçin Babayev professor Qulu Məhərrəmliyə uzunmüddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində xidmətlərinə, Universitetin ictimai həyatında fəal iştirakına görə və 70 illik yubileyi münasibətilə Fəxri Fərman təqdim edib.

# BDU-da keçirilən "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti qonağı millət vəkili Mehriban Vəliyeva olub

***Dekabrın 9-da Bakı Dövlət Universitetinin və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti qonağı Milli Məclisin üzvü Mehriban Vəliyeva olub.***

Qonağı salamlayan rektor Elçin Babayev bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunması və hərtərəfli inkişafı naminə göstərdiyi misilsiz xidmətləri ilə əbədiyyət qazanıb. Güclü siyasi iradəsi, qətiyyəti və uzaqgörənliyi, yüksək intellekti, əzmkarlığı və fədakarlığı, zəngin idarəçilik təcrübəsi ilə Vətən qarşısında xilaskarlıq missiyasını uğurla yerinə yetirən Ümummilli Lider adını Azərbaycan tarixinə qızıl hərflərlə yazıb.



Onun ideyalarının təbliğ olunması, gənclərə öyrədilməsi bu layihənin əsas missiyalarından biridir.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətindən bəhs edib. O bildirib ki, gənclərin ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakı dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycanın beynəlxalq arenada tanınmasında, ölkəmizin həqiqətlərinin yayılmasında gənclər mühüm rol oynayırlar.

Millət vəkili Mehriban Vəliyeva Azərbaycanın müstəqilliyinin bərpasından sonra baş verən tarixi hadisələri xatırladıb və Ümummilli Lider Heydər Əliyevin ölkənin inkişafındakı misilsiz xidmətlərindən bəhs edib. Millət vəkili Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq arenadakı nailiyyətlərini xüsusi vurğulayaraq, COP29 tədbirinə ev sahibliyinin ölkəmiz üçün böyük uğur olduğunu bildirib. Millət vəkili həmçinin qeyd edib ki, Azərbaycanın bütün sahələrdə olduğu kimi, təhsil sferasında da inkişaf prosesi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Hələ Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində təhsillə bağlı məsələləri daim diqqət mərkəzində saxlayan Ümummilli Liderin həyata keçirdiyi ciddi islahatlar bu gün də təhsil sahəsinin əsaslı inkişaf etdirilməsi üçün baza rolunu oynayır. Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də təhsilin inkişafına xüsusi qayğı ilə yanaşıb, xalqın intellektual yüksəlişini diqqət mərkəzində saxlayıb.

Sonda tələbələrin təklifləri müzakirə olunub, sualları cavablandırılıb.

# BDU və TÜRKSOY arasında anlaşma memorandumu imzalanıb

***Dekabrın 11-də Bakı Dövlət Universiteti və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU-nun rektoru Elçin Babayev və TÜRKSOY-un Baş katibi Sultan Raev imzalayıb.

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, türkdilli ölkələr arasında əlaqələrin inkişafında TÜRKSOY-un müstəsna xidmətləri var. BDU-nun da bu əməkdaşlığa öz töhfəsini verməyə hazır olduğunu deyən rektor bildirib ki, imzalanan memorandum türkdilli ölkələr arasında elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlığı inkişaf etdirmək, BDU ilə bu ölkələrin akademik əlaqələrini genişləndirmək məqsədi daşıyır.



> *TÜRKSOY-un Baş katibi Sultan Raev türk dünyasının ən yaxşı universitetlərindən olan BDU-nun mühüm elm və təhsil məbədi olduğunu deyib. O bildirib ki, BDU ilə əməkdaşlıq türkdilli dövlətlərin elm, təhsil, mədəniyyət əlaqələrinə böyük töhfə verəcək.*

TÜRKSOY-un Baş katibi Sultan Raev türk dünyasının ən yaxşı universitetlərindən olan BDU-nun mühüm elm və təhsil məbədi olduğunu deyib. O bildirib ki, BDU ilə əməkdaşlıq türkdilli dövlətlərin elm, təhsil, mədəniyyət əlaqələrinə böyük töhfə verəcək.

Memorandumda türk dünyasının mədəni və elmi irsi ilə bağlı tədqiqat layihələrinin təşkili, BDU-nun müvafiq fakültələri ilə TÜRKSOY arasında müştərək tədqiqat proqramlarının yaradılması, müəllim və tələbə mübadiləsi proqramlarının həyata keçirilməsi, birgə beynəlxalq və regional elmi tədbirlərin təşkil olunması nəzərdə tutulur. Türk dünyasının mədəniyyət və incəsənət tədbirlərində BDU-nun iştirakı, müştərək sərgilər, folklor festivalları və mədəniyyət günlərinin təşkil olunması, BDU və TÜRKSOY arasında məlumat mübadiləsi üçün platformaların qurulması, türk dillərinin öyrənilməsi və tədrisi üçün müştərək tədris proqramlarının hazırlanması, türk ədəbiyyatı üzrə birgə araşdırmalar və tərcümə layihələrinin həyata keçirilməsi də əks olunub.

Qeyd edək ki, memorandum çərçivəsində TÜRKSOY-la birgə kafedranın yaradılması haqqında razılıq da əldə olunub.

# Türkiyəli mütəxəssislər BDU-da ustad dərsləri keçiblər



***Dekabrın 3-də İnformasiya və sənəd menecmenti fakültəsinin, Türkiyənin Bartın, Çankırı Karatekin və Kastamonu universitetlərinin İnformasiya və sənəd menecmenti bölümlərinin birgə təşkil etdikləri III Beynəlxalq Ənənədən Gələcəyə İnformasiya və Sənəd Menecmenti Simpoziumu çərçivəsində türkiyəli mütəxəssislərin ustad dərsləri təşkil olunub.***

Ustad dərslərində Bartın, Çankırı Karatekin, Kastamonu, İstanbul 29 Mayıs, Atatürk universitetlərinin İnformasiya və sənəd menecmenti bölümlərinin rəhbərləri Ahmet Altay, Coşkun Polat, Hasan Keseroğlu, Berrin Balkaş Yılmaz, Dündar Ali Kılıç "İnformasiya cəmiyyətinə inteqrasiyada xalq kitabxanalarının rolu", "Kitabxana kolleksiyasının menecmenti", "Peşə etikası", "Kitabxana binaları: davamlı memarlıq aspektindən dəyərləndirmə", "Arxivlər: keçmişdən gələcəyə miras", Kastamonu Universitetinin İnformasiya və sənəd menecmenti bölümünün dosenti Hamid Derviş "Bibliometriya və sosial şəbəkələrin təhlili" mövzularında tələbələrə mühazirələr oxuyublar.

Mühazirələrdə sənəd menecmenti, informasiya logistikası, müəlliflik hüquqları və əlaqəli hüquqlar, kitabxana-informasiya fəaliyyəti, muzey, arxiv işi və s. kimi mühüm istiqamətlər şərh olunub, tələbələrin çoxsaylı suallari cavablandırılıb.

# BDU-da keçirilən Beynəlxalq simpoziumun iştirakçıları Milli Kitabxananı ziyarət ediblər

***Dekabrın 4-də İnformasiya və sənəd menecmenti fakültəsinin, Türkiyənin Bartın, Çankırı Karatekin və Kastamonu universitetlərinin İnformasiya və sənəd menecmenti bölümlərinin birgə təşkil etdikləri III Beynəlxalq Ənənədən Gələcəyə İnformasiya və Sənəd Menecmenti Simpoziumunun iştirakçıları Azərbaycan Milli Kitabxanasını ziyarət ediblər.***

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov Türkiyə Respublikasının 10-dan çox universitetini və müvafiq qurumlarını təmsil edən qonaqları salamlayıb, BDU-nun ev sahibliyi ilə keçirilən tədbirin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırıb. Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün dünyaya örnək olduğunu vurğulayan Kərim Tahirov kitabxana-informasiya fəaliyyəti sahəsində də əməkdaşlığın davamlı inkişaf etdiyini bildirib.

Türkiyənin Bartın, Kastamonu, 29 Mayıs universitetlərinin İnformasiya və sənəd menecmenti bölümlərinin rəhbərləri Ahmet Altay, Hasan Keseroğlu və Berrin Balkaş Yılmaz qardaş ölkədə olmaqdan məmnunluqlarını ifadə edib, elmi, mədəni əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

Türkiyəli alimlərə Azərbaycan Milli Kitabxanasının iş prosesi barədə ətraflı məlumat verilib. Qonaqlar Milli Kitabxananın Nadir kitablar və kitabxana muzeyi, Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi şöbələri, Açıq Kitabxana- Sərbəst mütaliə bölməsi, Uşaq bölməsi və uşaq istirahət guşəsinin fəaliyyəti ilə tanış olublar.

# BDU-da ABŞ-nin Elektrotexnika və Elektronika Mühəndisləri İnstitutunun təmsilçisi ilə görüş



***Dekabrın 5-də Universitetində Amerika Birləşmiş Ştatlarının Elektrotexnika və Elektronika Mühəndisləri İnstitutunun (IEEE) təmsilçisi, "Mikro Information Free Zone Establishment" şirkətinin direktoru Mehmet Haseki ilə görüş keçirilib.***

Görüşdə BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin direktor müavini Zöhrab Ağamalıyev, Elmi Kitabxananın direktoru Nigar İsmayılova və Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri Cəmilə Yusifova iştirak ediblər.

Qonaq "IEEE-nin missiyası bəşəriyyətin rifahı naminə texnoloji innovasiyaları təşviq etməkdir" mövzunda təqdimatla çıxış edib. Elektronika, elektrik mühəndisliyi, kompüter və şəbəkə avadanlıqları üçün standartlar hazırlayan, dünyada geniş istifadə olunan, müasir dünya elmi-texniki ədəbiyyatının üçdə birini özündə cəmləşdirən, ən böyük elmi məlumat bazalarından biri olan "IEEE Xplore" rəqəmsal kitabxanası təqdim olunub.

IEEE-nin əsas məqsədi elektrotexnika, elektronika, kompüter texnologiyaları və informasiya elmləri sahələrində elmi fəaliyyətin təşkili və inkişafı, onların nəticələrinin cəmiyyətin mənafeyi naminə tətbiqi, habelə mütəxəssislərin peşəkar inkişafı üçün onlara informasiya dəstəyi göstərməkdir. Hazırda 190-dan çox ölkədən 460000-dən çox üzvü olan IEEE dünya üzrə 2000-dən çox illik konfrans və tədbirə sponsorluq edir. "IEEE Xplore" platforması istifadəçilərə 6 milyondan çox tammətnli sənəddən qiymətli tədqiqat materiallarını, elmi məqalələri, texniki standartları və konfrans materiallarını səmərəli şəkildə axtarıb tapmaq və istifadə imkanı verir.

İştirakçılara platformanın qabaqcıl funksiyaları, elmi tədqiqatlarının məhsuldarlığını və faydasını artırmaq üçün IEEE-in imkanlarından maksimum istifadə etmək bacarıqları haqqında məlumat verilib.

Sonda platformadan istifadə imkanları və üzvlük məsələləri müzakirə olunub.

# Audiovizual Şura BDU-da "Media subyektlərinin və jurnalistlərin fəaliyyəti hüquqi müstəvidə" adlı seminar təşkil edib

***Dekabrın 4-də Audiovizual Şura Jurnalistika fakültəsinin tələbələri üçün "Media subyektlərinin və jurnalistlərin fəaliyyəti hüquqi müstəvidə" mövzusunda təlim təşkil edib. Təlim BDU, Audiovizual Şura və Medianın İnkişafı Agentliyi arasında imzalanmış anlaşma memorandumuna uyğun olaraq keçirilib.***

BDU-nun Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova bu cür təlimlərin tələbələrin audiovizual media və onun tənzimlənməsi məsələlərinə dair məlumatlılığının artırılması baxımından önəmli olduğunu vurğulayıb.

Audiovizual Şuranın Kommunikasiya sektorunun müdiri Taleh Quliyev təlimin tələbə-jurnalistlərin praktiki bacarıqlarının möhkəmlənməsinə, audiovizual medianın qanunvericiliyə uyğun tənzimlənmə formalarının öyrənilməsinə xidmət etdiyini qeyd edib.

Daha sonra Audiovizual Şuranın Hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Ayxan Sadıqlı "Azərbaycanda audiovizual media və onun tənzimlənməsi" mövzusunda geniş təqdimatla çıxış edib. Bildirib ki, "Media haqqında" Qanun ilə tənzimlənən audiovizual, çap və onlayn media subyeklərinin fəaliyyətinə nəzarəti Şura və Medianın İnkişafı Agentliyi həyata keçirir. Ayxan Sadıqlı audiovizual, onlayn media subyektləri, media sahəsində dövlətin vəzifələri, Şuranın əsas vəzifə və funksiyaları, audivizual mediada yayılan informasiyaya dair tələblər, tətbiq oluna bilən sanksiyalarla bağlı tələbə-jurnalistləri məlumatlandırıb.

Təlim tələbələrin mövzu ilə bağlı suallarının cavablandırılması ilə başa çatıb.

# BDU komandası Minskdə keçirilən beynəlxalq müsabiqədə III yerə layiq görülüb

***Dekabrın 5-də Hüquq fakültəsinin tələbələri 25-30 noyabr tarixlərində Belarus Respublikasının Minsk şəhərində "Nürnberq prosesi və müasir beynəlxalq hüquq" II Beynəlxalq müsabiqəsində iştirak ediblər. Müsabiqəyə 5 ölkədən 40-dan artıq komanda qatılıb.***

Müsabiqədə Hüquq fakültəsini IV kurs tələbələri İsmət Bayramov, Zeynal Zeynallı və II kurs tələbəsi Ələm Nəbizadədən ibarət komanda təmsil edib.

BDU komandası müsabiqədə III yerə layiq görülüb və "Müdafiə tərəfinin hüquqi mövqeyinin ən yaxşı təqdimatına görə" nominasiyası ilə təltif olunub. Komanda iştirakçısı Zeynal Zeynallı isə "Ən yaxşı natiq" nominasiyasının qalibi olub.

# BDU-nun Psixoloji yardım sektorunun "Liderlik məktəbi" layihəsi yekunlaşıb

***Dekabrın 5-də BDU-nun Psixoloji yardım sektorunun "Liderlik məktəbi" layihəsi yekunlaşıb.***



Psixoloji yardım sektorunun psixoloqu Natəvan Həsənzadə layihənin aktiv iştirakçısı olan tələbələrlə görüşüb. O qeyd edib ki, iki ay ərzində gənclərin liderlik və komanda işini öyrənmələrinə dəstək olmağı hədəfləyən layihədə 20-dək tələbə iştirak edib. Layihə müddətində tələbələrə qrup idarəetməsi, düzgün qərar qəbuletmə və effektiv ünsiyyət bacarıqları öyrədilib, onların tənqidi düşüncə və analiz qabiliyyətləri inkişaf etdirilib.

Görüşün sonunda tələbələrlə layihə boyu görülən işlərin monitorinqi müzakirə edilib. Tələbələrə strateji planlama - SWOT analiz haqqında məlumat verilib və çalışmalar yerinə yetirilib.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin şagirdlərinin böyük uğuru

*Dekabrın 2-də BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin 13 şagirdi Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə keçirilən IX Respublika Fənn Müsabiqələrinin, 4 şagirdi isə Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadasının qalibi olub.*



Belə ki, liseyin şagirdləri Alikamal Həsən, Sulduz Hacıyev, Saleh Həsənli, Mehdi Şeydalı Riyaziyyat fənni üzrə qızıl, Yusif Fətullayev Fizika, Akif Qurbanov Riyaziyyat fənləri üzrə gümüş, Ayxan Məmmədli Fizika, Fidan Həşimova Kimya, Tayfun Məhərrəmli, Ülvi Süleymanlı, Tamerlan Heydərov, Ağasəlim Musayev, Aysu Abbasova Riyaziyyat fənləri üzrə bürünc medala layiq görülüblər.

Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadasında isə liseyin şagirdləri Həsən Süleymanov qızıl, Şahmar Əsədov gümüş, Ruqiyyə Sadıqlı və Murad İmanov isə bürünc medalın sahibi olublar. Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadasında medal sayına görə “Gənc istedadlar” liseyi ölkə üzrə II yerdədir.

Şagirdlərimizi təbrik edir, daha böyük uğurlar arzulayırıq!

# BDU-da “Gənc Liderlər” Forumu keçirilib

*Dekabrın 2-də BDU-nun ev sahibliyi və tərəfdaşlığı, Gənclər Fondunun, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) dəstəyi, "Sosial Məsələlərin Həllinə Kömək" və “Sosial İnkişafa Yardım” İctimai birliklərinin təşkilatçılığı ilə “Gənc Liderlər" Forumu keçirilib.*

Forumun tərəfdaşları arasında “Gənclər İnkişaf Naminə" İctimai Birliyi, Azərbaycanlı Tələbə və Məzunlar Platforması (ASAP), BDU-nun Tələbə Gənclər Təşkilatı (TGT) da yer alıb.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Forumun gənclərin liderlik bacarıqlarının üzə çıxarılmasında əhəmiyyətli rol oynadığını deyib, Gənclər Fondu ilə həyata keçirilən müştərək layihələrdən bəhs edib. Gənclər Fondunun şöbə müdiri Orxan Qəhrəmanzadə, NAYORA-nın baş katibi Nərminə Hüseynova və “Sosial Məsələlərin Həllinə Kömək” İctimai Birliyinin sədri Nərmin Daşdəmirbəyli çıxışlarında tədbirin əsas məqsədinin gənclərin sosial-iqtisadi, ictimai-siyasi, təhsil, məşğulluq, sağlamlıq və digər sahələrdə üzləşdikləri problemlərin mütəxəssislərlə müzakirə olunması və onların həllində gənclərin iştirakçılığının təmin edilməsi olduğunu deyiblər.

Daha sonra gənc liderlər moda dizayneri Aynur Xəlilova, fəlsəfə doktoru Sakit Səmədov, psixoloq Vəfa Əsədova, təlimçi Orxan Şahbaz liderlik bacarıqlarının formalaşdırılması yolları ilə bağlı təcrübələrini bölüşüblər.

Forum gənclərin suallarının cavablandırılması ilə davam edib.

# BDU-nun magistrant və doktorantları Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin əməkdaşları üçün treninq keçiblər

*Dekabrın 4-də Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasının professoru Elnarə Şəfiyevanın rəhbərliyi ilə klinik psixologiya üzrə ixtisaslaşan doktorant və magistrantlar Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin əməkdaşları üçün "Emosional davamlılığın yüksəldilməsi" mövzusunda treninq keçiblər.*

Təlimdə Psixologiya kafedrasının müəllimi Emiliya İgidova və SABAH qruplarının müəllimi David Poladov auditoriyanı emosional davamlılığın peşə fəaliyyətindəki əhəmiyyəti ilə bağlı məlumatlandırıb.

Nəzəri və praktik hissədən ibarət olan treninq zamanı iştirakçılara xidməti fəaliyyət göstəricilərini yüksəltmək üçün müxtəlif məşqlər və fəndlər təqdim olunub, onların qarşılaşdığı problemlərin həllinə yönəlmiş psixodram keçirilib və təklif olunan alternativ davranış formaları müzakirə edilib.

Professor Elnarə Şəfiyeva Xidmət əməkdaşlarının emosional davamlılıqla bağlı suallarını cavablandırıb, iş şəraitində rastlaşıla biləcək müxtəlif situasiyalara adekvat reaksiyalar göstərməyin vacibliyinə toxunub.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

# Rumıniyalı alim BDU tələbələrinə mühazirə oxuyub

*Dekabrın 6-da Rumıniyanın Alexandru İoan Cuza İasi Universitetinin Ədəbiyyat fakültəsinin professoru Ludmila Bejenaru Filologiya fakültəsinin qonağı olub. Fakültə rəhbərliyi ilə görüşən qonaq hər iki universitet arasında elm və təhsil sahəsində əməkdaşlıqdan məmnunluq duyduğunu bildirib, xüsusilə filologiya elmləri sahəsində müəllim və tələbə mübadiləsinin mühüm əhəmiyyət daşıdığını vurğulayıb.*



Sonra professor Ludmila Bejenaru “Filologiya (ingilis dili və ədəbiyyatı)” ixtisası üzrə III kurs tələbələrinə mühazirə deyib. O, Alexandru İoan Cuza İasi Universitetinin tarixi, müəllim-tələbə kontingenti, burada təhsil, elmi tədqiqat imkanları haqqında geniş məlumat verib, dilçilik və ədəbiyyatşünaslıq sahəsində qarşılıqlı əməkdaşlığın həm tələbələr, həm də professor-müəllim heyəti üçün faydalı olacağına ümidvar olduğunu bildirib. Qeyd olunub ki, əsası 1860-cı ildə qoyulmuş Rumıniyanın Alexandru İoan Cuza İasi Universitetində 25000 tələbə təhsil alır. Universitetdə 15 fakültədə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

Sonra qonaq tələbələrin suallarını cavablandırıb.

Qeyd edək ki, 2022-ci ilin yanvar ayında BDU ilə Alexandru İoan Cuza İasi Universiteti arasında imzalanmış “Erasmus” mübadilə protokolu əsasında hər iki ali təhsil müəssisəsi elm və təhsil sahəsindəki əməkdaşlığını uğurla davam etdirir.

# BDU tələbələri Rusiyanın Roskonqress Fondunun təcrübə kursunda iştirak ediblər

*Dekabrın 2-də Coğrafiya fakültəsinin “Coğrafiya müəllimliyi”, “Coğrafiya” və “Turizm işinin təşkili” ixtisasları üzrə II-III kurs tələbələri Rusiyanın Roskonqress Fondu tərəfindən təşkil edilmiş bir aylıq onlayn təcrübə kursunda iştirak ediblər. Tələbələrin elmi rəhbəri Fiziki coğrafiya kafedrasının baş müəllimi İrkən Aktoprakdır.*

Tələbələr təcrübə müddətində həmçinin "Azərbaycan Odlar Yurdu" layihə-müsabiqəsində iştirak ediblər. Roskonqress Fondunun təcrübə rəhbəri Vladislav Qureviç BDU tələbələrinin bu layihədə olduqca aktiv iştirakını qeyd edib.

Tələbələrin layihə üçün təqdim etdikləri məqalələr Azərbaycanın təbiəti, tarixi, tanınmış şəxsiyyətləri, müasir reallıqlarına həsr edilib. Müsabiqənin nəticələrinə əsasən, Coğrafiya fakültəsinin 11 tələbəsinin işi finalda ən yaxşılar sırasında yer alıb.

Sonda tələbələrə sertifikatlar verilib.

# BDU tələbəsi XIV Mərkəzi Asiya Koreyaşünaslıq Olimpiadasında III yerə layiq görülüb



*Dekabrın 4-də Şərqşünaslıq fakültəsinin Regionşünaslıq (Koreya üzrə) ixtisasının III kurs tələbələri Nərmin Zeynalova, Məryəm Abasova, Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının Koreya dili üzrə müəllimi, eyni zamanda Koreya Fondunun qonaq professoru Moon Eun Hyun Abılay xan adına Qazax Beynəlxalq Münasibətlər və Dünya Dilləri Universitetində keçirilən XIV Mərkəzi Asiya Koreyaşünaslıq Olimpiadası və Müstəqil Dövlətlər Birliyi (MDB) Koreyaşünas Gənc Tədqiqatçıların IX Konfransında iştirak ediblər.*

Olimpiadada Şərqşünaslıq fakültəsinin tələbəsi Nərmin Zeynalova III yerə layiq görülərək, diplom və sertifikatla mükafatlandırılıb. Məryəm Abasova isə sertifikata layiq görülüb.

Tələbələrimizi təbrik edir, uğurlar arzulayırıq!

# BDU əməkdaşları DIRNA layihəsi çərçivəsində keçirilən tədbirdə iştirak ediblər



***Dekabrın 9-da BDU-nun tərəfdaş, Xəzər Universitetinin koordinator olduğu "Erasmus+KA2" proqramının Avropa Komissiyası tərəfindən maliyyələşən "Azərbaycanda İnstitusional Repozitoriyalar şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı" (DIRNA) adlı layihə çərçivəsində "Açıq giriş və elm diplomatiyası" adlı tədbir keçirilib.*** Açıq elm, açıq giriş və institusional arxivlərə həsr olunan toplantıda BDU-nu beynəlxalq əlaqələr üzrə prorektor Şahin Pənahov və Elmi Kitabxananın direktoru, DIRNA layihəsinin BDU üzrə rəhbəri Nigar İsmayılova təmsil ediblər.

Tədbirdə Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlı DIRNA layihəsinin əhəmiyyəti və faydaları, Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli isə onun mahiyyəti, məqsədi, fəaliyyəti və başlandığı dövrdən bu günə qədər görülən işlər haqqında ətraflı məlumat verib.

Daha sonra "Açıq giriş və elm diplomatiyası" adlı mövzuda İzmir Yüksək Texnologiyalar İnstitutunun rektoru, professor Yusuf Baranın təqdimatı dinlənilib. Rektor çıxışında elm siyasəti, onun mahiyyəti, yerli və bəşəri problemlərin həllində rolu barədə məlumat verib.

İzmir Yüksək Texnologiyalar İnstitutunun kitabxana direktoru Gültekin Gürdal isə "Araşdırmanın sərhədlərini aşın: açıq giriş ilə fərq yaradın" mövzusundakı təqdimatında elmi araşdırmaların hər kəsə əlçatanlığının mümkünlüyü, süni intellektin elmi araşdırmalardakı rolundan bəhs edib.

# BDU-nun 6 tələbəsi "MEDİAlab" layihəsi çərçivəsində mükafatlandırılıb

***Dekabrın 9-da Medianın İnkişafı Agentliyi və "AzerGold" QSC-nin birgə təşkilatçılığı ilə keçirilən "Kreativ Media - Bakı" məzmun müsabiqəsinin mükafatlandırma mərasimi keçirilib.***



Mərasimdə çıxış edən Medianın İnkişafı Agentliyinin Media dəstək layihələri, strateji planlaşdırma və informasiya texnologiyaları departamentinin direktoru Ləman İsgəndərova qeyd edib ki, çağdaş medianın tələblərinə cavab verən, gənc, dinamik, istedadlı və bacarıqlı jurnalistlərin hazırlanması olduqca vacibdir. "MEDİAlab" layihəsi çərçivəsində təşkil olunan "Kreativ Media - Bakı" məzmun müsabiqəsi bu istiqamətdəki mühüm təşəbbüslərdəndir.

Qeyd olunub ki, müsabiqə müddətində Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərova və BDU-nun Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının dosenti Könül Niftəliyevanın iştirakı ilə "Kreativ Media - Bakı" məzmun müsabiqəsinin finalçıları ilə mentorluq görüşü keçirilib. Görüş zamanı mentorlar gənclərin hazırladıqları onlayn qəzet və süjet materiallarını təhlil edib, öz tövsiyələrini veriblər.

Sonda müsabiqənin qalibləri təltif olunub. Jurnalistika fakültəsinin tələbələri Nurlan Cəbrayılzadə, Nahid Xəlilov, Safura Məmmədova "Onlayn qəzet", Günel Məmmədova, Səmayə Qədirova və Alidə Məmmədova isə "Reportaj" nominasiyaları üzrə mükafatlara layiq görülüblər.

Tədbir çərçivəsində "Yaşıl həmrəylik və dayanıqlı inkişaf mediada" adlı ideya müsabiqəsi də keçirilib.

Tədbirdə gənclər siyasəti və gənclərlə iş sahəsində xüsusi fərqlənməyə görə 2024-cü il Gənclər üçün Prezident mükafatçısı, Gənclər və İdman Nazirliyinin Beynəlxalq əlaqələr sektorunun müdiri Zərifə Zülfüqarova tərəfindən "Yaşıl həmrəylik və dayanıqlı inkişaf mediada" ideya müsabiqəsi çərçivəsində davamlı tərəqqinin əsas prinsipləri və məqsədləri haqqında geniş məlumatlandırma sessiyası keçirilib, müsabiqənin hazırlıq prosesi və istiqamətlərinə dair informasiya verilib. Daha sonra iştirakçılar 30 dəqiqə ərzində "Ekoloji təşəbbüslər: "Yaşıl düşüncə"" və "Sıfır Emissiya: Sağlam gələcək" mövzuları üzrə təqdimat hazırlayıblar.

Jurnalistika fakültəsinin III kurs tələbələri Nurlan Cəbrayılzadə, Nahid Xəlilov və Safura Məmmədovanın təmsil olunduğu "Eko-PROQRESS" komandası ideya müsabiqəsinin qalibi olub.

Tələbələrimizi təbrik edir, uğurlarının davamını arzulayırıq!

# BDU-nun Psixoloji yardım sektoru "Valideyn-övlad münasibətləri" adlı təlim keçirib



***Dekabrın 9-da BDU-nun Psixoloji yardım sektoru Tələbə Gənclər Təşkilatı (TGT) ilə birgə Kimya fakültəsində "Valideyn-övlad münasibətləri" adlı təlim keçirib.***

Sektorun psixoloqu İlkanə Mənsumova tələbələrə valideynlərlə münasibətlərdə yaranan çətinliklərin aradan qaldırılmasına kömək edən məlumatlar verib. Təlimdə valideyn-övlad ünsiyyəti, münasibətlərdə yaranan çətinliklər və onların aradan qaldırılma yolları müzakirə olunub. Eyni zamanda ətrafa, cəmiyyətə qarşı münasibətdə valideynlərin rolu təhlil edilib.

Valideynlərlə ünsiyyətin şəxsin xarakterinin formalaşmasına təsiri haqqında geniş müzakirə aparılıb.

# BDU Elmi Kitabxanasında təlim: "Elmi araşdırmalar: mövzunun formalaşmasından nəşrə qədər"



***Dekabrın 17-də BDU-nun Elmi Kitabxanasında "Elmi araşdırmalar: mövzunun formalaşmasından nəşrə qədər" adlı təlim keçirilib. Təlim Xəzər Universitetinin koordinatoru olduğu, Avropa Komissiyası tərəfindən maliyyələşən "Azərbaycanda İnstitusional Repozitoriyalar şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı" (DIRNA) adlı layihə çərçivəsində təşkil edilib. Təlimdə 20-dən çox əməkdaş iştirak edib.***

BDU Elmi Kitabxanasının direktoru Nigar İsmayılova "Elmi tədqiqatın planlaşdırılması və informasiya təminatı" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda elmi tədqiqat mövzusunun seçilməsi, aktuallığının qiymətləndirilməsi meyarları, tədqiqatın məqsədinə uyğun tədqiqat metodlarının tətbiqi, mövzuya aid mövcud informasiya resurslarının təhlili, uyğun ədəbiyyatın axtarışı və seçilməsi məsələlərindən bəhs edilib. Tədqiqatçıların elmi informasiya təminatında kitabxanaların rolunu vurğulayan təlimçi çap və elektron informasiya resursları vasitəsilə kitabxana xidməti sahəsində baş verən yeniliklər haqqında məlumat verib.

Elmi Kitabxananın Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri, EIFL.net-in Azərbaycan Respublikası üzrə milli əlaqələndiricisi Cəmilə Yusifova "Beynəlxalq elmi platformalarda axtarış və nəşriyyatlarda jurnal seçimi" adlı təqdimatla çıxış edib. Təlimçi təqdimatında "Tədqiqatçıları elmi tədqiqatın mövzusuna uyğun müəlliflik hüquqları qorunan rerurslarla təmin etmək", "Tədqiqatçılara açıq giriş jurnallarında məqalə dərc etmək istiqamətində dəstək vermək", "Elmi bazalarda axtarış etməklə indekslənən jurnallarda dərc olunmuş keyfiyyətli elmi tədqiqat məqalələrini açıq giriş repozitoriyalarına təqdim etmək" və "Elmi tədqiqatlarda beynəlxalq tərəfdaşlığın genişləndirilməsi və əməkdaşlıq işində Açıq giriş və Açıq elmin əhəmiyyəti" adlı başlıqlara toxunaraq bunların tədqiqatçılar üçün əhəmiyyətli olduğuna diqqət çəkib.

Sonda əməkdaşlara "EBSCOhost" platformasının yeni istifadəçi interfeysi və "Taylor & Francis" beynəlxalq nəşriyyatının elektron resurslarından istifadə qaydaları izah edilib, suallar cavablandırılıb.

# "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti qonağı Milli Məclisin üzvü Mübariz Qurbanlı olub

***Dekabrın 16-da BDU və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının təşkilatçılığı ilə "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti qonağı YAP-ın İdarə Heyətinin və Milli Məclisin üzvü Mübariz Qurbanlı olub.***

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, müstəqil Azərbaycan dövlətinin yaranması və inkişafında Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və müstəqilliyimizi əbədi, dönməz etmiş qüdrətli şəxsiyyətdir. Ulu Öndər bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkib, respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə edib.



Daha sonra məruzə ilə çıxış edən YAP-in İdarə Heyətinin, Milli Məclisin üzvü Mübariz Qurbanlı bildirib ki, hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin memarı və qurucusu, xalqının və ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır. Ulu Öndərin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlayıb, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olub. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll edib. Ulu Öndər müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib və məharətlə həyata keçirib.

Daha sonra qonaq gənclərin suallarını cavablandırıb.

# BDU-nun 105 illik yubileyi çərçivəsində Geologiya fakültəsinin təqdimatı

***Dekabrın 18-də BDU-nun 105 illik yubileyi çərçivəsində Geologiya fakültəsinin təqdimatı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərdа İmanov Universitetin 105 illiyi çərçivəsində hər bir fakültənin təqdimatının keçirilməsinin həm tarixi ekskurs, həm də hesabatlılıq baxımından faydalı olduğunu vurğulayıb. Qeyd edib ki, 1919-cu ildə əsası qoyulan və ilk Avropa tipli ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetində yarandığı gündən tədris hər dövrün tələbinə uyğun olaraq ən yaxşı səviyyədə təşkil edilib və edilir. 80 illik tarixə malik olan və Azərbaycanı dünyaya tanıdan sərvətlərin aşkara çıxarılmasında peşəkar kadr hazırlığını həyata keçirən Geologiya fakültəsi də ölkəmizin geoloqlar məktəbinin əsas ocağıdır. Görkəmli geoloqlar nəslinin yetişməsinə öz əvəzsiz töhfəsini verən Geologiya fakültəsi müasir günümüzdə də aktual olan istiqamətlər üzrə kadr hazırlığını həyata keçirir. Belə ki, fakütədə "Geologiya", "Geologiya və geofizika mühəndisliyi", "Mədən mühəndisliyi" və "Meliorasiya mühəndisliyi" ixtisasları üzrə mütəxəssislər hazırlanır. 4 istiqamət, 11 ixtisaslaşma üzrə magistr, 7 ixtisas üzrə isə fəlsəfə və elmlər doktoru hazırlığı həyata keçirilir. Bütün bunlar Geologiya fakültəsinin gələcək uğurlu fəaliyyəti ilə bağlı böyük ümidlər yaradır.



Sonra Geologiya fakültəsinin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

BDU-nun Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə isə bildirib ki, ötən əsrin 50-ci illərindən fakültə alimlərinin geologiya elminin inkişafında, yüksəkixtisaslı mühəndis-geoloq kadrlarının hazırlanmasında, faydalı qazıntı yataqlarının öyrənilməsində və işlənilməsində müstəsna xidmətləri olub. Onlardan AMEA-nın həqiqi üzvləri Musa Əliyev, Əliəşrəf Məmmədov, Şəfaət Mehdiyev, Mirəli Qaşqay, Ədhəm Şıxəlibəyli, Arif İsmayılzadə, Akif Əlizadə, müxbir üzvləri Qədir Sultanov, Xudu Məmmədov, Tələt Kəngərli və digərlərinin adlarını çəkmək olar. Fakültədə çalışan alimlərdən akademiklər Şəfaət Mehdiyev və Faiq Bağırzadə müxtəlif illərdə BDU-nun rektoru kimi çalışıblar. Bütün bunlar görkəmli geoloqların ali təhsilin inkişafı istiqamətində göstərdikləri yüksək fədakarlığın bariz nümunəsidir.

Geologiya fakültəsinin dekanı Mamoy Mansurov fakültənin tədris, elmi fəaliyyəti ilə bağlı məlumat verib. Bildirib ki, Ümumi və tarixi geologiya, Hidrogeologiya və mühəndis geologiyası, Seysmologiya və Yer təkinin fizikası, Faydalı qazıntılar və Kristalloqrafiya, mineralogiya və geokimya kafedraları üzrə aparılan tədris fəaliyyəti zamanı tələbələr praktik fəaliyyətə də cəlb edilirlər. Fakültənin əsas istehsalat bazası onun yetişdirdiyi məzunların çalışdıqları və rəhbərlik etdikləri "Azərbaijan International Mining Company Limited" Şirkətinin, habelə "AzərGold" QSC-nin mədənləri, Ekoloji və Təbii Sərvətlər Nazirliyinin Geoloji Kəşfiyyat və Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə agentlikləri, Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika, Neft və Qaz institutları, Respublika Seysmoloji Xidmət Mərkəzi, Azərbaycan Melorasiya və Su Təsərrüfatı ASC-nin Hidrogeoloji-Meliorativ Xidmət İdarəsidir. Fakültə məzunları SOCAR, BP kimi neft şirkətlərində, sənaye və mülki tikinti obyektlərinin ərazisində mühəndis-geoloji işləri aparan təşkilatlarda mühəndis-geoloq kimi çalışırlar. Son illər fakültənin 100-ə qədər məzunu təcrübə keçdikləri şirkətlərdə müsabiqə yolu ilə işə qəbul olunublar.

Daha sonra çıxış edən Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadə, Fövqəladə Hallar Nazirliyinin Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarəsinin rəis müavini Gündüz Həmzəyev, "Azerbaijan International Mining Company Limited" şirkətinin Geoloji kəşfiyyat şöbəsinin müdiri Anar Vəliyev və I kurs tələbəsi Anaxanım Dadaşova fakültənin ölkənin həyatında oynadığı əhəmiyyətli roldan söz açaraq, bundan sonrakı fəaliyyətində uğurlar arzu ediblər.

Tədbir fakültənin tələbələri tərəfindən hazırlanan ədəbi-bədii kompozisiya ilə davam edib.

# BDU rektoru Misir, Küveyt səfirləri və Qətərin müvəqqəti işlər vəkili ilə görüşüb

***Dekabrın 24-də BDU-nun rektoru Elçin Babayev Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri Hişam Mohamed Nağı Abdel Həmidi, Küveyt Dövlətinin səfiri Məhəmməd Feysəl Əl-Muteyri və Qətər Dövlətinin müvəqqəti işlər vəkili Hamad Xalaf Al-Hemaidi ilə görüşüb.***

Rektor səfirləri Azərbaycanın ilk və ən böyük ali təhsil müəssisəsi olan BDU-da görməkdən məmnunluğunu bildirib, ölkəmizin ərəb dövlətləri ilə uğurlu əməkdaşlıq, dostluq münasibətlərinə malik olduğunu qeyd edib.

O bildirib ki, ərəb ölkələri ilə əlaqələrin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, hazırda bu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Azərbaycan və ərəb dövlətləri beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərir. Ərəb ölkələri həmçinin Azərbaycanın haqq savaşında daim mənəvi və siyasi dəstək veriblər. Rektor Azərbaycanla ərəb ölkələrinin elm, təhsil sahəsindəki əməkdaşlığının ikitərəfli əlaqələrə böyük töhfə verdiyini vurğulayıb.



Rektor Şərqşünaslıq fakültəsinin BDU-nun ən qədim fakültələrindən olduğunu diqqətə çatdırıb, fakültədə ərəb dilinin tədrisi, bu sahədə qazanılan uğurlar barədə məlumat verib. Rektor BDU-nun digər sahələr üzrə də əməkdaşlığa açıq olduğunu bildirib, ərəb ölkələrinin universitetləri ilə memorandumların imzalanması, ikili diplom proqramlarının hazırlanmasının əhəmiyyətindən söhbət açıb. Rektor Şərqşünaslıq fakültəsində Ərəb dili və mədəniyyəti mərkəzinin açılması fikrini irəli sürərək, belə bir mərkəzin ərəb dilinin öyrənilməsi sahəsində böyük əhəmiyyət daşıyacağını qeyd edib.

Səfirlər Şərqşünaslıq fakültəsinin təşkilatçılığı ilə Beynəlxalq Ərəb Dili Gününün qeyd olunmasını olduqca təqdirəlayiq hadisə kimi qiymətləndirib, BDU ilə əməkdaşlığa hazır olduqlarını bildiriblər.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# Xalq şairi Nəbi Xəzrinin 100 illik yubileyi qeyd olunub

***Dekabrın 16-da Filologiya fakültəsinin təşkilatçılığı ilə Xalq şairi, Dövlət mükafatı laureatı Nəbi Xəzrinin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***

Mərasimdə çıxış edən rektor Elçin Babayev Nəbi Xəzrinin XX əsr Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən biri olduğunu bildirib. Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd olunması haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamının önəmini xatırladan rektor qeyd edib ki, görkəmli şairin lirikası yüksək humanizmi, böyük vətəndaşlıq qayəsi və milli koloriti sayəsində milyonlarla insanın məhəbbətini qazanıb. Rektor belə tədbirlərin tələbələrin bədii-estetik zövqünün formalaşmasında, mənəvi dünyalarının zənginləşməsində mühüm əhəmiyyətə malik olduğunu bildirib.



Filologiya fakültəsinin Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov tədbir iştirakçılarına Nəbi Xəzrinin zəngin yaradıcılığı ilə bağlı məlumat verib. O, qeyd edib ki, Nəbi Xəzri ədəbiyyatda Səməd Vurğun ədəbi məktəbinin davamçılarından sayılır: “Nəbi Xəzrinin yaradıcılığında təbiət - dəniz, səma, hava, Günəş, külək, ləpələr, işıq insan hissləri ilə üzvi vəhdətdə verilir. O, bu anlayışlardan insanların, ümumilikdə cəmiyyətin obrazını yaratmaq üçün vasitə kimi istifadə edir. Nəbi Xəzri XX əsr poeziyamızın mükəmməl hadisələrindən biridir. Onun lirikası ideologiyadan uzaq, saf, təmiz, anlaşılan, rahat başa düşülən lirikadır. Şairin əsərlərinin bu qədər sevilməsinin, ürəklərə yol tapmasının səbəblərindən biri də budur”.

Nizami Cəfərov Nəbi Xəzrinin həm də tanınmış ictimai xadim olduğunu, ömrünün son illərində dramaturgiyaya daha çox meyl etdiyini vurğulayıb.

BDU-nun dosenti, şair-publisist Anar Məmmədov görkəmli şairin həm də ssenarist, nasir, publisist, dramaturq kimi qüdrətli olduğunu diqqətə çatdırıb, onunla bağlı xatirələrini bölüşüb.

Nəbi Xəzrinin qızı, BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının baş müəllimi Gülümsər Abbasova çıxışında tədbirin təşkilinə görə təşəkkür edib, şairin zəngin ədəbi irsinin bu gün də dilimizin, mədəniyyətimizin, mənəviyyatımızın inkişafına xidmət etdiyini diqqətə çatdırıb.

Sonra BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin Nəbi Xəzrinin 100 illik yubileyi münasibətilə elan etdiyi esse müsabiqəsinin qalibləri açıqlanıb. Filologiya fakültəsinin IV kurs tələbəsi Səbinə İslamova müsabiqədə I, II kurs tələbəsi Hümbət Bədəlov II, Coğrafiya fakültəsinin II kurs tələbəsi Varis Əhmədli III yerə layiq görülüb.

Sonda tələbələrin ifasında şairin sevilən şeirləri, sözlərinə yazılmış mahnılar ifa olunub.

# Görkəmli mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynovun 100 illik yubileyi qeyd olunub

***Dekabrın 17-də BDU-da görkəmli alim və mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynovun 100 illik yubileyinə həsr olunmuş “Azərbaycan mediası: tarix və müasirlik” mövzusunda Beynəlxalq elmi-praktiki konfrans keçirilib.***

Tədbirdən əvvəl konfrans iştirakçıları Fəxri xiyabanda Şirməmməd Hüseynovun məzarını ziyarət ediblər. Görkəmli alimin xatirəsi ehtiramla yad olunub. Sonra konfrans iştirakçıları BDU-nun Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasında Şirməmməd Hüseynovun xatirəsinə həsr olunmuş guşə ilə tanış olublar.





Tədbir BDU-nun akt zalında davam edib. Konfransın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, professor Şirməmməd Hüseynov görkəmli mətbuat tədqiqatçısı, nüfuzlu alim, unudulmaz müəllim kimi şərəfli bir ömür yaşayıb. Şirməmməd Hüseynov öz araşdırmalarına hələ Moskvada aspiranturada oxuduğu illərdən başlayıb və bütün elmi yaradıcılığı boyu milli Azərbaycan mətbuatının araşdırılmasına böyük əmək sərf edib: “Professor Şirməmməd Hüseynov böyük bir ənənənin, tarixi missiyanın, “Əkinçi” məktəbinin davamçısı idi. Bu ənənə XIX əsrin sonu, XX əsrin əvvəllərində yaranan və formalaşan, klassik mətbuat xadimlərimizin milliliyə, vətənpərvərliyə əsaslanan ənənəsi idi. Şirməmməd müəllimin elmi və publisistik yazıları klassik mətbuat xadimlərimizlə müasir dövrümüz arasında bir körpü rolunu oynayır. Alim həmin dövrün ziyalılarının həyat və yaradıcılığını, milli mətbuat orqanlarımızın fəaliyyətini bizə yeni tərzdə, yeni təqdimatda çatdırır. Həm də sovet dövründə öyrənilməmiş zəngin, maarifçi Azərbaycan mətbuatının materialları ilə tanış edir”.

Rektor diqqətə çatdırıb ki, Şirməmməd Hüseynov bacarıqlı mətbuat tarixçisi olmaqla bərabər, həm də gözəl pedaqoq idi: “O, əsl müəllim kimi ömrünü müstəqil Azərbaycanın jurnalistlərinin yetişdirilməsinə həsr edib. Şirməmməd müəllimin yüksək şəxsi keyfiyyətləri müəllimliyi ilə vəhdət təşkil edirdi. O, səmimiyyətə, təvazökarlığa, qarşılıqlı hörmətə pedaqoji fəaliyyətində böyük əhəmiyyət verib, tələbələrindən də bunu tələb edib. Məhz Şirməmməd Hüseynov kimi müəllimlərimizin əməyinin nəticəsidir ki, müstəqil Azərbaycan mətbuatı öz tarixi irsinə, “Əkinçi” ənənələrinə söykənərək yenidən formalaşıb, inkişaf mərhələsinə qədəm qoyub. Bu gün Azərbaycan jurnalistikasında milli mətbuatımızın ənənələrini davam etdirən minlərlə jurnalist çalışır, mətbuatın inkişafına töhfə verir. Onun tələbələri, davamçıları zəngin milli mətbuat ənənələrini uğurla inkişaf etdirirlər”.

Sonra professor Şirməmməd Hüseynovun həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

Türkiyənin Üsküdar Universitetinin rektoru Nazife Güngör böyük alim Şirməmməd Hüseynovun millətinə, xalqına xidmət edən, tarix yaradan bir jurnalist-alim olduğunu vurğulayıb. O, Şirməmməd Hüseynovun öz şəxsiyyəti və yaradıcılığı ilə jurnalistika təhsilində yeni yol açdığını bildirib.

Milli Məclisin deputatı, Bakı Slavyan Universitetinin Jurnalistika kafedrasının müdiri Vüqar Rəhimzadə bildirib ki, Şirməmməd Hüseynov müasir dövrün çağırışlarına cavab verən, ölkənin ictimai-siyasi mühitinə təsir imkanlarına malik minlərlə jurnalist yetişdirib. Tədqiqatçı kimi tariximizin ən önəmli səhifələrini araşdırıb. Görkəmli alimin müəyyən etdiyi prinsiplər hər bir jurnalist üçün məktəb sayıla bilər.



Azərbaycan Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid isə qeyd edib ki, Şirməmməd Hüseynov təkcə yazıları ilə deyil, vətəndaşlığı ilə də dərs keçib, nümunə olub. Bu məktəbin yetirmələri görkəmli alimdən həm də cəmiyyəti maarifləndirmək, xalqa xidmət etmək missiyasını öyrəniblər.

“ARB24” telekanalının direktoru Radik İsmayılov, “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov, BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev çıxışlarında Şirməmməd Hüseynovun elmi-pedaqoji fəaliyyətini ləyaqətlə, vicdanla, təmənnasız və peşəkarlıqla yerinə yetirdiyini bildirib, xatirələrini bölüşüblər.

Sonda görkəmli alimin qızı, Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova çıxış edərək konfransın təşkilinə görə minnətdarlığını bildirib. O qeyd edib ki, Şirməmməd Hüseynov öz xalqını çox sevən, son dərəcə dürüst və təmiz insan idi: “Biz onunla daim qürur duymuşuq və özümüzü Şirməmməd Hüseynovun məsləkdaşı hesab etmişik. Çox sevinirəm ki, atamın yetirmələri, tələbələri də bu yolla gedirlər”.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

# Ekologiya və torpaqşünaslıq fakültəsinin təqdimatı: “Yaşıl düşüncə məkanı”

***Dekabrın 17-də BDU-nun 105 illik yubileyi çərçivəsində Ekologiya və torpaqşünaslıq fakültəsinin “Yaşıl düşüncə məkanı” adlı təqdimatı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov Ekologiya və torpaqşünaslıq fakültəsinin Universitetin ən gənc fakültəsi olmasına baxmayaraq, fəaliyyəti ilə fərqləndiyini qeyd edib. O bildirib ki, fakültədə ekoloji problemlərin həlli, torpaqşünaslıq, qlobal iqlim dəyişiklikləri istiqamətində uğurlu elmi araşdırmalar aparılır. Bu gün dünyada ən aktual məsələlərdən biri bəşər sivilizasiyasının və onu əhatə edən ətraf mühitin sabitliyinin təhlükə qarşısında qalması, mövcud ekosistemlərin dağılması təhlükəsinin artmasıdır. Ekoloji problemlərin təxirə salınmadan həllinin zəruriliyi ekoloji biliklərə tələbat və marağı günü-gündən artırır. Bu baxımdan fakültənin yetişdirdiyi kadrlara çox böyük ehtiyac var.



Daha sonra Ekologiya və torpaqşünaslıq fakültəsinin fəaliyyətini əks etdirən videoçarxlar nümayiş olunub.

Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı fakültənin tarixinə və keçdiyi inkişaf yoluna nəzər salıb. Bildirib ki, ölkə başçısı İlham Əliyevin qərarı ilə 2010-cu il ölkəmizdə “Ekologiya ili” elan edilməsi ilə əlaqədar olaraq BDU Elmi Şurasının 20 noyabr 2010-cu il tarixli qərarı ilə Biologiya, Coğrafiya və Kimya fakültələrinin müvafiq kafedralarının bazasında Ekologiya və torpaqşünaslıq fakültəsi yaradılıb. 2011-ci il mart ayının 3-də isə fakültənin rəsmi açılışı olub: “Ekologiya və torpaqşünaslıq fakütəsində təbii ehtiyatların və təbii şəraitin qorunması, daha səmərəli istifadə olunması problemləri, keçid və nadir torpaq elementlərinin fotometrik təyini və qatılaşdırma metodikalarının öyrənilməsi, torpaq kadastrı, torpaqların bonitirovkası, ekoloji münbitlik modeli, ekoloji qiymətləndirilməsi və monitorinqi, neft-qaz və neft-kimya sənaye müəssisələrində formalaşan istehsalat tullantılarının ətraf mühitə ekoloji təsirlərinin qiymətləndirilməsi öyrənilir. Hazırda fakültədə 5 kafedra və 2 tədris laboratoriyası üzrə 45 nəfərdən ibarət professor-müəllim heyəti çalışır, 870 bakalavr, 85 magistrant, 9 doktorant, 4 dissertant təhsil alır. Fakültənin məzunları azad edilmiş ərazilərimizdəki yenidənqurma və bərpa prosesində yaxından iştirak edirlər. İnanırıq ki, gənc olan fakültəmiz 105 yaşlı Universitetimizin ali missiyasını şərəflə yerinə yetirəcək”.

Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva Ekologiya və torpaqşünaslıq fakültəsinin ekoloji təhsil və tədqiqatlar sahəsində, peşəkar ekoloqların hazırlanmasında böyük rola sahib olduğunu bildirib. O vurğulayıb ki, hazırda ölkəmizdə ətraf mühitin qorunması, ona hərtərəfli nəzarətin gerçəkləşdirilməsi üçün çoxsaylı proqram və layihələr icra olunur. Ekologiya və torpaqşünaslıq fakültəsi bu proqram və layihələrin icrasında yaxından iştirak edir.

Coğrafi ekologiya kafedrasının professoru Şövqi Göyçaylı Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəldiyi dövrdən etibarən Azərbaycan ərazisində ekoloji vəziyyətin yaxşılaşdırılması, bu istiqamətdə ixtisaslı kadrların hazırlanması ilə bağlı apardığı uzaqgörən siyasətin mahiyyətindən danışıb. Qeyd edib ki, ölkəmizin bu gün azad edilmiş ərazilərdə başlatdığı yaşıl enerji siyasətinin əsası məhz həmin dövrdə qoyulub.

Tədbir fakültənin tələbələri tərəfindən hazırlanan ədəbi-bədii kompozisiya ilə davam edib.

# BDU-nun 105 illik yubileyi çərçivəsində Kimya fakültəsinin təqdimatı

***Dekabrın 16-da BDU-nun 105 illik yubileyi çərçivəsində Kimya fakültəsinin “Sirli dünyanı Kimya ilə kəşf et!” adlı təqdimatı keçirilib.***

Mərasimdə çıxış edən BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov 105 yaşlı Universitetin 90 yaşlı Kimya fakültəsinin ölkənin elm tarixində yaratdığı yeniliklərlə iz qoyduğunu deyib. Bildirib ki, hazırda Kimya fakültəsində bakalavr və magistratura pilləsi üzrə 1300-ə yaxın tələbə təhsil alır. Kimya fakültəsində universal kadr hazırlığı aparılır. Fakültəni bitirən tələbələr kimya, neft kimyası sənayesi müəssisələrində, kimya profilli elmi-tədqiqat institutlarında işləyir, dövlət və özəl müəssisələrdə fəaliyyət göstərirlər. Fakültənin professor-müəllim heyəti Azərbaycanda kimya elminin və sənayesinin inkişafına mühüm töhfələr verib, bu sahədə elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna rol oynayıb. Fakültədə elmi varislik əlaqələrinin möhkəm təməl üzərində qurulması və inkişaf etdirilməsi bu sahənin daha da inkişaf etməsinə müsbət təsir göstərir.



Daha sonra Kimya fakültəsinin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Kimya fakültəsinin dekanı Fuad Kərimli qeyd edib ki, Azərbaycanda kimya elmi və sənayesinin inkişafı Ulu Öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi 1970-1980-ci illərdə geniş vüsət alıb. Bu dövrdə çoxsaylı fabrik və zavodlar işə salınıb, yenidən qurulub. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildən sonra Azərbaycana yenidən rəhbərlik etdiyi dövrdə də bu sahənin inkişafına xüsusi həssaslıqla yanaşıb. 2003-cü ildən etibarən bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Hazırda Azərbaycanda dünya kimya elminin ənənəvi istiqamətləri ilə yanaşı, yeni elmi istiqamətləri, o cümlədən biokimya, molekulyar biokimya, fiziki kimya, kimyəvi fizika və s. sahələr də uğurla inkişaf edir.

Kimya fakültəsi ölkəmizdə yüksək ixtisaslı kimyaçı kadrlar hazırlayan əsas elm mərkəzdir. Hazırda fakültədə 7 kafedra (Ümumi və qeyri-üzvi kimya, Üzvi kimya, Analitik kimya, Fiziki və kolloid kimya, Neft kimyası və kimya texnologiyası, Yüksəkmolekullu birləşmələr kimyası, Kimyanın tədrisi metodikası kafedraları), onların nəzdində elmi-tədqiqat və tədris laboratoriyaları fəaliyyət göstərir. Fakültədə “Kimya”, “Kimya mühəndisliyi”, “Kimya müəllimliyi” ixtisasları üzrə bakalavr hazırlığı aparılır. Fakültədə magistratura və doktorantura səviyyələrində 16 ixtisaslaşma üzrə kadrlar hazırlanır.

Kimya fakültəsinin məzunu, AMEA-nın müxbir üzvü, Türkiyənin Akdeniz Universitetinin Molekulyar Biotexnologiya Mərkəzinin rəhbəri, professor Tərlan Məmmədov, “Alkenilfenollar kimyası” laboratoriyasının müdiri, professor Musa Bayramov və I kurs tələbəsi Aytac Quliyeva fakültənin ölkəmizdə kimya elminin inkişafında və yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rolunu diqqətə çatdırıblar.

Tədbir fakültənin tələbələri tərəfindən hazırlanan ədəbi-bədii kompozisiya ilə davam edib.

# BDU-da COP modeli simulyasiya konfransı: “Qlobal iqlim maliyyələşməsi: ədalətli və davamlı həllər”

***Dekabrın 23-də BDU, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu- Avrasiya Regional Mərkəzi və “BDU könüllüləri” təşkilatının təşkilatçılığı ilə “Qlobal iqlim maliyyələşməsi: ədalətli və davamlı həllər” mövzusunda COP modeli simulyasiya konfransı keçirilib.***

BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov açılış nitqində ölkəmizin bu ilin noyabrın 11-dən 22-dək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər tədbirə ev sahibliyi etməsinin önəmindən və ekoloji hərəkatın tarixindən bəhs edib. O bildirib ki, Azərbaycanın COP29-a ev sahibliyi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional, qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu - Avrasiya Regional Mərkəzinin baş direktoru Rafiq İsmayılov isə Mərkəzin həyata keçirdiyi layihələr və tələbələr üçün yaratdığı imkanlar haqqında danışıb.

Daha sonra BDU rektorunun rəqəmsallaşdırma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova, Gənclər və İdman Nazirliyinin Gənclər siyasəti şöbəsinin müdir müavini Ülviyyə Axundova, Gənclər Fondunun Daxili nəzarət və monitorinq şöbəsinin müdiri Pərviz Mirələmli və BDU-nun Dünya iqtisadiyyatı kafedrasının müdiri Fərid Babayev çıxışlarında konfransın iştirakçılarına uğurlar arzulayıblar.

Model konfrans çərçivəsində fərqli ölkə nümayəndələrini təmsil edən tələbələr mövzu üzrə çıxışlar ediblər. İştirakçılar COP29-un nəticələri ilə bağlı daha ətraflı məlumat əldə etmək, beynəlxalq münasibətlərin təhlili və praktiki istifadəsi ilə yaxından tanış olmaq imkanı qazanıblar.

Simulyasiya konfransının iştirakçıları təmsil etdikləri ölkələrin mövqeyinə uyğun olaraq qətnamə yazılması prosesində iştirak ediblər. Sonda nümayəndələrin səs çoxluğu əsasında qlobal iqlim maliyyələşməsi ilə bağlı qətnamə qəbul edilib.

# Görkəmli jurnalist Nəsir İmanquliyevin anadan olmasının 113-cü ildönümüdür

***Dekabrın 22-də Azərbaycanın görkəmli jurnalisti, tanınmış ictimai xadim, professor Nəsir İmanquliyevin anadan olmasından 113 il ötür.***

Peşəkar redaktor, publisist və pedaqoq Nəsir İmanquliyev ömrünü Azərbaycan mətbuatı və mədəniyyətinin inkişafına, peşəkar jurnalist kadrların hazırlanmasına həsr edib.

Nəsir İmanquliyev 22 dekabr 1911-ci ildə Bakıda anadan olub. 1925-1926-cı illərdə Bakı şəhərində peşə məktəbini bitirib, 1934-cü ildə Lassal adına Neft Texnikumuna daxil olub. Dövri mətbuatda ilk yazıları tələbəlik illərində çap olunmağa başlayıb. Tələbəlik illərindən başlayaraq "Kommunist", "Yeni yol", "Gənc işçi", "Vətənin səsi" qəzetlərində ədəbi işçi, ədəbi şöbənin müdir müavini, şöbə müdiri, məsul katib, redaktor vəzifələrində çalışıb. İkinci dünya müharibəsi zamanı - 1942-ci ildə siyasi işçi kimi Krım



cəbhəsinə göndərilib, orada "Vuruşan Krım" qəzetinin məsul katibi kimi çalışıb, həmçinin hərbi hissədə tərcüməçi kimi xidmət edib. Bir il sonra "Kommunist" qəzetinə məsul katib təyin olunub, bu qəzetdə vətənpərvərlik mövzusuna həsr edilmiş bir çox məqalələri işıq üzü görüb.

Nəsir İmanquliyev 1947-ci ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətə başlayıb. 1948-1950-ci illərdə BDU-nun Filologiya fakültəsində təhsilini iki ilə müvəffəqiyyətlə başa vurub. 1947-1998-ci illərdə BDU-nun Jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında müəllim, dosent, professor olub. O, gənc jurnalist kadrlarının hazırlanması işində fəal iştirak edib, bu işə öz əvəzsiz töhfəsini verib. 1958-ci ildə Azərbaycanda yeni tipli "Bakı" və "Baku" (1953) axşam qəzetlərinin baş redaktoru təyin edilib.

Azərbaycan Mədəniyyət Nazirliyinin Radiolaşdırma Baş İdarəsinin rəisi və Azərbaycan SSR Nazirlər Soveti yanında Radio və Televiziya Verilişləri Komitəsi sədrinin birinci müavini vəzifələrində işləyib. 1976-cı ildə "Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi", 1990-cı ildə "Əməkdar jurnalist" fəxri adlarına layiq görülüb.

Professor Nəsir İmanquliyev 1998-ci il martın 7-də Bakı şəhərində vəfat edib.

2011-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamına əsasən, Nəsir İmanquliyevin 100 illiyinə həsr olunmuş silsilə yubiley tədbirləri keçirilib.

Nəsir İmanquliyev Azərbaycan milli mətbuatının inkişafı uğrunda yorulmadan qələm çalıb, milli ənənələrə bağlı orijinal bir jurnalistlik məktəbi yaradıb. Ömrünün 50 ilini BDU-nun Jurnalistika fakültəsində milli kadrların hazırlanmasına sərf etmiş alim-publisist zəngin pedaqoji fəaliyyəti ilə Azərbaycan jurnalistlərinin böyük bir nəslinin formalaşmasında mühüm rol oynayıb. O, "Radio proqramı", "Vətənin səsi", "Bakı" və "Baku" qəzetlərinin ideya rəhbəri-qurucusu, Bakı Dövlət Universitetinin professoru, görkəmli jurnalist, ictimai xadim kimi çoxsahəli fəaliyyətində, xalqa, Vətənə, millətə əsl sədaqət nümunəsi göstərib.

Nəsir İmanquliyevin işıqlı xatirəsi onu sevənlərin, tələbələrinin qəlbində əbədi yaşayacaq!

# BDU-nun 105 illik yubileyi çərçivəsində Hüquq fakültəsinin təqdimatı

***Dekabrın 23-də BDU-nun 105 illik yubileyi çərçivəsində Hüquq fakültəsinin təqdimatı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov Hüquq fakültəsinin Universitet tarixində müstəsna əhəmiyyətə malik olduğunu bildirib. Qeyd edib ki, BDU-nun Hüquq fakültəsinin yetişdirdiyi yüksəkixtisaslı kadrlar bu gün qanunverici və icraedici qurumlarda, dövlət idarəçiliyində, hüquq-məhkəmə sistemində müxtəlif vəzifələrdə çalışırlar.



Fakültənin yetirmələri ölkə qanunvericiliyinin təkmilləşməsində, beynəlxalq müstəvidə Azərbaycan həqiqətlərinin çatdırılmasında yaxından iştirak edirlər. Bu baxımdan Hüquq fakültəsi ölkəmiz qarşısında böyük xidmətlər göstərən və peşəkar kadrlar hazırlayan ixtisaslaşmış məktəbdir: "Bu missiyanı yerinə yetirməkdə fakültəyə uğurlar arzu edirəm!".

Sonra Hüquq fakültəsinin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Hüquq fakültəsinin dekanı Zaur Əliyev bildirib ki, Azərbaycanda hüquq elminin inkişafında fakültənin yetirmələrinin rolu danılmazdır. Hazırda fakültədə 25-dən çox hüquq elmləri doktoru və 100-ə yaxın hüquq üzrə fəlsəfə doktoru olmaqla 120-dən artıq professor-müəllim fəaliyyət göstərir. Hüquq ixtisası üzrə Avropa, ABŞ, Türkiyə və digər xarici dövlətlərdə təhsil almış azərbaycanlı məzunlar da bu gün fakültədə tədris prosesini uğurla aparırlar. Fakültədə tədris bakalavriat, magistratura və ikipilləli doktorantura səviyyələri üzrə Azərbaycan, ingilis və rus dillərində həyata keçirilir. Bakalavriat səviyyəsi üzrə 1600-dən, magistratura səviyyəsi üzrə 200-dən artıq tələbə təhsil alır, doktoranturada isə 100-dən çox tədqiqatçı hüquq elminin müxtəlif sahələri üzrə elmi tədqiqat işi yerinə yetirir.

Daha sonra Hüquq fakültəsi üzrə Tələbə Gənclər Təşkilatının sədri Veysəl Mirzəzadə, Tələbə Elmi Cəmiyyətinin sədri Mansur Səmədov və fakültənin II kurs tələbəsi, Prezident təqaüdçüsü Səmayə Abbasquliyeva Hüquq fakültəsində tələbələrin elmi, ictimai-sosial fəaliyyətləri üçün yaradılan şəraitdən söz açıblar.

Tədbir fakültənin tələbələri tərəfindən hazırlanan ədəbi-bədii kompozisiya ilə davam edib.

# BDU nümayəndə heyəti Səmərqənd Dövlət Universitetində

***Dekabrın 23-də BDU-nun nümayəndə heyəti Özbəkistanın Səmərqənd Dövlət Universitetində olub.***

Səfər zamanı BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Tədrisin təşkili və idarə olunması Mərkəzinin direktoru Elçin Məmmədov və BDU rektorunun maliyyə və inzibati məsələlər üzrə müşaviri Mirzə Mirzəyev Səmərqənd Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Hakim Xuşvaktov, Beynəlxalq layihələr departamentinin direktoru Muxtar Nəsirov və digər məsul şəxslərlə görüşüblər.

Görüş zamanı qeyd olunub ki, son bir neçə ildə BDU Özbəkistanın ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrini daha da gücləndirib. BDU Özbəkistan universitetləri ilə əməkdaşlıq müqavilələri imzalayıb, tələbə və müəllim mübadiləsi proqramları həyata keçirib. Birgə layihə və elmi tədqiqatlar regionun elmi potensialının gücləndirilməsi və təhsilin keyfiyyətinin artırılmasına xidmət edir.

Görüş zamanı iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq imkanları, xüsusilə beynəlmiləlləşmə proseslərinin sürətləndirilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının təşkili, eləcə də ikili diplom proqramlarının inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

# BDU-da Türkiyə, Qazaxıstan və Bolqarıstan nümayəndə heyəti ilə görüş

***Dekabrın 24-də BDU-nun rektoru Elçin Babayev BDU və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) birgə təşkilatçılığı ilə "Biotibbi və ekoloji problemlərin həlli üçün qabaqcıl materiallar" mövzusunda Beynəlxalq konfransda iştirak edən Türkiyə, Qazaxıstan və Bolqarıstan nümayəndə heyəti ilə görüşüb.***

Görüşdə Türkiyənin Ege Universiteti, Yıldız Texniki Universiteti, Sivas Cümhuriyyət Universiteti, Koç Universiteti, Yaşar Universiteti, Bolqarıstanın Stefan Angelof adına Mikrobiologiya İnstitutu, Qazaxıstanın Almatı Texnoloji Universitetinin nümayəndələri iştirak ediblər.

Qonaqları salamlayan rektor Elçin Babayev bildirib ki, əməkdaşlığın inkişaf etdiril-



məsi, beynəlxalq elm və təhsil təşkilatları, dünyanın nüfuzlu universitetləri və elmi qurumları ilə əlaqələrin genişləndirilməsi BDU-nun inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. BDU ICESCO ilə əlaqələrə xüsusi önəm verir, ikitərəfli və çoxtərəfli müstəvilərdə əməkdaşlığı uğurla davam etdirir. BDU-da Azərbaycanda ICESCO-nun ilk ixtisaslaşdırılmış Biotibbi materiallar kafedrasının yaradılması elmin bu vacib sahəsi üzrə beynəlxalq əməkdaşlığın inkişafına xidmət edir. Rektor ICESCO ilə elm, təhsil, mədəniyyət sahələrində də əməkdaşlığı dərinləşdirmək istiqamətində yeni imkanlar üzərində çalışır.

Görüşdə universitetlər arasında birgə elmi tədqiqat işlərinin aparılması, ortaq qrant layihələrinin hazırlanması, adları qeyd olunan universitetlərin akademik heyətinin BDU-da magistratura pilləsində dərslərin aparılmasına cəlb olunması, biotibbi materiallar, kimya və biologiya sahələri üzrə magistr pilləsi üçün ikili diplom proqramlarının yaradılması ilə bağlı məsələlər müzakirə olunub.

# BDU-nun professoru İlhamə Hacıyeva Polis Akademiyasının kursantlarına mühazirə oxuyub

***Dekabrın 16-da Filologiya fakültəsinin Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müdiri, filologiya elmləri doktoru, professor İlhamə Hacıyeva Polis Akademiyasının kursantlarına "Dil siyasəti" mövzusunda mühazirə oxuyub.***

Nəzəriyyə ilə təcrübənin vəhdəti prinsipinə əsaslanaraq, kursantlar arasında elmi yaradıcılığın müxtəlif formalarının təbliğ edilməsi, nəzəri biliklərinin möhkəmləndirilməsi və təcrübi vərdişlərinin daha da inkişaf etdirilməsini təmin etmək məqsədilə təşkil olunan mühazirədə Dil hazırlığı kafedrasının müəllimləri də iştirak ediblər.



"Dil siyasəti" mövzusunda geniş məruzə edən professor İlhamə Hacıyeva dilin cəmiyyət və dövlət həyatında rolundan danışıb, millət və dövlət quruculuğunda dil siyasətinin əhəmiyyəti haqqında məlumat verib. Bildirib ki, ölkədə dil quruculuğu yönündə baş verən köklü dəyişikliklər Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır və bu gün həmin şərəfli yolu Prezident İlham Əliyev uğurla davam etdirir.

Mühazirə kursantların iştirakı ilə düzgün ünsiyyətə dair məqamlarla bağlı müzakirə formasında davam edib. Sonra professor İlhamə Hacıyeva kursantların suallarını cavablandırıb.

# BDU Qırğızıstan-Türkiyə Manas Universiteti ilə əməkdaşlığı genişləndirir

***Dekabrın 17-də BDU-nun nümayəndə heyəti Qırğızıstanın Bişkek şəhərində yerləşən Qırğızıstan-Türkiyə Manas Universitetinə işgüzar səfər edib.***

Səfər çərçivəsində BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov və Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Rauf Həsənov Qırğızıstan-Türkiyə Manas Universitetinin beynəlxalq əməkdaşlıq üzrə mərkəzinin direktoru Kadir Akgün və beynəlmiləlləşmə üzrə koordinator Rita İsmayılova ilə görüş keçirib. Görüşdə ali təhsil müəssisələri arasında beynəlmiləlləşmə, birgə təhsil proqramlarının yaradılması və elmi-tədqiqat sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

Nümayəndə heyəti son illərdə BDU-nun beynəlxalq reytinqlərdə mövqeyinin yüksəldilməsi, elmi fəaliyyətin inkişafı və universitetin qlobal aləmdə nüfuzunun artırılması istiqamətində həyata keçirilmiş islahatlar və əldə edilmiş nailiyyətlər barədə təqdimatla çıxış edib.

Qırğızıstan-Türkiyə Manas Universitetinin əməkdaşları BDU ilə əməkdaşlığın hər iki ali təhsil müəssisəsi üçün böyük perspektivlər vəd etdiyini bildiriblər. Onlar birgə layihələrin və akademik mübadilənin gələcəkdə daha da genişləndirilməsinə ümidvar olduqlarını ifadə ediblər.

# "Azərbaycan Könüllülük Həftəsi 2024" layihəsi çərçivəsində "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşası ifa olunub

***Dekabrın 17-də BDU-da "Yaşıl dünya naminə həmrəylik İli"nə həsr olunmuş "Azərbaycan Könüllülük Həftəsi 2024" layihəsi çərçivəsində Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, "BDU könüllüləri" təşkilatı və BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin birgə təşkilatçılığı ilə "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşası ifa olunub.***

Tamaşanın nümayişindən əvvəl sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor Əliş Ağamirzəyev BDU-da həyata keçirilən sosial layihələrdən və "BDU könüllüləri" təşkilatının fəaliyyətindən söz açıb. Əliş Ağamirzəyev qeyd edib ki, ətrafında 1000 nəfərdən çox könüllünü



birləşdirən təşkilat ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə öz layiqli töhfəsini verir.

Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Vüqar Əliyev ölkəmizdə geniş vüsət alan könüllülük hərəkatından və "Azərbaycan Könüllülük Həftəsi 2024" çərçivəsində həyata keçirilən tədbirlərdən bəhs edib.

Daha sonra tamaşa nümayiş olunub. Səhnə əsərinin quruluşçu rejissoru Vahid Orucoğludur. "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşasında rolları BDU-nun tələbələri Tural Behbudov, Kənan Neymətzadə, Ülviyyə Orucova, Ramazan Ramazanzadə, Hüseyn Cabbarlı, Nərmin Zeynalova, Mehriban İbrahimli, Üzeyir Kərimov və Səkinə Məmmədova canlandırıblar.

# BDU nümayəndə heyəti Qırğız Milli Universitetinə işgüzar səfər edib

***Dekabrın 16-da BDU-nun nümayəndə heyəti Qırğızıstanın Bişkek şəhərində yerləşən Qırğız Milli Universitetinə işgüzar səfər edib.***

Səfər çərçivəsində BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov və Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Rauf Həsənov, Qırğız Milli Universitetinin elmi işlər üzrə prorektoru, professor Alaybek Şəmsiyev və Tədris mərkəzinin direktoru Almazbek Kıdıraliyevin iştirakı ilə görüş keçirilib. Görüşdə ali təhsil müəssisələri arasında beynəlmiləlləşmə və elmi-tədqiqat sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

Nümayəndə heyəti son illərdə BDU-nun rəqabət qabiliyyətliliyinin artırılması, elmi fəaliyyətin inkişafı və beynəlxalq aləmdə nüfuzunun gücləndirilməsi istiqamətində həyata keçirilmiş islahatlar və əldə edilmiş nailiyyətlər haqqında geniş təqdimatla çıxış edib.

Qırğız Milli Universitetinin elmi işlər üzrə prorektoru Alaybek Şəmsiyev BDU ilə əməkdaşlığın hər iki ali təhsil müəssisəsi üçün böyük perspektivlər açacağını vurğulayıb, birgə fəaliyyətin gələcəkdə daha yüksək səviyyəyə çatdırılacağına əminliyini ifadə edib.

# BDU ilə Qırğız Milli Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Dekabrın 17-də BDU ilə Qırğız Milli Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Əməkdaşlıq müqaviləsini BDU-nun rektoru Elçin Babayev və Qırğız Milli Universitetinin rektoru Doqdurbek Çontoyev imzalayıb.***

Müqavilə çərçivəsində tərəflər birgə tədqiqat layihələrinin həyata keçirilməsi, tələbə və müəllim mübadiləsi proqramlarının təşkili, ortaq elmi seminar və konfransların keçirilməsi istiqamətində əməkdaşlıq etməyi planlaşdırır.

Bu müqavilə BDU-nun beynəlxalq əlaqələrini genişləndirmək istiqamətində atdığı növbəti mühüm addımlardan biridir və Universitetin akademik nüfuzunun artırılmasına öz töhfəsini verəcək.

# "Dövlət qulluğunun üstünlükləri, dəyişikliklər və perspektiv planlar" mövzusunda infosessiya

***Dekabrın 18-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) BDU-da "Dövlət qulluğunun üstünlükləri, dəyişikliklər və perspektiv planlar" mövzusunda təlim keçirib.***

Təlimdə ƏƏSMN Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdir müavini Rauf Əliyev, şöbənin baş məsləhətçisi Həsənağa Hüseynov, BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov və fakültələrin IV kurs tələbələri, magistrantlar iştirak ediblər.

Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov ali təhsil müəssisələrində dövlət qulluğunun üstünlükləri ilə bağlı maarifləndirmə işinin həyata keçirilməsinin əhəmiyyətindən danışıb.

Sonra ƏƏSMN-in şöbə müdirinin müavini Rauf Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nda dövlət qulluğunun təbliği və təşviqi istiqamətində görülən işlər, layihələr barədə təlim iştirakçılarına məlumat verib.

Təlim tələbə və magistrantların mövzu ətrafında sualları ilə davam etdirilib.

# BDU-da hüquq elmləri doktoru, professor Məsumə Məlikovanın 95 illik yubileyi qeyd olunub

***Dekabrın 18-də BDU-da görkəmli alim və pedaqoq, Əməkdar hüquqşünas, AMEA-nın müxbir üzvü, hüquq elmləri doktoru, professor, Hüquq fakültəsinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri Məsumə Məlikovanın 95 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib.***

Konfransın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, tanınmış alim, peşəkar müəllim, bacarıqlı elm və təhsil təşkilatçısı, əsl ziyalılıq nümunəsi olan Məsumə Məlikovanın həyatı təhsilə, hüquq elminin inkişafına, ölkəmizin tərəqqisinə həsr olunub. Azərbaycan hüquq elminin parlaq simalarından olan Məsumə Məlikovanın BDU-nun 105 illik zəngin, şərəfli tarixinin əvəzsiz bir parçasıdır. Təsadüfi deyil ki, ömrünün 70 ilindən çoxunu BDU-nun, Azərbaycan hüquq elminin və təhsilinin inkişafına həsr edən Məsumə xanımın fəaliyyəti bir çox ilklərlə zəngindir. O, Azərbaycanda milli hüquq elminin yaradıcılarından biri, hüquq elmləri doktoru alimlik dərəcəsi almış ilk azərbaycanlı qadındır. Professor Məsumə Məlikova Azərbaycanda milli siyasi və hüquqi təlimlər tarixi elminin banisidir. Onun "Dövlət və hüquq nəzəriyyəsi" dərsliyi, "Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi" (birgə müəllifliklə) monoqrafiyası ölkəmizdə hüquq elminin inkişafında, milli fikir tariximizin araşdırılmasında mühüm elmi nailiyyət sayılır, əsas mənbələrdən biri hesab olunur. Görkəmli alimin və onun rəhbərlik etdiyi məktəbin tədqiqatları nəticəsində ölkəmizdə hüquq təhsili sahəsində tədris planına ilk dəfə olaraq "Azərbaycanın siyasi-hüquqi təlimlər tarixi", "Azərbaycanın dövlət və hüquq tarixi", "Müsəlman hüququnun əsasları" fənləri daxil edilib, həmin fənlərin tədrisi üçün müvafiq elmi baza yaradılıb.





Rektor diqqətə çatdırıb ki, Azərbaycanın milli hüquq qanunvericiliyinin təkmilləşdirilməsində mühüm xidmətləri olan professor Məsumə Məlikova Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını tərtib edənlərdən biri, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında respublikanın 1978-ci il və müstəqil Azərbaycanın 1995-ci il konstitusiyalarının, Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyasının hazırlanması üzrə komissiyaların üzvü olub: "Məsumə xanımın simasında alim, pedaqoq, ictimai xadim və rəhbər işçi xüsusiyyətləri sadəlik, səmimiyyət, təvazökarlıq, yüksək mədəniyyət və əsl ziyalılıq kimi dəyərlərlə üzvi şəkildə birləşib. Professor Məsumə Məlikovanın elmi-pedaqoji xidmətləri və ictimai fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. O, 2000-ci ildə "Şöhrət" ordeni, 2019-cu ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", "Bakı Dövlət Universitetinin 100 illiyi" və 2023-cü ildə "Heydər Əliyevin 100 illiyi" Azərbaycan Respublikasının yubiley medalları ilə təltif edilib. Prezident İlham Əliyevin 2009-cu il 30 oktyabr tarixli Sərəncamı ilə ona Azərbaycanda təhsilin və elmin inkişafında böyük xidmətlərinə görə "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü" verilib.

Rektor Elçin Babayev professor Məsumə Məlikovaya uzunmüddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində xidmətlərinə, universitetin ictimai həyatında fəal iştirakına görə və 95 illik yubileyi münasibətilə Fəxri Fərman təqdim edib.

BDU-nun Hüquq fakültəsinin dekanı Zaur Əliyev professor Məsumə Məlikovanın ölkədə hüquq elminin əsas dayaqlarından biri və canlı əfsanəsi olduğunu bildirib. O qeyd edib ki, alim kimi həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda tanınan Məsumə Məlikova dövlət və hüquq nəzəriyyəsi, hüquq tarixi, siyasi-hüquqi təlimlər tarixi elmlərinin inkişafına, bütövlükdə, Azərbaycanda elm siyasətinin səmərəli həyata keçirilməsinə böyük töhfələr verib. Elmi-pedaqoji fəaliyyətində qazandığı uğurlar, tələbələrinə və həmkarlarına göstərdiyi diqqət və qayğı, elmə münasibətdə tutduğu prinsipial mövqe, insani keyfiyyətləri və bir alim, pedaqoq kimi keçdiyi zəngin həyat yolu nəinki hüquqşünaslar, həm də elmi-pedaqoji sahədə çalışan bütün insanlar üçün bir nümunədir.

Daha sonra Ekologiya və əmək hüququ kafedrasının müdiri Alış Qasımov "Professor Məsumə Məlikova və hüquq elmi" mövzusunda məruzə edib.

Milli Məclisin sədr müavini, professor Ziyafət Əsgərov, ədliyyə nazirinin müavini Toğrul Hüseynov, Vəkillər Kollegiyasının sədri, hüquq üzrə fəlsəfə doktoru Anar Bağırov, Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının prezidenti, Əməkdar hüquqşünas, Rusiya Elmlər Akademiyasının akademiki İlham Rəhimov, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Elm və Təhsil Nazirliyinin Mexanika və Riyaziyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov, AMEA-nın Tarix və Etnologiya İnstitutunun şöbə müdiri Nərgiz Axundova, Vəkillər Kollegiyasının Ağsaqqallar Şurasının sədri, Əməkdar hüquqşünas İkram Kərimov, Binəqədi rayon məhkəməsinin sədr əvəzi Abbas Rzayev çıxışlarında Vətəninə və xalqına layiqli xidmət göstərmiş professor Məsumə Məlikovanı yubileyi münasibətilə təbrik edib, ona can sağlığı və hüquq elminin inkişafı istiqamətində bundan sonra da uzun illər fəaliyyət göstərməsini arzulayıblar. Qeyd olunub ki, o, dəyərli elmi-tədqiqat əsərləri, səriştəli kadr hazırlığı sahəsindəki müstəsna xidmətləri, əsl vətəndaş və ziyalı mövqeyi ilə adını elm, təhsil, ictimai fikir tariximizə parlaq hərflərlə həkk etdirib.

Sonda söz yubilyara verilib. Professor Məsumə Məlikova konfransın yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib və özünü xoşbəxt insan saydığını deyib: "Hər bir insan öz əməyinin, zəhmətinin bəhrəsini görmək istəyir. Xoşbəxtəm ki, mənim tələbələrim, yetirmələrim öz fəaliyyətləri ilə yüksək zirvələrə çatıb, Azərbaycanın şöhrətini yüksəyə qaldırıblar. Nə qədər nəfəsim gəlir, Vətənimə xidmət edəcəyəm".

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

# BDU-da Respublika elmi-praktik konfrans: "Geologiya-coğrafiya - 80: nailiyyətlər və innovativ inkişaf istiqamətləri"

***Dekabrın 18-də Geologiya və Coğrafiya fakültələrinin birgə təşkilatçılığı ilə 1944-cü ildə yaradılmış Geologiya-coğrafiya fakültəsinin 80 illik yubileyinə həsr olunmuş "Geologiya-coğrafiya - 80: nailiyyətlər və innovativ inkişaf istiqamətləri" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib.***

Geologiya fakültəsinin dekanı, dosent Mamoy Mansurov 1944-cü ildə Geologiya və paleontologiya, Kristalloqrafiya, mineralogiya və petroqrafiya və Coğrafiya kafedralarının bazası əsasında yaradılan Geologiya-coğrafiya fakültəsinin müstəqil qurum kimi 1991-ci ildən iki struktura - Geologiya və Coğrafiya fakültələrinə ayrıldığını deyib. Bildirib ki, Geologiya fakültəsinin aparıcı, görkəmli alimlərinin səyi nəticəsində geologiya təhsili ölkənin ali təhsil sisteminin ən əsas bölmələrindən birinə çevrilib, minlərlə yüksək ixtisaslı mühəndis-geoloq, geofizik, hidrogeoloq, neftçi-qeoloq, dağ-mədən mühəndisi və geokimyaçı yatişdirilib. Hazırda fakültədə fundamental təhsil verilir və dünya səviyyəli elmi tədqiqatlar aparılır. Fakültə böyük elmi-texnoloji, kadr potensialına malikdir. Geologiya fakültəsi BDU-nun inkişaf strategiyasına uyğun olaraq öz yaxın, orta və uzaq perspektivdəki hədəflərini müəyyənləşdirib və bu istiqamətdə uğurla addımlayır.



Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov qeyd edib ki, istər Geologiya-coğrafiya fakültəsi kimi, istərsə də 1991-ci ildən etibarən müstəqil fəaliyyət göstərən fakültə kimi Azərbaycanın ali və ümumtəhsil məktəblərində coğrafiya müəllimlərinə artan tələbatın ödənilməsində və yüksəkixtisaslı kadr hazırlığında Coğrafiya fakültəsinin xidmətləri böyükdür. Hazırda Coğrafiya fakültəsində 6 kafedra - Fiziki coğrafiya, İqtisadi və sosial coğrafiya, Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm, Geodeziya və kartoqrafiya, Hidrometeorologiya kafedraları üzrə bakalavriat, magistratura və doktorantura səviyyələrində üç dildə (Azərbaycan, rus, ingilis) tədris həyata keçirilir. Bakalavriat səviyyəsində "Coğrafiya müəllimliyi", "Coğrafiya", "Geomatika və geodeziya mühəndisliyi", "Hidrometeorologiya", "Turizm işinin təşkili", "Davamlı inkişafın idarə edilməsi" ixtisaslarında 1500-dən çox, magistraturada isə 20 ixtisaslaşma üzrə 130-dək tələbə təhsil alır. Fəlsəfə və elmlər doktorluğu proqramları üzrə 20 doktorant elmi-tədqiqat işləri üzərində çalışır.

Elm və Təhsil Nazirliyinin akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun baş direktoru, professor Zakir Eminov, Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli, BDU-nun Coğrafi ekologiya kafedrasının professoru Şövqi Göyçaylı, Ümumi və tarixi geologiya kafedrasının müdiri, professor Nazim İmamverdiyev, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor Aydın İbrahimov bu fakültələrdə yetişən peşəkar kadrların azad edilmiş ərazilərin yenidən dirçəlməsində önəmli rola sahib olduqlarını deyiblər.

Respublika elmi-praktik konfransı bölmə iclasları ilə davam edib.

# BDU və ICESCO-nun təşkilatçılığı ilə "Biotibbi və ekoloji problemlərin həlli üçün qabaqcıl materiallar" mövzusunda Beynəlxalq konfrans keçirilib

***Dekabrın 23-də BDU və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) birgə təşkilatçılığı ilə BDU-nun 105 illik yubileyinə və "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Biotibbi və ekoloji problemlərin həlli üçün qabaqcıl materiallar" mövzusunda Beynəlxalq konfransın və "Yaşıl və davamlı elm və tədris üzrə I BDU Məktəbi"nin açılış mərasimi keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, 105 yaşlı Bakı Dövlət Universiteti Azərbaycanın ilk ali təhsil müəssisəsi və elm məbədi kimi elmi-tədqiqat fəaliyyətlərinin təşkili və inkişafında mühüm rol oynayıb. Universitetin fəaliyyətində elmi araşdırmaların təşkili, müasir tələblərə cavab verən infrastrukturun qurulması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi prioritet istiqamətlərdən biridir. BDU-da elmi tədqiqatların effektiv təşkili üçün müasir laboratoriyalar, elmi mərkəzlər və institutlar fəaliyyət göstərir. Məhz buna görə də BDU elmi tədqiqatların təşkili və inkişafı sahəsində öz lider mövqeyini qoruyub saxlayır. BDU-nun bu uğurlarında beynəlxalq əməkdaşlığın, xüsusilə də ICESCO ilə qurulan əlaqələrin xüsusi yeri var: "ICESCO-nun dəstəyi ilə yaradılmış Biotibbi materiallar kafedrası elmi tədqiqat fəaliyyətlərində önəmli bir mərkəz kimi formalaşıb. Bu kafedranın fəaliyyəti çərçivəsində həyata keçirilən tədqiqatlar biomaterialların tibbi tətbiqləri, müasir texnologiyaların insan sağlamlığına və ekoloji problemlərin həllinə inteqrasiyası sahəsində böyük nəticələr əldə etməyə imkan yaradıb".

Rektor diqqətə çatdırıb ki, BDU ilə ICESCO arasında əməkdaşlıq çərçivəsində biotibbi materiallar və digər qabaqcıl texnologiyalar sahəsində beynəlxalq səviyyəli tədqiqatların aparılması, tələbə və gənc alimlərin ICESCO-nun təşkil etdiyi təcrübə proqramlarında iştirakının təmini, regionda müasir elmi texnologiyaların tətbiqini təşviq edən layihələrin həyata keçirilməsi, xüsusilə də ekoloji problemlərin həlli və dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün birgə təşəbbüslərin reallaşdırılması, ICESCO-nun dəstəyi ilə beynəlxalq konfransların keçirilməsi və yüksək impakt faktorlu elmi jurnallarda birgə məqalələrin dərc edilməsi istiqamətlərində yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bu layihələr arasında regional elmi mərkəzlərin şəbəkələşməsi və dayanıqlı inkişaf üçün innovativ texnologiyaların tətbiqi xüsusi yer tutur. Bundan əlavə, BDU təhsil və mədəniyyət sahələrində də ICESCO ilə əməkdaşlığı dərinləşdirmək, xüsusilə mədəni irsin qorunması, təhsildə rəqəmsal texnologiyaların tətbiqi və gənc nəslin qlobal çağırışlara uyğun olaraq yetişdirilməsi istiqamətlərində yeni imkanlar üzərində çalışır: "ICESCO ilə əməkdaşlığın dərinləşdirilməsi təkcə BDU-nun deyil, ümumilikdə Azərbaycanın elmi və təhsil potensialının gücləndirilməsinə mühüm töhfə verəcək. İnanıram ki, birgə səylərimiz nəticəsində elm, təhsil və mədəniyyət sahəsində daha böyük uğurlara imza atacağıq".

Elçin Babayev bildirib ki, Azərbaycanda elmin təşkilində müasir yanaşmaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Universitetlərin elmi tədqiqat mərkəzləri kimi inkişaf etdirilməsi və tələbələrin elmi fəaliyyətə cəlb olunması elm və təhsil inteqrasiyasını gücləndirir. Rektor bu baxımdan Azərbaycanla yanaşı, Türkiyədən, Qazaxıstandan, Bolqarıstandan da nümayəndələrin iştirak etdiyi "Biotibbi və ekoloji problemlərin həlli üçün qabaqcıl materiallar" mövzusunda Beynəlxalq konfransın və "Yaşıl və davamlı elm və tədris üzrə I BDU Məktəbi"nin faydalı olacağını bildirib.

Sonra ICESCO Baş direktorunun elm və texnologiyalar üzrə müşaviri Məhəmməd Şərifin videomüraciəti dinlənilib.

İzmir Yüksək Texnologiyalar İnstitutunun rektoru Yusuf Baran son onilliklərdə universitetlərin elm, bilik öyrətməklə yanaşı, texnologiyaların, iqtisadi inkişafın əsasını qoyan mərkəzlər olduğunu qeyd edib. Xüsusilə sənaye inqilablarının dünyanın sürətlə dəyişməsində böyük rol oynadığını, universitetlərin isə bu inkişafın önündə getdiyini vurğulayıb. O, biotibb istiqamətində tədqiqatların qlobal ekoloji problemlərin həllində mühüm rola malik olduğunu bildirib, konfransın işinə uğurlar arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik İradə Hüseynova, Sumqayıt Dövlət Universitetinin rektoru Rüfət Əzizov, Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Orxan İsayev, Bolqarıstanın Stefan Angelof adına Mikrobiologiya İnstitutunun professoru Milka Mileva, Qazaxıstanın Almatı Texnoloji Universitetinin Biotexnologiya kafedrasının müdiri Şolpan Abzxanova, Türkiyənin Yaşar Universitetinin Kənd təsərrüfatı bilikləri və texnologiyaları fakültəsinin dekanı İsmayıl Türkan çıxışlarında "Biotibbi və ekoloji problemlərin həlli üçün qabaqcıl materiallar" mövzusunda Beynəlxalq konfransın və "Yaşıl və davamlı elm və tədris üzrə I BDU Məktəbi"nin iqlim dəyişiklikləri, ekoloji problemlərin həlli, biotibbin inkişafı ilə bağlı qlobal çağırışlara cavab verdiyini, müxtəlif ölkələrin universitetləri, xüsusilə gənc tədqiqatçıları arasında əməkdaşlıq əlaqələrinin qurulması və təcrübə mübadiləsi baxımından faydalı olduğunu bildiriblər.

Konfransın plenar sessiyasında İzmir Yüksək Texnologiyalar İnstitutunun rektoru Yusuf Baranın "Xərçəng xəstəliyində dərmana qarşı davamlılıq" və BDU-da ICESCO-nun Biotibbi materiallar kafedrasının müdiri, professor Ülviyyə Həsənovanın "ICESCO-nun Biotibbi materiallar kafedrası: beynəlxalq əməkdaşlıq əsasında elm və tədqiqatlar" mövzularında məruzələri dinlənilib.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

# AGMA BDU-nun müəllimlik ixtisaslarında təhsil alan tələbələri üçün seminar keçirib

***Dekabrın 18-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə Filologiya, Tarix və Coğrafiya fakültələrinin müəllimlik ixtisaslarında təhsil alan tələbələri üçün Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) İbtidai sinif müəllimləri birliyinin sədri Ülviyyə Ələkbərova tərəfindən "Müəllimlərin şəxsi inkişafı" mövzusunda seminar keçirilib.***

Seminarda tələbələrə müəllimin şəxsi inkişafının mahiyyəti, effektiv inkişaf strategiyaları haqqında ətraflı məlumat verilib. Qeyd olunub ki, peşə səriştəliliyi pedaqoji fəaliyyətə yerinə yetirmək üçün müəllimin nəzəri və praktiki hazırlığını, pedaqoji ustalığını müəyyən edir. Müəllimin peşə səriştəliliyinin inkişaf etdirilməsi onun pedaqoji innovasiyaları qəbul edə, dəyişən pedaqoji mühitə uyğunlaşa bilməsi qabiliyyətlərinin formalaşdırılmasıdır.

Tədbir zamanı özünüdərk və özünüqəbuletmə, emosional zəkaya sahibolma, ünsiyyət bacarıqları, həyat bacarıqları, şəxsi hədəflər kimi məsələlərə aydınlıq gətirilib.

Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU-da elmi seminar: "Kitabxanaların informasiya funksiyası"

***Dekabrın 18-də İnformasiya və sənəd menecmenti fakültəsində "Kitabxanaların informasiya funksiyası" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda fakültənin tədris işləri üzrə dekan müavini Esmira Rüstəmli mövzu üzrə məruzə edib.***

Məruzədə bildirilib ki, internetin sürətli inkişafı, kommunikasiya sistemlərinin təkmilləşməsi informasiya cəmiyyətinin formalaşmasını və dinamik inkişafını şərtləndirir. Ona görə də informasiyanın əldə edilməsi, işlənməsi, emalı və ötürülməsi problemləri müasir kitabxana-informasiya mərkəzlərinin qarşısında mühüm vəzifə kimi dayanır. Bütün bunlar kitabxanalarla informasiya münasibətlərinin subyektləri arasında qarşılıqlı əlaqələrin və münasibətlərin yeni sistemini formalaşdırır: "İnformasiyanın aparıcı rola malik olduğu bir şəraitdə kitabxanaların ənənəvi informasiya funksiyası özünün yeni çalarları ilə ortaya çıxır. İnformasiya cəmiyyətində sosial institut kimi daha çevik və dinamik əlamətlərə malik olan kitabxanaların fəaliyyətinin əsasını təşkil edən sosial funksiya yeni meyarları və şərtləri ilə diqqəti cəlb edir".

Araşdırmada qeyd olunub ki, günümüzdə baş verən texnoloji dəyişikliklər, ortaya çıxan yeni paradiqmalar kitabxanaların ümumi fəaliyyəti, iş prosesləri ilə birlikdə onların informasiya funksiyasının həyata keçirilməsinə bir sıra yeniliklər gətirib. Kitabxana-informasiya mərkəzləri bu yeniliklərin fonunda özlərinin prioritet istiqamətlərini yenidən müəyyənləşdirir, qlobal informasiya məkanına inteqrasiyanı daha sürətli və modern üsullarla həyata keçirirlər.

# BDU ilə Qırğız İqtisad Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Dekabrın 23-də BDU ilə Qırğız İqtisad Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU-nun rektoru Elçin Babayev və Qırğız İqtisad Universitetinin rektoru Almaz Kadyraliev imzalayıblar.

Memorandum çərçivəsində təhsil və elm sahələrində birgə layihələrin, ortaq beynəlxalq elmi seminar və konfransların keçirilməsi, tələbə və müəllim mübadiləsi proqramlarının təşkili nəzərdə tutulur. Bundan əlavə, memorandum universitetlərin tədris, tədqiqat və beynəlmiləlləşmə istiqamətlərində təcrübələrinin bölüşdürülməsi üçün yeni imkanlar yaradacaq.

Qırğız İqtisad Universiteti ilə imzalanan memorandum BDU-nun beynəlxalq əlaqələrini genişləndirmək və universitetin qlobal nüfuzunu artırmaq məqsədilə atdığı mühüm addımlardan biridir. Bu əməkdaşlıq universitetlərin regionlararası elmi və mədəni inteqrasiyasını gücləndirərək, tərəflərin qarşılıqlı faydalı inkişafını təmin edəcək.

# BDU-da professor Akif Rüstəmovun 85 illik yubileyinə həsr olunmuş dəyirmi masa keçirilib

***Dekabrın 19-da Jurnalistika fakültəsinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının professoru Akif Rüstəmovun 85 illik yubileyinə həsr olunmuş “Çağdaş media təhsili: nəzəriyyədən təcrübəyə” adlı dəyirmi masa keçirilib.***



Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent Xatirə Hüseynova Akif Rüstəmovun fəaliyyətinin 55 yaşlı Jurnalistika fakültəsi ilə yaşıd olduğunu deyib. O qeyd edib ki, yüksək insani keyfiyyətlərə malik Akif Rüstəmov 10 ilə yaxın müddətdə Jurnalistika fakültəsinin dekanı işləyib, daim tələbələrin hamisi, dostu kimi tanınıb: “Ömrünü gənc jurnalistlərin peşə hazırlığına həsr etmiş Akif müəllim həm tələbələrin, həm də fakültə kollektivinin çox sevdiyi, hörmət etdiyi bir insandır. Onun tələbələrə münasibəti təkcə müəllim - tələbə münasibəti deyil, övlad münasibətidir. Yüksək peşəkarlıq, sadəlik, xeyirxahlıq və dürüstlük Akif müəllimin pedaqoq kimi əsas cəhətləridir”.

Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli Akif Rüstəmovun fakültənin böyük ustadları Nəsir İmanquliyev, Şirməmməd Hüseynov tərəfindən əsası qoyulan təmizlik ənənələrinə sadiq insan adlandırıb. Qeyd edib ki, jurnalistikanın nəzəriyyəsi ilə bağlı çoxsaylı araşdırmaları, elmi məqalələri və kitabları olan Akif Rüstəmov bu biliklərin tələbələrə aşılanması istiqamətində böyük səy göstərib: “Professorun saxta xəbərlərin aşkara çıxarılması, araşdırılması və mediada etik prinsiplərə riayət olunması ilə bağlı araşdırmaları bu gün də gənc jurnalistlərin köməyinə yetir. Ömrünün yarım əsrdən artıq bir dövrünü Azərbaycan jurnalistikasının inkişafına və bu sahədə peşəkar kadr hazırlığına həsr etmiş Akif müəllimə bundan sonrakı fəaliyyətində uğurlar arzulayıram”.

Daha sonra Akif Rüstəmovun həyat yoluna həsr olunmuş videoçarx nümayiş etdirilib.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli, Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin rəhbəri Tahir Aydınoğlu, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Musayev, Bakı Mühəndislik Universitetinin tərbiyə işləri üzrə prorektoru Bayram Hüseynzadə, yazıçı-publisist İlqar Rəsul, Azərbaycan Mətbuat Şurası sədrinin müavini Səadət Məmmədova, BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri Kəmalə Quliyeva, Jurnalistika fakültəsinin elmi işlər üzrə dekan müavini Sevinc Əliyeva, Multimedia və elektron kommunikasiya kafedrasının professoru Allahverdi Məmmədli, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının dosenti Zaur Babayev, Əməkdar jurnalist Namiq Əhmədov, fakültənin məzunu Əsgər İsmayılov Akif Rüstəmovun elmi-pedaqoji fəaliyyətinə nəzər salıb, xatirələrini bölüşüblər.

# BDU-da görkəmli şərqşünas-alim, professor Aida İmanquliyevanın 85 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı

***Dekabrın 20-də BDU-da görkəmli şərqşünas-alim, professor Aida İmanquliyevanın anadan olmasının 85 illik yubileyinə həsr olunmuş “Ərəbşünaslıq və şərqşünaslıq: müasir dünyada mədəniyyətlərarası dialoq” mövzusunda Respublika elmi konfransı keçirilib.***





Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Azərbaycanın XX əsrdə dünya elminə bəxş etdiyi parlaq imzalar arasında görkəmli şərqşünas alim, məharətli elm təşkilatçısı, nüfuzlu pedaqoq, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın özünəməxsus yeri var. Aida xanım İmanquliyeva ilk müsəlman şərqşünas qadın alim, ərəbşünaslıq üzrə ilk qadın elmlər doktoru, ilk qadın professor, ərəb-məhcər ədəbiyyatının tədqiqatçısı, Azərbaycanda ərəb ədəbiyyatşünaslıq məktəbinin yaradıcısıdır. Bunlar görkəmli alim Aida İmanquliyevanın milli kökə, xalqa bağlı, milli yaddaşın qorunmasına xidmət edən elmi irsinin kiçik bir hissəsidir: “XX əsr Azərbaycan mətbuatının əsas simalarından olan, görkəmli jurnalist və pedaqoq Nəsir İmanquliyevin və yüksək ziyalılığı ilə seçilən Gövhər İmanquliyevanın ailəsində dünyaya gələn Aida xanımın böyüdüyü ailə, əhatə olunduğu saf mühit bu parlaq şəxsiyyətin gələcək uğurlarını şərtləndirən əsas amillərdəndir. Məhz bu mühitin möhkəm təməlləri sayəsində formalaşan Aida xanım orta təhsilini qızıl medalla başa vurub, BDU-nun Şərqşünaslıq fakültəsinə daxil olub. Universiteti fərqlənmə diplomu ilə bitirən Aida İmanquliyeva təhsilini aspiranturada davam etdirib, orijinallığı, elmi yenilikləri, əhatəliliyi ilə seçilən namizədlik və doktorluq dissertasiyalarını müdafiə edib”.

Rektor bildirib ki, "Məhəbbət və gözəllik, ağıl və kamal elə mənəvi işıqdır ki, qəlbi nurlandırır” deyən Aida xanımın elmi yaradıcılığı çox zəngindir. O, 30 il Şərq mədəniyyətini, mənəvi dəyərlərini, ictimai-siyasi fikrini araşdırıb, yaradıcılığı ilə Azərbaycan şərqşünaslıq elminin inkişafı tarixində parlaq səhifə açıb. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur. Aida xanım elmi fəaliyyəti dövründə bir sıra sanballı əsərlər yazıb, eyni zamanda respublikamızda və xarici ölkələrdə keçirilən nüfuzlu beynəlxalq konfranslarda yüksək elmi səviyyəsi ilə seçilən məruzələrlə çıxış edib. Aida xanım İmanquliyeva BDU-nun Şərqşünaslıq fakültəsində ərəbşünas kadrların hazırlanması işinə böyük töhfə verib. 20 ildən artıq müddətdə ərəb ədəbiyyatından dərs deyib, mühazirələr oxuyub, xüsusi kurslar aparıb, dissertasiya və diplom işlərinə rəhbərlik edib. Onun bilavasitə rəhbərliyi altında Ərəb filologiyası şöbəsində 10-dan çox namizədlik dissertasiyası müdafiə edilib, ərəb ədəbiyyatının, ərəb-Azərbaycan ədəbi əlaqələrinin müxtəlif sahələrini araşdıran monoqrafiyalar, kitablar yazılıb: “Aida İmanquliyeva yüksək intellekti, ziyalılığı, kübarlığı, xeyirxahlığı, insanpərvərliyi ilə örnək bir ömür yaşayıb, onu tanıyanların qəlbinə əbədi həkk olunub. Həyatda çox qısa ömür yaşayan Aida xanım İmanquliyevanın parlaq əməlləri, zəngin elmi irsi bu gün də gələcək tədqiqatçılar üçün etibarlı mənbə rolunu oynayır. “Hər bir cəmiyyətin, quruluşun gələcəyini həyata yeni atılan, böyüyən və yetkinləşən nəsil təşkil edir. Bu nəsli yetişdirən isə ilk növbədə ailədir” yazmış Aida xanım ölkəmizə ləyaqətli övladlar bəxş edib. Bu nümunəvi ailənin ikinci qızı Mehriban xanım Əliyeva möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ən yaxın silahdaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidentidir. Həyatını elmə həsr edən böyük qızı akademik Nərgiz Paşayeva M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentidir. Professor Aida İmanquliyeva yaratdığı zəngin və tükənməz elmi irsi, elm təşkilatçılığı sahəsindəki fədakar əməyi, doğulub boya-başa çatdığı ailədən, soy-kökündən gələn əsilzadəliyi, xeyirxahlığı və humanizmi ilə hər zaman xalqımız, elmi və ədəbi ictimaiyyətimiz tərəfindən böyük ehtiramla xatırlanır”.

Sonra professor Aida İmanquliyevanın zəngin həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

AMEA prezidenti, akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, professor Aida İmanquliyeva Azərbaycan şərqşünaslıq məktəbinə yeni filoloji istiqamət gətirib. Onun ərəb ədəbiyyatına həsr etdiyi tədqiqatlar, monoqrafiyalar, məqalələr, yetirmələrinin yazdığı əsərlər şərqşünaslığın filoloji, ədəbiyyat qolunu inkişaf etdirib. Görkəmli alim ərəb mühacirət ədəbiyyatına dair əsərləri ilə Azərbaycan, bütövlükdə dünya şərqşünaslıq elminə əvəzsiz töhfələr verib.

Milli Məclisin sədr müavini, akademik, Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının professoru Rafael Hüseynov isə bildirib ki, şərqşünaslıq elminin əsasını mədəniyyətlər, dinlər, insanlar arasında körpü yaratmaq təşkil edir. Professor Aida İmanquliyevanın da bütün elmi fəaliyyəti Şərqlə Qərbi vəhdət şəklində öyrənməyə, mədəniyyətlərarası dialoqa həsr olunub. Bu baxımdan Aida İmanquliyeva Azərbaycan elminin, ziyalılığının işığı kimi daim parlayacaq.

Milli Məclisin üzvü, Türk filologiyası kafedrasının professoru Jalə Əliyeva, Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, Bakı Yunus Əmrə İnstitutunun direktoru Səlcuk Karakılıç, BDU-nun Ərəb filologiyası kafedrasının müdiri, dosent Vüqar Qaradağlı çıxışlarında professor Aida İmanquliyeva ilə bağlı xatirələrini bölüşüb, onun Azərbaycanın elm və təhsil tarixindəki müstəsna rolundan, cəmiyyətə, elmə, təhsilə, mədəniyyətə verdiyi əvəzsiz töhfələrdən danışıblar. Qeyd olunub ki, Şərq-Qərb mədəni əlaqələrinin inkişafında, Azərbaycan fəlsəfi fikrinin islam aləmində yayılmasında professor Aida İmanquliyevanın tədqiqatları mühüm əhəmiyyət kəsb edir.

Konfrans işini 8 bölmə iclası ilə davam etdirib.

# BDU və Ədliyyə Nazirliyinin Probasiya xidməti arasında əməkdaşlıq haqqında memorandum imzalanıb



***Dekabrın 23-də BDU və Ədliyyə Nazirliyinin Probasiya xidməti arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənədi BDU-nun rektoru Elçin Babayev və Probasiya xidmətinin rəisi Vüqar Ağayev imzalayıb.***

Memorandumun imzalanmasında məqsəd əməkdaşlıq, qarşılıqlı fəaliyyət və birgə layihələr vasitəsilə probasiya nəzarətində olan şəxslərin sosial-psixoloji xidmət sahəsində dəstəklənməsi və reabilitasiyasının həyata keçirilməsidir.

Memoranduma əsasən, probasiya qeydiyyatında olan şəxslərə sosial-psixoloji xidmət göstərilməsi prosesinə könüllülərin fəal şəkildə cəlb olunması, maarifləndirici tədbirlərin və seminarların təşkili, müvafiq sahələrdə qabaqcıl elmi-tədris, praktiki metodların tətbiqi üzrə dərs vəsaitlərinin hazırlanması, araşdırmaların və qarşılıqlı maraq doğuran digər işlərin aparılması ilə bağlı universitet və xidmət arasında əməkdaşlıq nəzərdə tutulur.

Tədbirdə BDU-nun rəhbərliyinə və professor-müəllim heyətinə Probasiya xidmətində könüllülük fəaliyyətinin dəstəklənməsi, habelə probasiya sahəsində aparılan işlər barədə də ətraflı məlumat verilib.

# BDU-nun 105 illik yubileyi çərçivəsində Jurnalistika fakültəsinin təqdimatı: “Dünyanın nəbzi mediada döyünür”



***Dekabrın 13-də BDU-nun 105 illik yubileyi çərçivəsində Jurnalistika fakültəsinin “Dünyanın nəbzi mediada döyünür” adlı təqdimatı keçirilib.***

Mərasimdə çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, 105 il ərzində Universitet Azərbaycanda ictimai-siyasi fikrin formalaşmasında mühüm xidmətlər göstərib, elm və təhsilin avanqardı olub. BDU təkcə elmin müxtəlif sahələri üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlamayıb, gənclərin vətəndaş kimi formalaşmasına əvəzsiz töhfələr verib.

Əliş Ağamirzəyev qeyd edib ki, keçmiş SSRİ-də ali jurnalistika təhsilinin əsası 1928-ci ildə məhz BDU-da qoyulub. Müəyyən fasilədən sonra 1945-ci ildən Filologiya fakültəsinin nəzdində yaradılan Jurnalistika şöbəsi 25 il bir kafedra – Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrası ilə təmsil olunub. 1969-cu ildə Jurnalistika şöbəsi müstəqil fakültəyə çevrilib. Hazırda Jurnalistika fakültəsi BDU-nun istehsalata ən çox inteqrasiya edən fakültəsidir. BDU-nun, o cümlədən fakültənin Medianın İnkişafı Agentliyi, Audiovizial Şura, Mətbuat Şurası, müxtəlif telekanallar və agentliklərlə sıx əlaqəsi var. Son zamanlar fakültədə müxtəlif ixtisaslaşdırılmış auditoriyalar istifadəyə verilib.

Daha sonra Jurnalistika fakültəsinin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli qeyd edib ki, Azərbaycan jurnalistikası millimənəvi dəyərləri qorumaq, dövlətçilik maraqlarını müdafiə etmək baxımından daim həmrəylik nümayiş etdirirlər. Ölkə jurnalistləri 44 günlük Vətən müharibəsində ölkə başçısının, Ordumuzun yanında olmaqla həm peşə, həm də vətəndaşlıq borclarını yerinə yetirdilər: “Bütün bunlar müasir jurnalist kadrların yetişməsində faydalandığımız əsas məqamlardır. Jurnalistika fakültəsində Əli Sultanlı, Mir Cəlal, Məmmədhüseyn Təhmasib, Nəsir İmanquliyev, Şirməmməd Hüseynov kimi korifeylər dərs deyib. Biz də onların öyrətdiyi ənənələr əsasında gənc nəsli formalaşdırır, müasir jurnalistikamızın fundamentini daha da gücləndirməyə çalışırıq”.



“REAL Təhlil və İnformasiya Mərkəzi” MMC-nin baş direktoru Mirşahin Ağayev Bakı Dövlət Universitetinin ölkənin ali təhsil sisteminin mənəvi komandanlığı işinin öhdəsindən uğurla gəldiyini və məbəd olduğunu bildirib: “BDU-nun fakültələri arasında Jurnalistika fakültəsinin tam fərqli yeri var. Biz burada təkcə informasiya, müsahibə, reportaj yazmaq öyrənməmişik, həm də təmizlik öyrənmişik”. “ARB 24” telekanalının direktoru Radik İsmayılov bu gün BDU-nun Jurnalistika fakültəsinin tədris fəaliyyətinin təşkili ilə yanaşı, praktik səviyyədə biliklərin tətbiq edildiyi aktiv platforma rolunu oynadığını deyib. Qeyd edib ki, Universitet və “ARB 24” telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində keçirilən "NewsLab" təlim proqramları vasitəsilə indiyədək 17 BDU tələbəsi telekanalda işlə təmin olunub. Ümumilikdə “ARB24”də 54 BDU məzunu çalışır, onlardan 42-ci Jurnalistika fakültəsinin məzunudur.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev Jurnalistika fakültəsinin məzunlarının müxtəlif dövlət qurumlarında BDU-nun adını ləyaqətlə təmsil etdiklərini bildirib.

Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin Hərəkətin təhlükəsizliyinin təbliği və ictimai qurumlarla əlaqə bölməsinin rəisi Toğrul Nəsirli hüquq-mühafizə orqanlarında çalışan jurnalistlərin peşə borcunu şərəflə yerinə yetirdiyini və ölkənin mənafelərini hər zaman qoruduğunu deyib.

Tədbir fakültənin tələbələri tərəfindən hazırlanan ədəbi-bədii kompozisiya ilə davam edib.

# BDU nümayəndə heyəti Qırğız Milli Aqrar Universitetinə rəsmi səfər edib

***Dekabrın 23-də BDU-nun nümayəndə heyəti Qırğız Milli Aqrar Universitetinə rəsmi səfər edib.***

Səfər zamanı BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov və Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Rauf Həsənov Qırğız Milli Aqrar Universitetinin beynəlxalq əlaqələr və investisiyaların cəlb edilməsi üzrə prorektoru Aijan Tolobekova, Tədris mərkəzinin direktoru Şərabidin Amatovla görüşüblər.

Görüş çərçivəsində iki universitet arasında əməkdaşlıq imkanları müzakirə olunub. Xüsusilə aqrar elmlər sahəsində birgə tədqiqatların həyata keçirilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının təşkili, eləcə də ikili diplom proqramlarının inkişaf etdirilməsi məsələləri ön plana çıxıb.

BDU nümayəndələri universitetin beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində atılmış addımlar, keyfiyyət təminatı və rəqəmsallaşma sahəsindəki yeniliklər barədə təqdimat ediblər. Təqdimatda BDU-nun beynəlmiləlləşmə strategiyası və qlobal rəqabət qabiliyyətini artırmaq üçün əldə ediyi nailiyyətlər xüsusi qeyd olunub.

Qırğız Milli Aqrar Universitetinin rəsmiləri təklif olunan əməkdaşlıq istiqamətlərini yüksək qiymətləndirərək, bu tərəfdaşlığın həm akademik, həm də elmi fəaliyyətlərdə yeni imkanlar yaradacağını vurğulayıblar. Tərəflər birgə layihələrin gələcəkdə daha da genişləndirilməsi və davamlı əməkdaşlıq əlaqələrinin qurulması ilə bağlı niyyətlərini ifadə ediblər.

# BDU-da Respublika Elmi-Texniki Kitabxanasının fəaliyyətinə həsr olunmuş elmi seminar

***Dekabrın 24-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə “Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasında mütəxəssislərə informasiya xidməti” mövzusunda elmi seminar keçirilib. Elmi seminarda Kitabxanaşünaslıq kafedrasının magistrantı Aysel Verdiyeva məruzə edib.***

Məruzədə 1930-cu ildə yaradılmış və hazırda fəaliyyətini Əqli Mülkiyyət Agentliyinin tabeliyində davam etdirən Respublika Elmi-Texniki Kitabxanasının formalaşması və inkişafı tarixinə nəzər salınıb.

Gənc tədqiqatçı Respublika Elmi-Texniki Kitabxanasının xüsusi oxucu kontingentinə malik olduğunu diqqətə çatdırıb, kitabxananın fəaliyyətinin spesifikasından, burada istifadə olunan iş metodlarından bəhs edib: “Respublika Elmi-Texniki Kitabxanası nazirliklərə, şirkətlərə, idarə və müəssisələrə, elmi tədqiqat və layihə institutlarına, elm və texnika sahəsində tədqiqat aparan ayrı-ayrı şəxslərə, ali məktəb tələbələrinə kitabxana xidməti göstərən aparıcı mərkəzdir”.

Məruzədə Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının strukturu, sənəd dövriyyəsi, kitab fondu, komplektləşdirmə mənbələri və prioritetləri barədə seminar iştirakçılarına ətraflı məlumat verilib.

# BDU-da görkəmli astrofizik Rəhim Hüseynovun 100 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib

***Dekabrın 28-də BDU-da AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor, Əməkdar müəllim Rəhim Hüseynovun 100 illik yubileyinə həsr olunmuş “Astrofiziki tədqiqatlara müasir baxış” adlı Respublika elmi konfransı keçirilib.***



Tədbirdən əvvəl "Azərbaycan Hava Yolları”na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU rektoru Elçin Babayev qeyd edib ki, görkəmli alim Rəhim Hüseynovun Azərbaycanın elm tarixində astrofizika sahəsi üzrə ilk elmlər namizədi və elmlər doktoru kimi özünəməxsus yeri var. Rəhim Hüseynov 1940-1946-cı illərdə BDU-nun Fizika-riyaziyyat fakültəsində təhsil alıb, Universiteti fərqlənmə diplomu ilə bitirib. 1949-1951-ci illərdə BDU-nun Astronomiya laboratoriyasında baş laborant, 1951-1953-cü illərdə müəllim, 1953-1954-cü illərdə baş müəllim, 1954-1961-cı illərdə dosent vəzifələrində çalışıb. 1946-cı ilin yayında Azərbaycan Elmlər Akademiyası və BDU-nun respublikada gələcək Astrofizika Rəsədxanası üçün əlverişli yerin seçilməsi məqsədi ilə birgə elmi ekspedisiyasının iştirakçısı olub. Uzun illər Şamaxı Astrofizika Rəsədxanasının Günəş fizikası şöbəsinə rəhbərlik edən Rəhim Hüseynov 1961-1975-ci illərdə Rəsədxananın elmi işlər üzrə direktor müavini işləyib. Rəhim Hüseynovun gərgin əməyi nəticəsində Rəsədxana təşkil olunanda onun baş planında nəzərdə tutulan Üfüqi Günəş Teleskopu alınaraq qurulub və işə salınıb. Rəsədxanada işlədiyi 20 ildən çox müddətdə bu elm ocağının yaranması və inkişafında Rəhim Hüseynovun müstəsna xidmətləri olub. 1975-ci ildə professor elmi adını alan alim 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilib.

Rektor bildirib ki, professor Rəhim Hüseynov yalnız alim kimi deyil, mükəmməl pedaqoq və elm təşkilatçısı kimi öz adını ölkəmizin elm və təhsil tarixinə yazıb. O, 1975-ci ildə BDU-da təşkil olunmuş Astrofizika kafedrasının müdiri təyin olunub, 17 il bu vəzifədə, 1992-ci ildən ömrünün sonuna qədər isə həmin kafedranın professoru vəzifəsində çalışıb. Beynəlxalq Astronomiya İttifaqının və Avropa Astronomiya Cəmiyyətinin üzvü olub. “Şərəf nişanı” ordeni ilə təltif edilib, “Əməkdar müəllim” fəxri adına layiq görülüb. Professor Rəhim Hüseynovun elmi əsərləri Günəş atmosferinin radiooptik xüsusiyyətləri, Günəş alışmalarının ilk fazası və onlarda gedən dinamik proseslər, planetar dumanlıq və onların əsas parametrlərinin təyini kimi məsələlərə həsr olunub. O, ilk dəfə Günəş alışmaları və radiopüskürmələrinin geniş diapazonda şüalanmasında məhəlli maqnit sahəsində relyativist elektronların əhəmiyyətli rolu barədə hipotez irəli sürüb. Planetar dumanlıqlara qədər məsafənin və onların nüvələrinin radiusunun yeni təyini üsullarını işləyib.

Sonra professor Rəhim Hüseynovun həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

Fizika fakültəsinin Astrofizika kafedrasının müdiri Kəmalə Alışeva alimin həyat və yaradıcılığı haqqında geniş məlumat verib. Bildirib ki, professor Rəhim Hüseynov 170-dən artıq elmi məqalənin, 6 elmi-kütləvi kitabın, bir monoqrafiyanın, ali və orta məktəblər üçün “Astronomiya” dərsliklərinin və “Azərbaycanca-rusca-ingiliscə astronomiya lüğəti”nin müəllifi olub. Onun 1997-ci ildə yazdığı “Astronomiya” və 2010-cu ildə yazdığı “Ümumi astrofizika“ dərslikləri bu gün də müəllim və tələbələrin stolüstü kitabıdır.

Elm və Təhsil Nazirliyinin N.Tusi adına Şamaxı Astofizika Rəsədxanasının baş direktoru, AMEA-nın müxbir üzvü Namiq Cəlilov, Rəsədxananın Planetlər və kiçik səma cisimləri şöbəsinin baş elmi işçisi, AMEA-nın müxbir üzvü Əyyub Quliyev, Fizika fakültəsinin Molekulyar fizika və optika kafedrasının professoru Niftalı Qocayev, professor Rəhim Hüseynovun nəvəsi Turan Hüseynova çıxışlarında görkəmli alimin elm və təhsil tariximizdə, ölkədə astrofizika elminin inkişafında rolundan danışıb, xatirələrini bölüşüblər.

Konfransın plenar iclasında isə BDU-nun dosentləri Xıdır Mikayılov “Azərbaycanda müşahidə astrofizikasının müasir cihazları”, Bayram Rüstəmov isə “Qoşa ulduz sistemlərinin tədqiqinin ulduzların yaranması və təkamülünün öyrənilməsində rolu” mövzularında məruzələr ediblər.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

# BDU əməkdaşları təyyarə qəzasında həlak olan ekipaj üzvlərinin məzarları önündə

***Dekabrın 29-da Bakı Dövlət Universitetinin kollektivi “Azərbaycan Hava Yolları”na məxsus təyyarənin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvləri - pilotlar İqor Kşnyakin, Aleksandr Kalyaninov və bələdçi, BDU-nun məzunu Hökumə Əliyevanın II Fəxri xiyabandakı məzarlarına əklil qoyub, çiçək dəstələri düzüb. Ekipaj üzvlərinin əziz xatirəsi ehtiramla yad edilib.***



Qeyd edək ki, qəzada həlak olan bələdçi Hökumə Cəlil qızı Əliyeva (Nəsibli) 2008-ci ildə 576 balla BDU-nun “Beynəlxalq hüquq” ixtisasına qəbul olunub. 2012-2015-ci illərdə “Mülki və təsərrüfat hüququ” ixtisaslaşması üzrə magistratura, 2017-2021-ci illərdə fəlsəfə doktoru proqramı üzrə qiyabi doktorantura təhsili alıb.

# BDU nümayəndələri Qırğız İqtisad Universitetində

***Dekabrın 24-də BDU-nun nümayəndə heyəti Qırğız İqtisad Universitetində olub.***

Səfər çərçivəsində BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov və Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Rauf Həsənov Qırğız İqtisad Universitetinin tədris işləri üzrə prorektoru Dinara Tursunaliyeva və elmi işlər üzrə prorektor Gülnaz Supayeva ilə görüşüblər.

Görüş zamanı iki universitet arasında əməkdaşlıq perspektivləri müzakirə olunub. Əsas diqqət birgə elmi tədqiqatların həyata keçirilməsi, tələbə və müəllim mübadiləsi proqramlarının təşkili, eləcə də ikili diplom proqramlarının inkişaf etdirilməsi məsələlərinə yönəldilib.

BDU nümayəndələri görüşdə universitetin beynəlxalq əlaqələrinin genişləndirilməsi və rəqəmsallaşma sahəsindəki yenilikləri əhatə edən təqdimat ediblər. Təqdimatda BDU-nun beynəlmiləlləşmə strategiyası və qlobal rəqabət qabiliyyətini artırmaq sahəsindəki nailiyyətləri xüsusi vurğulanıb.

Qırğız İqtisad Universitetinin nümayəndələri təklif olunan əməkdaşlıq istiqamətlərini yüksək qiymətləndirərək, bu tərəfdaşlığın akademik və elmi sahələrdə yeni imkanlar yaradacağını bildiriblər.

# BDU və Özbəkistanın Dünya İqtisadiyyatı və Diplomatiya Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

***Dekabrın 27-də BDU-nun nümayəndə heyəti Özbəkistanın Dünya İqtisadiyyatı və Diplomatiya Universitetində olub.***

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, Tədrisin təşkili və idarə olunması Mərkəzinin direktoru Elçin Məmmədov və BDU rektorunun maliyyə və inzibati məsələlər üzrə müşaviri Mirzə Mirzəyev Özbəkistanın Dünya İqtisadiyyatı və Diplomatiya Universitetinin təhsil və gənclərlə iş üzrə prorektoru Adil Yusifcanov, elm və innovasiyalar üzrə prorektoru Gülnoza İsmayılova ilə görüşüb.

Görüşdə akademik və elmi əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb, bunun iki ölkə arasında münasibətlərin inkişafına töhfə olacağına və qısa müddətdə real nəticələr verəcəyinə əminlik ifadə olunub.

Görüşün sonunda iki universitet arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Müqavilədə ortaq elmi tədqiqatların aparılması, elm və təhsil sahəsində birgə layihələrin hazırlanması, müəllim-tələbə mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulur.

# “Bayraktar Texnologiya Azərbaycan” şirkətinin nümayəndə heyəti ilə görüş

***Dekabrın 27-də BDU-nun rektoru Elçin Babayev “Bayraktar Texnologiya Azərbaycan” şirkətinin nümayəndə heyəti ilə görüşüb.***

Şirkətin direktoru Hüseyn Topuz qurumun Azərbaycanda fəaliyyətə başladığı 2022-ci ildən bəri gördüyü işlər, fəaliyyət istiqamətləri haqqında geniş məlumat verib. Görüşdə “Bayraktar Texnologiya Azərbaycan” şirkəti daxilində fəaliyyət göstərən PUA istehsalat müəssisəsində dizayn, mexanika, elektronika və proqramlaşdırma istiqamətlərində BDU tələbələri üçün təlim, təcrübəkeçmə və iş imkanları müzakirə olunub. Birgə fəaliyyət çərçivəsində uçuş sistemlərinə aid müxtəlif araşdırma, hesablama və rəqəmsal həllərin tətbiqinin bir hissəsinin BDU-da həyata keçirilməsinin mümkünlüyü vurğulanıb.

# BDU-nun 105, Biologiya fakültəsinin 90 illik yubileylərinə həsr olunmuş Beynəlxalq elmi konfrans keçirilir

***Dekabrın 19-da Bakı Dövlət Universitetinin 105, Biologiya fakültəsinin 90 illik yubileylərinə həsr olunmuş "Biologiyada nailiyyətlər və çağırışlar" mövzusunda XII Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.***

Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov 2024-cü ilin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu xatırladaraq, yaşıl dünya, yaşıl inkişaf və yaşıl enerji məsələlərinin dövrümüzün ən aktual problemləri olduğunu bildirib.

Hüseyn Məmmədov diqqətə çatdırıb ki, ölkəmizdə ekoloji siyasətin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyev Azərbaycanın bioloji müxtəlifliyinin qorunmasını, ekoloji problemlərinin həllini daim diqqət mərkəzində saxlayıb, ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə xüsusi qayğı ilə yanaşıb. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu il ölkəmizdə dünyanın ən nüfuzlu beynəlxalq tədbirlərindən biri olan Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) uğurla həyata keçirilib. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri kimi müəyyən edilmiş "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritetinə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində mühüm işlər aparılır.



Hüseyn Məmmədov vurğulayıb ki, son illərdə BDU-da da biomüxtəlifliyin qorunması, biotibb, yaşıl metodlarla materialların sintezi, biomühəndislik, virusologiya istiqamətlərində aparılan elmi-tədqiqat işləri genişlənir, ekoloji maarifləndirmə və ekoloji məsuliyyətin artırılması üçün layihələr həyata keçirilir. BDU təbiət elmləri sahəsində kifayət qədər yaxşı kadr potensialına və infrastruktura malikdir. 2024-cü ildə ətraf mühitin mühafizəsi əleyhinə törədilmiş qeyri-qanuni əməllərin araşdırılması, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə birgə BDU-nun nəzdində ECOLEAD Klinikası yaradılıb. Türkiyənin Antalya şəhərində keçirilmiş "TEKNOFEST-2024" Aerokosmik və Texnologiya Festivalında 3-cü yerə layiq görülmüş BDU-nun tələbə və gənc tədqiqatçılardan ibarət "ESST-6" komandasının "E-tarım sulama" layihəsi məhz ekoloji problemlərin intellektual həllinə yönəlib. BDU-da "Eko Məkan" adlı yeni ekoloji maarifləndirmə və tədqiqat mərkəzi açılıb.

Sonra Biologiya fakültəsinin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədova fakültənin tədris, elmi fəaliyyəti, uğurları ilə bağlı məlumat verib. O bildirib ki, keçirilən konfrans Biologiya fakültəsinin uğurlarını nümayiş etdirməklə yanaşı, bu sahədə müxtəlif ölkələrdən olan alimlərin fikir mübadiləsi aparması, yeni ideya və tədqiqatların müzakirəsi baxımından önəmlidir. Konfransa Türkiyə, İtaliya, Rusiya, Pakistan, Qırğızıstan, Özbəkistan, Çex Respublikası, Gürcüstan, İspaniyadan biologiya üzrə mütəxəsssislər, araşdırmaçılar qatılıb. Tədbir çərçivəsində genetika, biotexnologiya, ekologiya, biokimya, molekulyar biologiya, biofizika, tibbi biologiya, bitki və heyvan fiziologiyası, ekotoksikologiya və nanobiotexnologiyalar kimi sahələr üzrə 173 elmi-tədqiqat işinin müzakirəsi planlaşdırılır. Beynəlxalq konfransın əsas məqsədi biologiya sahəsində müasir nəzəri və praktiki nailiyyətləri müzakirə etmək üçün platforma yaratmaqdır. Bununla yanaşı, sağlam gələcək naminə bioloji elmlərin inkişafına dair yeni ideyaların formalaşdırılması və multidissiplinar əməkdaşlığın təşviq olunması konfransın əsas hədəflərindən biridir.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, Gənclər Fondunun icraçı direktoru Qədir Xəlilov, M. Lomonosov adına Moskva Dövlət Universitetinin professoru Mahir Məmmədov, tanınmış alim, şair, professor Mahirə Nağıqızı, BDU-nun Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva, Türkiyənin Yasar Universitetinin dekanı İsmayıl Türkan, Pakistanın Quaid-i-Azam Universitetinin professoru Muhammad Zafar, Özbəkistanın Andican Dövlət Universitetinin professoru Svetlana Məmbətullayeva, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Rəşad Allahverdiyev çıxışlarında biologiya elminin prioritet istiqamətləri, aktual problemləri barədə danışıb, bu sahədəki bilik və bacarıqların optimallaşdırılması, habelə elmi əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıblar.

Konfrans öz işini bölmə iclasları ilə 2 gün davam etdirib.

# Özbəkistanın Daşkənd Dövlət Hüquq Universitetində BDU nümayəndə heyəti ilə görüş



***Dekabrın 28-də BDU-nun nümayəndə heyəti Özbəkistanın Daşkənd Dövlət Hüquq Universitetində olub.***

Səfər zamanı BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, Tədrisin təşkili və idarə olunması Mərkəzinin direktoru Elçin Məmmədov və BDU rektorunun maliyyə və inzibati məsələlər üzrə müşaviri Mirzə Mirzəyev Daşkənd Dövlət Hüquq Universitetinin gənclərlə iş üzrə prorektoru Axrorxon Xoşimxonov ilə görüşüb.

Görüşdə iki ali təhsil müəssisəsi arasında 2021-ci ildə imzalanan əməkdaşlıq müqaviləsinin əhəmiyyəti vurğulanıb. Müqavilədə nəzərdə tutulan tədbirlərlə yanaşı, beynəlxalq əməkdaşlığın genişləndirilməsi məqsədilə elm, təhsil sahələrində yeni layihələrin həyata keçirilməsinə dair fikir mübadiləsi aparılıb. Görüşdə iki universitet arasında beynəlmiləlləşmə proseslərinin sürətləndirilməsi, müəllim-tələbə mübadiləsi proqramlarının təşkili, eləcə də ikili diplom proqramlarının inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

# BDU-da professor Abuzər Xələfova həsr olunmuş elmi seminar keçirilib

***Dekabrın 27-də İnformasiya və sənəd menecmenti fakültəsində ölkəmizdə kitabxanaşünaslıq elmi məktəbinin banisi, tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi, "Şərəf" və "Şöhrət" ordenli Abuzər Xələfova həsr olunmuş elmi seminar keçirilib.***

Elmi seminarda Kitabxanaşünaslıq kafedrasının müdiri, dosent Elçin Əhmədov "Professor Abuzər Xələfovun elmi tədqiqatlarının metodologiyası" mövzusunda məruzə edib.

Məruzədə kitabxanaşünas alim Abuzər Xələfovun ölkəmizdə ali təhsilli kitabxanaçı-biblioqraf kadrların hazırlanmasında xidmətlərindən bəhs olunub. Bildirilib ki, professor Abuzər Xələfovun fəal iştirakı ilə 1962-ci ildə kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevrilib, alim uzun müddət fakültənin dekanı və kafedra müdiri vəzifələrində çalışıb. Elçin Əhmədov alimin 500-ə yaxın əsərinin, o cümlədən fundamental monoqrafiyalarının, dərslik və dərs vəsaitlərinin çap olunduğunu qeyd edib. O, professor Abuzər Xələfovun xidmətlərinin Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini, alimin ali dövlət mükafatlarına, orden və medallara layiq görüldüyünü diqqətə çatdırıb.



Məruzədə professor Abuzər Xələfovun elmi irsi geniş şərh olunub, alimin kitabxana-informasiya fəaliyyəti sahəsində elmi-tədqiqatlarının əhəmiyyəti arxiv sənədləri, mənbələr əsasında diqqətə çatdırılıb.

Kafedra müdiri, dosent Nadir İsmayılov, dosentlər Azad Qurbanov, Pərviz Kazimi, tarix üzrə fəlsəfə doktoru Eldəniz Məmmədov çıxışlarında məruzə barədə fikirlərini bildirib, professor Abuzər Xələfovun elmi-pedaqoji fəaliyyətindən bəhs ediblər. Alimin nəvəsi, İnformasiya və sənəd menecmenti fakültəsinin I kurs tələbəsi Zeynəb Xələfova babasının elmi irsinə, tədris-pedaqoji fəaliyyətinə verilən yüksək qiymətə görə elmi seminarın təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib. Sonda professor Abuzər Xələfova həsr olunmuş videoçarx nümayiş etdirilib, fakültənin ən yüksək təhsil göstəricisinə malik tələbəsi Məkkə İsmayılovaya "Abuzər Xələfov mükafatı" təqdim olunub.

# BDU-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü qeyd olunub

***Dekabrın 29-da BDU-da 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə tədbir keçirilib.***

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin və "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğraması nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bu əlamətdar günün ölkəmizin tarixinin ən şərəfli günlərindən biri olduğunu deyib. O qeyd edib ki, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edib. Bundan sonra elə həmin il bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikası Ali Sovetində qərar qəbul edilib. 1992-ci ildə bu bayram ilk dəfə dövlət səviyyəsində rəsmən qeyd olunub. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunması məqsədilə 2001-ci il mayın 23-də Ulu Öndərin imzaladığı Sərəncamla 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultayda dərin məzmunlu nitq söyləyən Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 2006-cı ildə Dünya Azərbaycanlılarının II, 2011-ci ildə III, 2016-cı ildə IV, 2022-ci ildə V Qurultayının keçirilməsi həmrəyliyimizin möhkəmləndirilməsi və diaspor quruculuğu işinə əsaslı töhfələr verib. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlı ilə əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. 44 günlük Vətən müharibəsi Azərbaycanda formalaşdırılmış milli ideologiyanın, baş qaldırmış milli mənlik şüurunun, dirçəlmiş ənənələrin, möhkəmlənmiş dövlətçiliyin, milli həmrəyliyin bariz nümunəsidir. Heç bir gün çəkməyən lokal antiterror əməliyyatı ilə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, suverenliyimizin bərpa olunması ən müasir tariximizə daha bir zəfər kimi yazıldı. Bütün bu qələbələrimiz məhz Ulu Öndər Heydər Əliyev ideyalarının yaşadılması, Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalqımızın bir yumruq kimi birləşməsi, milli həmrəylik nümayiş etdirməsinin nəticəsidir.

Milli Məclisin (MM) Elm və təhsil komitəsinin sədri, BDU-nun Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri Anar İsgəndərov, MM-in Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə üzrə komitəsinin sədri, BDU-nun İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev, millət vəkilləri Pərvin Kərimzadə və Naqif Həmzəyev, Tarix fakültəsinin dosenti Səidə Quliyeva çıxışlarında Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün tarixi əhəmiyyətindən söz açıb, qələbələrimiz üçün əsas zəmin olduğunu bildiriblər. Qeyd olunub ki, 1993-cü ilin 15 iyunundan başlayaraq Azərbaycan milli qurtuluşdan Zəfərə qədər böyük bir yol keçib. Bu müddətdə xalqımızın milli həmrəyliyi daha da güclənərək, sonunda "Dəmir yumruq"a çevrilib və düşmənin başını əzib.

# "Konstitusiya və Suverenlik İli" ilə bağlı Tədbirlər Planı hazırlanacaq

***Dekabrın 29-da BDU-da 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" ilə bağlı Tədbirlər Planı hazırlanacaq. Bu barədə BDU Elmi Şurası qərar qəbul edib.***

BDU rektoru Elçin Babayev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi müstəqil siyasətini daha cəsarətlə davam etdirən ölkəmizin milli maraqları baxımından tarixi bir qərardır. Rektor diqqətə çatdırıb ki, 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alınıb, ictimai-siyasi sabitlik təmin edilib və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yaranıb. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil edib.




2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olub. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilib. Bütün bu tarixi proseslərin daha dərindən öyrənilməsi, tədqiqatların aparılması, gənc nəslə çatdırılmasına böyük ehtiyac var. Rektor qeyd edib ki, böyük potensiala malik elm və təhsil müəssisəsi kimi BDU bu prosesdən kənar qalmayacaq və "Konstitusiya və Suverenlik İli"nə öz töhfələrini verəcək.

# BDU nümayəndə heyəti Daşkənd Dövlət Şərqşünaslıq Universitetində

***Dekabrın 27-də BDU-nun nümayəndə heyəti Özbəkistanın Daşkənd Dövlət Şərqşünaslıq Universitetində olub.***

Səfər zamanı BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, Tədrisin təşkili və idarə olunması Mərkəzinin direktoru Elçin Məmmədov və BDU rektorunun maliyyə və inzibati məsələlər üzrə müşaviri Mirzə Mirzəyev Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin rektoru Gülçöhrə Rixsiyeva ilə görüşüb.

Görüş zamanı BDU ilə Daşkənd Dövlət Şərqşünaslıq Universiteti arasında 2020-ci ildə imzalanan əməkdaşlıq müqaviləsinin uğurla həyata keçirildiyi vurğulanıb. Qeyd olunub ki, müqavilə çərçivəsində müxtəlif illərdə qarşılıqlı səfərlər, elmi seminarlar, ustad dərsləri keçirilib. Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin nümayəndə heyəti BDU-nun Şərqşünaslıq fakültəsinin 100 illik yubileyi tədbirlərində uğurla iştirak edib.

Görüşdə iki ali təhsil müəssisəsi arasında əməkdaşlığın daha da gücləndirilməsi, beynəlmiləlləşmə proseslərinin sürətləndirilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının təşkili, eləcə də ikili diplom proqramlarının inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Daha sonra BDU nümayəndə heyəti Universitetin laboratoriya, muzeyləri və ötən il yaradılan Heydər Əliyev adına Azərbaycanşünaslıq Mərkəzi ilə tanış olub. Qeyd olunub ki, Azərbaycan xalqının, dövlətçiliyinin tarixində əvəzsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin adını daşıyan Mərkəz Azərbaycan dili, tarixi, mədəniyyəti, ədəbiyyatının təbliği məqsədilə yaradılıb.

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 29.12.2024
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08